www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 oktyabr 2014-cü il Cümə axşamı № 245 (5954) Qiyməti 40 qəpik

**Xəbər**

## Bərdədə qadın abort zamanı öldü

yazısı səh.14-də

**Gündəm**

### Vaşinqtondan Həştərxan bəyanatına sərt təpki



Rəsmi Bakı məsələyə reaksiya vermək istəmir; Vəfa Quluzadə: "Əgər Azərbaycan Amerikanın köməyi ilə Xəzərdə güclü donanma yaratmaq istəsə, buna kim qadağa qoya bilər?"

yazısı səh.9-da

### NİDA-çıların müraciətinə reaksiyalar davam edir

yazısı səh.3-də

### AŞ PA Qarabağla bağlı xüsusi məruzəçi təyin etdi

yazısı səh.2-də

### Kəlbəcər girovlarının məsələsi BMT və AŞ PA müstəvisinə çıxdı

yazısı səh.13-də

*Natiq Miri:*

### "İqtidarın davranışlarında yumşalma olacağı ehtimalı yüksəkdir"

yazısı səh.8-də

### Zahid Oruc Ziyafət Əsgərovla aralarındakı söz savaşından danışdı

yazısı səh.6-da

### Amerika neft istehsalında Səudiyyə Ərəbistanını geridə qoyur

yazısı səh.9-da

### Müsavatın qurultayının ittihamlarla müşayiət olunan davamı...

yazısı səh.7-də

### Partiya sədrləri həbsdəki fəallarla görüşmək istəyir

yazısı səh.5-də

### Hafiz Hacıyev Milli Şura ilə eyni günə mitinq təyin etdi

yazısı səh.4-də

### Paytaxtımıza 1 milyonluq "Bugatti Veyron" gətirildi

yazısı səh.14-də

## Ölkəni şoka salan cinayətin sensasion detalları

# GORANBOYDAKI QƏTLİAMIN TÜKÜRPƏDƏN TƏFƏRRÜATLARI - ÖZƏL ARAŞDIRMA

Qayınatasının evinə gecəyarı qumbara atıb 7 qohumunu öldürən Rafiq Hüseynovu bu cinayətə sövq edən səbəblər üzə çıxır; "Yeni Müsavat"ın əməkdaşları qan gölünə dönən evdən yazır...








yazısı səh.10-da

## "AAAF-İnşaat" MMC-nin rəhbəri haqda yeni səs-küylü faktlar

AZAL prezidenti Cahangir Əsgərovun himayəçisi olduğu şirkətin rəhbəri Tofiq Heydərovun ən müxtəlif dini qruplarla müdhiş əlaqələri üzə çıxır; MMC rəhbərinin hətta dindarların 2011-ci ildəki mitinqlərinə maliyyə dəstəyi verdiyi də iddia olunur

yazısı səh.5-də



Zakir Qaralov

### Baş prokurordan ümidverici əfv açıqlaması

yazısı səh.4-də



*Fəzail Ağamalı:*

### "Hakimiyyət dəyişikliyi terror yolu ilə həyata keçirilə bilər"

yazısı səh.6-da



*Ənnağı Hacıbəyli:*

### "Həbsimlə bağlı təhlükə hələ qalır"

yazısı səh.11-də

## İlham Əliyev xalqı təbrik etdi



**Prezident İlham Əliyev Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edib.**

Prezidentin rəsmi saytına yerləşdirilən təbrikdə deyilir:

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir.

Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, bu xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

**Əziz bacı və qardaşlarım!**

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

## Şəmsiyyə Bəylərqızının səhhəti kəskin pisləşib

**"İranın Azərbaycandakı sabiq səfiri Əfşar Süleymaninin keçmiş həyat yoldaşı və onun iddiası və şəri ilə həbs edilən Şəmsiyyə Bəylərqızının səhhətində ağır problemlər yaranıb". Bunu Ş.Bəylərqızının vəkili Elçin Sadıqov bildirib:**

"Şəmsiyyə xanımla əlaqə saxladıqda bildirdi ki, 4 saylı cəzaçəkmə müəssisəsində ona heç bir tibbi yardım göstərilmir, yaxınları tərəfindən göndərilən dərmanlar içəri buraxılmır. O, neçə vaxtdır ağır baş və ürək ağrılarından, arterial təzyiqdən, son günlər isə soyuqdəymədən əziyyət çəkir. Buna baxmayaraq, ona normal tibbi yardım göstərilmir. Bir neçə ay ərzində Şəmsiyyə xanım 35 kilo çəki itirib. Bununla bağlı yuxarı instansiyalara etdiyi müraciətlər də heç bir nəticə vermir".

❑ T.ƏHMƏDLİ

## Səbayel rayonunum prokuroru vəzifəsindən azad olundu

**Səbayel rayon prokuroru Şirxan Adıgözəlov vəzifəsindən azad olunub. "Qafqazinfo"ya daxil olan məlumata görə, 10 ildir prokuror işləyən Adıgözəlov işdən çıxarılıb. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov faktı təsdiqləyib. Onun sözlərinə görə, Şirxan Adıgözəlov yaş həddinə görə vəzifəsindən azad edilib və prokurorluq orqanlarından xaric edilib.**

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Abbas İsmayıla xalası oğlu Etibar Əsədovun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

# Ailəsi Tofiq Yaqubludan xəbər tuta bilmir



**"Sentyabrın 24-də "İsmayıllı işi" üzrə təqsirləndirilən şəxs qismində Apelyasiya Məhkəməsinin yekun iclasının qərarı ilə saxlanmış Müsavat Partiyası başqan müavini Tofiq Yaqublu və REAL hərəkatının sədri İlqar Məmmədovun həmin gündən etibarən bizimlə əlaqəsi Penitensiar Xidmətin qanunsuz davranışı nəticəsində mümkünsüz hala gətirilib".**

Bu sözləri Tofiq Yaqublunun qızı Nigar Yaqublu səsləndirib. Onun fikrincə, Cəzaların İcrası Məcəlləsinə görə məhkum edilmiş şəxslərin saxlanma yerinin müvəqqəti dəyişdirilməsi halı özünün razılığı və ailəsi ilə xəbərləşməsi təmin edilmək şərtilə edilməli idi: "Ancaq bir həftədən artıqdır ki, Penitensiar Xidmət atamın harada olmasını bizdən gizlədir, onunla görüşməyə icazə vermir. Bir həftədən artıqdır ki, onların hansı təcridxanada saxlanılması haqqında heç bir açıqlama və məlumat yoxdur. Biz bu vəziyyətdən narahatıq. Bir həftədir ki, atamla əlaqə saxlaya bilmirik. Bu gün bizə qeyri-rəsmi şəkildə bildirildi ki, onlar 2 saylı Şüvəlan İstintaq Təcridxanasında saxlanılırlar. Biz atamla görüşmək və sovqat aparmaq üçün oraya getdik. Lakin heç cür görüşə və sovqatın çatdırılmasına icazə vermədilər. Onun harasa köçürüləcəyi ilə bağlı qeyri-rəsmi məlumat verməklə bizi geri qaytardılar. Biz həddindən artıq narahatıq. Mən atamın hansı şəraitdə saxlanıldığını, işgəncəyə məruz qalıb-qalmadığını bilmədiyim üçün çox narahatam. Tələb edirəm ki, ən qısa zamanda atamın bizimlə əlaqəsi təmin olunsun və onun haraya köçürüləcəyi və ya köçürülmədiyi haqqında biz rəsmi məlumat verilsin".

**T.Yaqublu və İ.Məmmədovla bağlı Müsavat Partiyası da bəyanat yayıb.** "Penitensiar Xidmətin rəhbərliyinin bu qanunsuz davranışı, vicdan məhbuslarının ailəsi ilə qanunun imkan verdiyi çərçivədə xəbərləşmə hüququndan məhrum etməsi bizdə onların işgəncəyə məruz qalmaları haqda ciddi şübhələr yaradır" - deyə sənəddə qeyd olunur: "Məhkəməsi yekunlaşmış və vicdan məhbusu olan Tofiq Yaqublunun, İlqar Məmmədovun, Yadigar Sadıqovun, eləcə də uzun müddətdir istintaq altında saxlanılan 100-dən artıq digər vicdan və siyasi məhbusların azad edilməsini bütün dünya ictimaiyyətinin qətiyyətlə tələb etdiyi bir vaxtda Azərbaycan Milli Məclisinin 30.09.2014 tarixli sessiyasında Avropa İttifaqının qanunsuz həbs edilmiş bu şəxslərin dərhal azad edilməsi haqda qətnaməsini əleyhinə qərar qəbul etməsi və qərara Avropa İttifaqı ilə münasibətlərinə yenidən baxmaqla bağlı hədələyici notlar salması fonunda Azərbaycan hakimiyyətinin Tofiq Yaqublu və İlqar Məmmədovla bağlı belə qeyri-humanist davranışı hiddət doğurur.

Müsavat Partiyası tələb edir ki, hakimiyyət özünün qeyri-qanuni hərəkətlərindən əl çəkməli, Tofiq Yaqublunun və İlqar Məmmədovun ailəsi ilə xəbərləşmə hüququnu dərhal təmin etməlidir".

❑ Nərgiz LİFTİYEVA

## AŞ PA Qarabağla bağlı xüsusi məruzəçi təyin etdi

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyası çərçivəsində qurumun Siyasi İşlər və Demokratiya Komitəsinin toplantısı keçirilib. APA-nın Avropa bürosunun xəbərinə görə, komitənin toplantısında "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" adlı hesabatın hazırlanması ətrafında müzakirələr aparılıb və bu məsələ üzrə Böyük Britaniyadan olan parlamentar Robert Valter məruzəçi təyin edilib.**

Komitədəki müzakirələrdə iştirak edən Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Elxan Süleymanov APA-ya açıqlamasında bildirib ki, iclasda onun təqdim etdiyim qətnamə layihəsi ilə bağlı AŞ PA Bürosunun 2 sentyabr tarixində qəbul edilmiş və 29 sentyabr tarixində plenar iclasda təsdiqlənmiş qərarı əsasında "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" adlı məruzənin hazırlanması üçün məruzəçi təyin olunub: "Məruzəçi Robert Valter oldu. Səsvermədə Robert Valter 35 səslə AŞ PA-nın keçmiş sədri, fransalı deputat Jan-Klod Minyonu 3 səslə üstələdi. Qeyd etməliyəm ki, Ermənistan hakimiyyəti, AŞ PA-dakı ermənipərəst qruplaşmalar, dünyanın aparıcı güc mərkəzlərindəki ermənipərəst qüvvələr Ermənistanın işğalçılıq siyasətini ifşa edən, bu işğalçı dövlətə qarşı sanksiyaların tətbiqini tələb edən hər hansı bir sənədin nəinki qəbulunun, hətta hazırlanmasının qarşısını almaq üçün bütün imkanlarını səfərbər ediblər. Lakin biz ümid edirik ki, yeni təyin edilmiş məruzəçi təzyiqlərə baxmayaraq, obyektiv məruzə hazırlayacaq, Ermənistanın işğalçı dövlət olduğunu və işğal etdiyi ərazilərdə mülki əhaliyə qarşı kütləvi şəkildə cinayətlər törətdiyini bir daha dünya ictimaiyyətinə çatdıracaq, məruzənin qətnamə hissəsində ilk dəfə olaraq işğalçı Ermənistana qarşı konkret sanksiyaların tətbiqini tələb edəcək".

## Bakı-Şamaxı yolunda ağır qəza

**Bakı-Şamaxı yolunun 88-ci kilometrliyində ağır yol-nəqliyyat hadisəsi baş verib.**

Axar.az xəbər verir ki, Bakı istiqamətində gedən 36 BD 577 dövlət qeydiyyat nişanlı "Ford Transit" markalı mikroavtobus 61 BD 269 nömrəli VAZ 2107 markalı avtomobillə toqquşub.

Toqquşma zamanı VAZ 2107 yol kənarında dayanmış 10 ML 249 nömrəli VAZ 21099 markalı avtomobilə çırpılıb.

Qəza nəticəsində VAZ 2107 markalı avtomobildə olan Muradov Hünər Mirəli oğlu yerindəcə ölüb. Digər iki şəxs - Ağamalıyev Zeynur Seymur oğlu və Məmmədov Nəriman Elşad oğlu yaralanıb.

## Ermənistanda çalışan türk şirkəti ilə bağlı etiraz

**QAT Türkiyə şirkətinin ermənilərlə əməkdaşlığına etiraz olaraq qardaş ölkənin Azərbaycandakı səfirliyinə məktub göndərib. Bu barədə təşkilatın mətbuat xidmətinin "Yeni Müsavat"a verdiyi məlumata görə, məktubda deyilir: "Mətbuatda gedən məlumatlara görə, qardaş Türkiyənin "Öztürklər Holdinq" deyilən şirkəti Ermənistanda yaşayış binalarının inşasına başlayıb, bu işə külli miqdarda vəsait qoyub. Şirkətin rəhbəri Yusif Öztürk isə bu hərəkətindən "qürur duyduğunu" bildirib.**

Xahiş edirik, bu məsələyə aydınlıq gətirəsiniz. Doğrudanmı, Türkiyə şirkətləri artıq işğalçı Ermənistana vəsait qoymağa başlayıblar? Doğrudanmı, Türkiyə şirkətlərinin artıq işğalçı Ermənistanla əməkdaşlığa ehtiyacı var, yoxsa erməni lobbisinin sifarişini yerinə yetirirlər?...

Biz bu hadisə ilə bağlı dərin narahatçılığımızı bildirir, bu hərəkəti bütün Türkiyə üçün rüsvayçılıq hesab edirik. Hesab edirik ki, Türkiyə hökuməti bu məsələni dərhal araşdırmalı, qarşısının alınması üçün tədbirlər görməlidir. Biz Azərbaycan hökumətinə də müraciət edir, bu şirkətin Azərbaycanda hər hansı fəaliyyətinin, əlaqələrinin dayandırılmasını tələb edirik".

❑ Cavid TURAN



## "Prezidentlərin Paris görüşü mühüm önəm daşıyır..."

**Almaniyanın Ermənistandakı səfiri Rayner Morel Azərbaycan və Ermənistan prezidentlərinin Paris görüşünü Qarabağ nizamlanması üçün mühüm əhəmiyyətli sayır. Musavat.com-un erməni informasiya qaynağına istinadən verdiyi xəbərə görə, bu barədə o, danışıqlar prosesinin gedişini dəyərləndirərkən deyib.**

"Hətta görüşün yekununda heç bir sənəd imzalanmasa belə, dialoq faktının özü pozitiv sayıla bilər. Axı, nə qədər ki, danışılar gedir, güllə atılmır" - əlavə edib diplomat. Onun sözlərinə görə, Dağlıq Qarabağ probleminin nizamlanması mürəkkəb məsələdir və mühüm şərtlərdən biri dövlət başçılarının görüşləri və danışıqlarıdır.

Xatırladaq ki, Azərbaycan və Ermənistan prezidentlərinin üçtərəfli formatda növbəti görüşü Fransa prezidenti Fransua Ollandın iştirakı ilə oktyabrın sonuna nəzərdə tutulub.

## "Deyirlər ki, pulların hamısını bizə verin"

### Deputat bankir oğlundan danışdı

**Milli Məclisin 82 saylı Ağcabədi seçki dairəsindən seçilmiş deputatı Tahir Rzayev oğlunun rəhbəri olduğu "Muğanbank"ın Ağcabədi filialı tərəfindən rayonun Avşar kəndi sakinlərinə kredit vəsaiti verilməməsi barədə mətbuatda yayılan məlumatlara münasibət bildirib.**

Deputat T.Rzayev publika.az-a açıqlamasında kreditlə bağlı baş verən bu hadisəni ona qarşı təxribat adlandırıb.

**Deputat deyib:** ""Muğanbank" Ağcabədi rayonunda da kiçik filial açıb. Filialın cəmi 5-6 nəfərlik işçi heyəti var. Mənim oğlum da "Muğanbank" Ağcabədi filialının rəhbəri təyin olundu. Bilirsiniz ki, Ağcabədi rayonunun Avşar kəndi var. Bu kəndin adamlarının əksəriyyəti yaxşı adamlardır. Amma onların arasında emosional adamlar da var. Bu adamlar da gəlib oğluma deyir ki, bütün kreditləri bizə verin. Burada da kreditlərin verilmə şərtləri mövcuddur. Yəni kredit vəsaiti hər adama verilmir. Bu kredit müəyyən pensiya yaşı çatmış adamlara güzəştli şərtlərlə verilir. Onlar da bu kredit vəsaitilə toy və digər işlərini görə bilirlər. Ancaq Avşar kəndinin bəzi sakinləri yığılıb gəlir, deyir ki, pulların hamısını bizə verin və sairə. Axı belə olmaz? Oğlum da onlara deyir ki, ay camaat, kredit verilişi qaydalarla olur. Rayon filialına gələn bütün kredit vəsaitlərini bir kəndə vermək olmaz. Bu vəsaitlər bütün kəndlərə verilə bilər. Bu adamlar da təkid edir ki, yox, o kreditlərin hamısını biz almalıyıq".

T.Rzayev həmçinin qeyd edib ki, oğlunun və özünün heç özəl bankı yoxdur:

"Mənim və ya oğlumun bankı yoxdur. Mən deputatam, ümumiyyətlə, mənə bank işi ilə məşğul olmağa qanun icazə vermir".



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Həbsdə olan NİDA Vətəndaş Hərəkatının Bakı İstintaq Təcridxanasında saxlanılan üzvləri Rəşadət Axundov, Rəşad Həsənov, Üzeyir Məmmədli, Zaur Qurbanlı, Məmməd Əzizov və İlkin Rüstəmzadənin prezident İlham Əliyevə müraciət etməsi barədə xəbər vermişdik.**
**Artıq bu müraciətə ilkin reaksiyalar və suallar gəlib. Oktyabrın 1-də yayılan sənədin detalları ilə bağlı gənclərin vəkilləri Elton Quliyev və Xalid Bağırov açıqlama versələr də, ortada cavabını gözləyən xeyli suallar var.**

# NİDA-çıların müraciətinə reaksiyalar davam edir

## Zamin Hacı: "Bu gənclər buraxılmalıdır"
## Ülvi Həsənli: "Hökumət bu müraciətlərlə özünü vəziyyətdən çıxarmağa çalışır"



Sosial şəbəkədəki üstün rəy müraciətin olduqca korrekt yazılması və bu, gənclərin azadlığa çıxması ilə nəticələnərsə, müsbət olması yönündədir. Amma bununla belə, ictimai sektordakı radikal fikirli şəxslər arasında bu müraciəti tənqid edənlər də oldu.

**Köşə yazarı Zamin Hacı** hesab edir ki, sözügedən müraciət çox yaxşı hazırlanıb və siyasi məzmunludur. Müsahibimizin sözlərinə görə, orada doğrudan da əfv istəmək və yaxud günahlarını etiraf etmək tipində heç bir cümlə yox idi: "Onu siyasi müraciət kimi qəbul edirəm. Belə deyək ki, bunu əslində NİDA-çıların özlərini vəziyyətdən çıxarmaq yox, hakimiyyətin vəziyyətdən çıxarılması kimi qiymətləndirib qınaya bilərəm. Hakimiyyət pis vəziyyətdədir. Çoxlu adamları tutublar. Buna görə də Avropa və dünya qarşısında hesabat verirlər. Bu, bizə belə görünməyə bilər. Amma əslində problemləri ciddidir. Hər nə qədər korrupsiyaya uğramış rejim olsa da, Qərblə münasibətləri saxlamaq daha sərfəlidir, nəinki Rusiya ilə. Qərbdən təzyiqlər böyükdür. Siyasi məhbuslar üst-üstə yığılıb, xeyli "köhnələr" qalıb. Keçmiş siyasi məhbusları vaxtaşırı hansısa formada buraxmaq lazımdır. Loru dillə desək, həbsxanada yer olmalıdır".

**Z.Hacı hesab edir ki, NİDA-çılar "köhnələrdən" olduğu üçün hökumət onları buraxdırmaq istəyir. Bu səbəbdən də zindanda olanlarla danışıqlar aparıb. Müsahibimizin fikrincə, təşkilat üzvlərindən hər hansı bir sənəd yazmaları xahiş olunub:** "Yəqin ki, bu, üçtərəfli danışıqlar olub. Avropalı nümayəndələr, NİDA-çılar və hakimiyyət. Onlardan xahiş olunub ki, belə mətn yazın, əlimizdə format olsun. Əgər gəncləri buraxacaqlarsa, özləri üçün xeyir edəcəklər. Bu siyasi dustaqlar cəmiyyət üçün nə qədər ziyanlıdırsa, hakimiyyət üçün daha ziyanlıdır. Bəzi adamlar deyir, bu, əfv ərizəsi deyil. Həqiqətən ərizəni ilin əvvəlindən yazanlar var, amma onları buraxmayıblar. Bu da onunla bağlıdır ki, hakimiyyəti indiki vəziyyətdə bu gəncləri buraxmaq ciddi şəkildə narahat etmir. Hakimiyyəti özünün problemləri narahat edir. Hökumət ağıllı olub bu gəncləri buraxmalıdır".

"Gec-tez bizim gəncləri-miz də başa düşürlər ki, səhv yolda olublar və sözsüz, bununla bağlı müəyyən qərar qəbul olunacaq. İndi NİDA-çı gənclər də əfv olunmaq üçün prezident İlham Əliyevə müraciət ediblər. Sözsüz ki, bu barədə cənab prezident qərar qəbul edəcək. Həbsdə olan NİDA-çıların əfvi prezidentin səlahiyyətində olan məsələdir".

ANS PRESS-in məlumatına görə, baş prokuror Zakir Qaralov belə deyib.

**Bu arada NİDA Vətəndaş Hərəkatı həbsdə olan üzvlərinin müraciətinə reaksiya bildirib. Təşkilatın yaydığı bəyanatda deyilir:** "Həbsdəki üzvlərimizin müraciəti hansı şəraitdə yazmaları barədə məlumatımız yoxdur. Ona görə də müraciətin mətni ilə bağlı ətraflı fikir yürüdə bilmirik. Bildiyiniz kimi, NİDA-çılar 19 aydır günahsız yerə həbsdədirlər. Bu müddət ərzində müxtəlif yollarla "müraciət" yazmalarına nail olmaq üçün dəfələrlə cəhd edilib. Hakimiyyət uzun müddətdir gəncləri, jurnalistləri, siyasi fəalları, hüquq müdafiəçilərini, bloggerləri ictimai-siyasi fəaliyyətlərinə görə həbs edir. Sonra da özlərinin cinayət əməllərinə, günahsız insanların həbs olunmasına haqq qazandırmaq, daxili və xarici təzyiqlərdən diqqəti yayındırmaq məqsədilə avtoritar rejimlərə xas formada həbsdəkilərə "kağız parçasına" öz eşitmək istədiklərini yazdıraraq vəziyyətdən çıxmağa çalışırlar. Hakimiyyət bilməlidir ki, bu əməllərlə azadlıq və demokratiya uğrunda mübarizə aparan insanları yolundan çəkindirə, onların mübarizə əzmini sındıra bilməyəcək. Biz şərlənərək həbs olunmuş dostlarımızın tezliklə azadlığa çıxmasını gözləyirik. İnanırıq ki, birlikdə mübarizəmizi davam etdirəcəyik və demokratik dəyişikliklərə nail olacağıq".

**NİDA Vətəndaş Hərəkatının üzvü Turqut Qəmbər "Yeni Müsavat"a açıqlamasında həbsdəki gənclərin müraciətindən danışdı. Dedi ki, aralarında bununla bağlı hər hansı müzakirə olmayıb:** "Bu qərarı həbsdəki yoldaşlarımız verirlər. Onu NİDA-nın yox, ordakı yoldaşlarımızın qərarı kimi qəbul etmək lazımdır".

**Müsahibimizdən İdarə Heyətinin açıqlaması ilə həbsdəki gənclərin müraciəti arasında hər hansı ziddiyyət olub-olmamasını soruşduq. Dedi ki, qətiyyən belə bir təəssürat yoxdur:** "İdarə Heyətinin verdiyi bəyanatın mahiyyəti budur ki, hakimiyyət bu tipli şeylərə ehtiyacı olduğu üçün qınanır".

**NİDA İdarə Heyətinin üzvü Ülvi Həsənli isə hazırladıqları bəyanatla bağlı bildirdi ki, bu müraciət Azərbaycandakı real vəziyyəti, siyasi məhbusların olmasını inkar eləyə bilməz:** "Problem hökumətdədir. Hökumət bu müraciətlərlə özünü vəziyyətdən çıxarmağa çalışır. Ölkədə vəziyyət budur və bunun da birbaşa günahkarı hökumətdir. Dostlarımızın azadlığa çıxmasını arzulayırıq".

**Müsahibimiz dedi ki, həbsdəki gənclər bu qərarlarını onlarla müzakirə etməyiblər. Ü.Həsənli məhz bu səbəbdən qərarın onlar üçün gözlənilməz olduğunu vurğuladı:** "Çox qısa vaxtda bu qərara gəliblər yəqin. "Bu ərizə NİDA üzvlərində hər hansı ruh düşkünlüyü yaratdımı" sualına isə cavab verim ki, qətiyyən yaratmadı. İnsanlar inanırlar ki, həbsdəki dostlarımız səmimidirlər. Bilirlər ki, hökumət təzyiq edir. Çünki hökumət də pis vəziyyətdədir. Kənarda bir qisim insan var ki, onlar əvvəlcədən o insanların səmimi mübarizəsinə inanmırdılar. İndi də məhz onlar podiumdadırlar, performans göstərməyə çalışırlar. Hökumətin məqsədi heç də daha öncəki kimi, "sındırdıq, əzdik" xarakterli deyildi. Bunu da mühakimə qabiliyyəti olan hər kəs bilir".

**Və bu məsələdə sual doğuran ən önəmli detal: hökumət, dolayısı ilə də Ədliyyə Nazirliyi, Penitensiar Xidmət bu ərizənin yazılması üçün gənclərə hər hansı formada təzyiq edibmi? Bu müraciət niyə dərhal ictimaiyyətə yayılıb? Penitensiar Xidmətin mətbuat xidmətinin rəhbəri Yaşar İsakov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, həmin şəxslərin xahişi əsasında müraciətləri olduğu kimi yayılıb:** "Cəzanı icra edən orqan üçün bu şəxslər NİDA üzvü və ya hansısa siyasi mövqeyi olan şəxslər deyil, yüzlərlə təqsirləndirilən şəxslərdəndir. Həmin şəxslərin xahişi ilə Penitensiar Xidmət onların ölkə prezidentinə müraciətini KİV-in diqqətinə çatdırıb. Bu, təqsirləndirilən və məhkum edilmiş şəxslərin qanunvericiklə müəyyən edilmiş hüququdur. Penitensiar Xidmət isə öz üzərinə düşən işi görür".

❑ Sevinc TELMANQIZI

---

# Zora öyrəncəli, dəhşət saçan insanlar...



Elşad MƏMMƏDLİ
elshad1978@gmail.com

**Qılınc müsəlmanı... Uzun zamanlardan bəri xalqımız məhz bu cür xarakterizə edilir. Bəlkə də yaşadığı tale, tarixən başına gətirilən müsibətlər millətimizi bir növ hansısa qaydanı, ənənəni zorən mənimsəməyə, "zorakılıqlar tətbiq etməklə yaşamaq" düşüncəsinə kökləyib. Sanki bu cür yaşam tərzi qanına, geninə sirayət edib insanlarımızın...**

Biabırçılıqdır, müstəqil olduğumuz 23 ildə normal həyat tərzi, müasir ənənələri könüllü, təbii axarla formalaşdıra bilməmişik və vəziyyət getdikcə kritikləşir. İnsanlar elementar - yazılmamış qaydaları, texnika ilə davranışı, toy-yas məclislərini, hansısa anlaşılmazlığı öz məcrasında reallaşdırmağı qavramaqda sanki acizdirlər. Artıq elə bir durum yaranıb ki, hər hansı bir məsələdə məcburiyyət, sərtlik anlayışına nifrət edən biri olsam da, adamlarımıza qadağalar, sərt qaydalar tətbiq edilməsinin tərəfdarına çevrilmişəm. Çünki başqa yol görünmür.

Son iki-üç həftədə ölkəmizdə baş verən hadisələr cəmiyyətin son dərəcə təhlükəli, idarəolunmaz hala düşdüyünün göstəricisidir.

Birinci nümunə; neçə illərdir insanlar dəbdəbəli yas mərasimlərindən ikrahla danışırdılar. Hökumət yas məclislərinə məhdudiyyətlər tətbiq etməyə başlayıb. Düzdür, hansısa məmurun yası düşən adamın həyətinə soxulub zorakılıqlar etməsi də yolverilməzdir, bu da gec-tez qanla bitə bilər. Amma ümumilikdə bu dəbdəbəli məclislərlə vidalaşılmalıdır, bunu el ağsaqqalları tənzimləməlidir və insanlar da qəbul etməlidirlər. Və bu qaydalar təkcə kasıb-kusuba deyil, şeyxin obyektlərində də tətbiq olunmalıdır. Ancaq indi bu məsələdə mərəkə qopub, insanlara bu qaydaları zorən tətbiq etmək məcburiyyəti yaranıb...

İkinci nümunə; ölkəmizdə toy "ənənələri" də əndazəni çoxdan açıb. Bunlar təcili dəyişməlidir. Söhbət təkcə şadlıq evlərindəki fantastik menyuların dəyişdirilməsindən getmir. Həm də özünü toyda, gəlin gətirmədə aparmaqdan gedir. Məsələn, bir neçə gün öncə Ağcabədidə keçirilən toy məraismində 7 nəfər bıçaqlandı, onlardan biri - bəyin xalası oğlu dünyasını dəyişdi. Bu toydurmu? İnsan toya gəldiyinin fərqində deyilsə, onun bu məclisdə nə işi var?...

Sentyabrın 29-da isə Ağsudan Göyçaya toya gələn maşın karvanındakı bir "Mercedes" nə oyunlar çıxarırmışsa, qarşıdan gələn CİP-ə çırpılıb, nəticədə 9 nəfər ölüb. Toy vaya dönüb, üstəlik "Mercedes"in sürücüsü öz arvadını, qızını, gəlinini, körpə nəvəsini öldürdü, eyni zamanda toqquşduğu avtomobildəki bir ailəni - yaşlı ər-arvadı və onların gəlinin də məhv etdi.

Dünən də Goranboy rayonunda yol qəzasında Bəxtiyar Əhməd oğlu Eyvazov idarə etdiyi "Renault" markalı avtomobili ağaca çırpıb. Qəza zamanı avtomobildə olan sərnişin, Bakı şəhərindən Bəxtiyarın oğlunun kiçik toyuna gedən Roman Məmmədov ölüb. Roman toya getmişdi, ölməyə yox...

Bunları eşidəndən sonra bahalı toy menyuları ilə yanaşı, toy karvanlarının qadağan edilməsi təklifi də gündəmə gəlir...

***

Yeri gəlmişkən, ümumiyyətlə, sentyabrın 29-u və 30-da ölkədə baş verən yol qəzalarında 20-dən çox insan ölüb! Bütövlükdə sentyabr ayında isə 100-ə yaxın Azərbaycan vətəndaşı yol qəzalarında dünyasını dəyişib.

Belə biabırçılıq olarmı? Sanki ölkədə müharibə gedir.

***

Cəmiyyətin problemləri təkcə maşın sürmək, toy və yas deyil. Ümumiyyətlə, sanki insanlar əksərən başını itirib, psixoz vəziyyətdədir, bütün məsələlərdə nə etdiyinin fərqində deyil. Ətrafımızdakı adamlar istər toyda, istər sükan arxasında, istər küçədə təhlükə saçır! Bu qəbildən olan dəhşətli bir hadisə sentyabrın 30-da baş verdi. Sumqayıt sakini bir qızı evlənmək adı ilə qaçırıb. Qız buna etiraz edib. Bu səbəbdən oğlan maşında olan benzini həm qızın, həm də özünün üzərinə tökərək yandırıb.

Bu nə deməkdir? Belə evlənmək olur?...

Oktyabrın ilk günündə isə Azərbaycanda indiyədək görünməmiş qətliam baş verdi. Goranboy rayon sakini Rafiq Hüseynov qayınatasının evinə gələrək, öz arvadı da daxil olmaqla, onların 7 ailə üzvünü qətlə yetirib, 2 nəfəri isə yaralayıb.

Oktyabrın 1-də Sabunçu rayonunda isə Rafiq Kərimov adlı birisi 50 yaşlı arvadını bıçaqlayıb...

Bu olaylar insanda belə bir qənaət formalaşdırır ki, ölkədə xeyli insan potensial İŞİD-çidir, terrorçudur, zora, faciə törətməyə meyllidir, hər dəqiqə hər birimizi qətlə yetirə bilərlər!

Çox dəhşətli bir durumdur; insanlarla ciddi işləmək, əhali arasında maarifləndirmə işlərinə başlamaq və **ADAM KİMİ YAŞAMAĞIN** qaydalarını hər kəsə öz başa düşdüyü dildə təbliğ etmək lazımdır. Hətta bəzilərinin anladığı başqa dil olmadığı üçün yaşam qaydalarını ona zorən öyrətmək gərəkir... Necə deyərlər, könüllü öyrənməyəcəksənsə, zorla öyrədəcəklər. Cəmiyyət mühəndisləri hərəkətə keçməlidir, hansısa bir yolla cəmiyyəti normallaşdırmaq, sağaltmaq lazımdır. Yoxsa gec-tez hər birimiz bu dəhşətlərin qurbanı olacağıq.

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014



# Əfv ərizəsi yazanlar və yazmayanlar

Azər RƏŞİDOĞLU

**Həbsdə olan gənc fəalların əfv ərizəsi yazması cəmiyyət tərəfindən birmənalı qarşılanmadı. Siyasi motivlərə görə həbs edilən NİDA-çıların özlərinə məxsus formada ölkə başçısına müraciət etməsini də kimlərsə qınadı, kimlərsə bunu normal qarşıladı. Təqdirəlayiq haldır ki, cəmiyyətin əfvlə bağlı müraciət edənlərə mənfi münasibəti artıq aradan qalxıb.**

Belə münasibət hakimiyyətin həbsə düşən və azadlığa çıxmaq üçün müraciət edənlərdən xain obrazı yaratmaq cəhdlərinə zərbələr endirir.

Şübhəsiz ki, azadlığını heç bir günahı olmadan itirən insanların həbsxanadan çıxmaq istəyi onların haqqıdır. Bu məsələdə heç kəs onları qınaya bilməz. Əgər söhbət gənc fəallardan gedirsə, bu qınaq əcaib təsir bağışlayır. Söhbət həbsxanadan çıxmaq istəyindən də getmir. Həbsdən sonrakı fəaliyyətdən gedir. Əgər radikal müxalifətçi obrazı olan bir sima, əfv yazaraq, həbsdən azad olursa və azadlığının ilk günlərindən onu "dəmir barmaqlıq"lara göndərənləri mədh edir, bütün bu illər ərzində onları müdafiə edənləri lənətləyirsə, bu, təbii ki, qınanmalıdır.

Əfv yazıb, azadlığa çıxıb, müxalifətçiliyini davam etdirən insanlar isə manevrlərinə görə qınanmamalıdırlar. Lakin burada incə bir məqam da mövcuddur. Əfv yazmayan, azadlığa çıxan və müxalifətçiliyini davam etdirən şəxslərə haqsızlıq edilmirdi? Eyni təzyiqlərlə onlar da üzləşiblər. Lakin əfv ərizəsi yazmaqdan qəti şəkildə imtina ediblər. Ən acınacaqlısı isə odur ki, əfvlə bağlı prezidentə müraciət etməyən simaların taleyi heç də ürəkaçan olmayıb.

9 il həbsdə oturmalı olan, əfvlə bağlı ölkə rəhbərinə müraciət etməyən AXCP sədrinin sabiq müavini Asəf Quliyev bu gün elə müxalifətçilər tərəfindən "çarmıxa çəkilir".

Gənc olmalarına baxmayaraq, həbsxanaya düşən və ən ağlasığmaz metodlara qarşı savaşan, lakin əfv ərizəsi yazmayan müsavatçılar Tural Abbaslı, Əhəd Məmmədli, Rüfət Hacıbəylinin elə əzən öz partiyadaşları oldu.

Adıçəkilən və çəkilməyən fədakar insanlara münasibətin olduqca mənfi olduğu bir düşərgədə əfv yazanları bir qəhrəmanlıq simvoluna çevrilmələri anlaşılan deyil.

Müxalifət düşərgəsində maraqlı tendensiyalar baş verir. On illər boyunca fədakarcasına mübarizə aparan partiyanın sıravi üzvləri unudulur, yeni peyda olmuş hansısa alababat yazar və yaxud şair "ölkənin ən şərəfli ziyalısı" adlandırılır. Qısa müddətdən sonra həmin "şərəfli ziyalı" müxalifəti çirkaba bulayır. Bu amil sübuta yetirir ki, qəhrəmanı kənarda axtarmaq yanlış tendensiyadır.

7 ilə yaxın həbsdə yatan, liderini hər saniyə olduqca çətin şəraitdə müdafiə edən sabiq cəbhəçi Ruslan Bəşirliyə sabiq tərəfdaşlarının bu günkü münasibəti absurda çatdırılır. Əgər Bəşirliyə əfv ərizəsi yazmağı bağışlamırlarsa, nəyə görə daima onlarla düşmənçilik edənlərin dövlət başçısına müraciətini təbliğ edir, ən yaxşı halda isə bu müraciətləri görməzdən gəlirlər? Bu siyasətdirmi? Yaxud siyasət beləmi olur?

Baş verənlər siyasətin əxlaqsızlaşdırılmasına xidmət edir.

Belə bir təəssürat yaranır ki, liderlər özlərinə insan kolleksiyası toplayırlar. "Filankəs də mənim yanımdadır" acığını vermək üçün gerçək qəhrəmanların üstündən xətt çəkmək təəssüf doğurur. Bu haqsızıdır. Təhdidlər qarşısında geri çəkilməyən, əfv ərizəsi yazmayan insanlara qapını göstərən liderlər, onlardan düşmən yaratmaqla yanaşı, minlərlə insanın mübarizə ruhunu qırırlar.

Əfv ərizəsi yazmaq qəhrəmanlıq deyil. Onları qınamaq da düzgün deyil. Sadəcə olaraq, bunu etməyənləri alçaldıb, edənləri isə başa çıxartmaq anormallıqdır. Sonradan gələn və əfv yazanlar heç vaxt mövcud liderlərin yanında olmayacaqlar. Onların proseslərə baxışı fərqlidir. Fədakarlar isə özlərinə qarşı yönələn bütün təhdidlərə baxmayaraq, yenə də ideyalarına sadiqdirlər. Bunu isə qiymətləndirmək lazımdır...

# Baş prokurordan ümidverici əfv açıqlaması

## Zakir Qaralov NİDA-çə gənclərin əfv yazmasına münasibət bildirib: "Bununla bağlı müəyyən qərarlar qəbul olunacaq"

**Həbsdə olan NİDA-çıların yazdıqları əfv ərizəsi cəmiyyətdə rezonans doğurdu. Gənclərin prezidentə müraciət etmələri birmənalı qarşılanmayıb. Bu arada, baş prokuror Zakir Qaralov da NİDA-çı gənclərin bu addımına münasibət bildirib: "Gec-tez bizim gənclərimiz də başa düşürlər ki, səhv yolda olublar və sözsüz, bununla bağlı müəyyən qərar qəbul olunacaq.**

İndi NİDA-çı gənclər də əfv olunmaq üçün prezident İlham Əliyevə müraciət ediblər. Sözsüz ki, bu barədə cənab prezident qərar qəbul edəcək. Həbsdə olan NİDA-çıların əfvi prezidentin səlahiyyətində olan məsələdir".

Avropa Parlamentinin Azərbaycan hökumətinə siyasi məhbusların azad edilməsi ilə bağlı çağırışından sonra Milli Məclisdə bu məsələnin müzakirə edilməsi, həbsdə olan NİDA-çı gənclərin əfv ərizəsi yazması və baş prokurorun buna münasibət bildirməsi Qurban bayramı ərəfəsində siyasi məhbuslardan bir qisminin əfv olunacağını deməyə əsas verirmi? Kimlərə əfv şamil oluna bilər?

"Yeni Müsavat" bu sualla bəzi siyasi məhbusların vəkillərinə müraciət edib.



Zakır Qaralov



Elton Quliyev

### Siyasi məhbusların vəkilləri isə o qədər də optimist deyillər

**Tofiq Yaqublunun vəkili Nemət Kərimli bildirdi ki, müvəkkilinin əfv olunması ehtimalı olsa da hakimiyyətin bununla bağlı atacağı addımları öncədən proqnozlaşdırmaq çətindir:** "Ən çətin məsələ odur ki, hakimiyyətin bu istiqamətdəki hərəkətlərini heç vaxt proqnozlaşdırmaq olmur ki, əfv edəcək və ya əfv etməyəcək. İlqar Məmmədovun əfvi ilə bağlı Avropa Məhkəməsinin qərarı da var, Tofiq Yaqublu ilə bağlı da Avropa Məhkəməsində iş başa çatacaq. Beynəlxalq institutların Azərbaycan hökumətindən tələbləri də var ki, siyasi dustaqlar əfv edilsin. Bu baxımdan, ola bilsin ki, əfv edilsinlər. Ancaq bununla bağlı proqnoz vermək çətindir.

**Nemət Kərimli onu da bildirdi ki, nə Tofiq Yaqubluya, nə də İlqar Məmmədova həbsdə olduqları müddət ərzində əfv ərizəsi yazmaqla bağlı təklif olunmayıb:** "Bu şəxslərin xarakteri də elədir ki, heç vaxt əfv ərizəsi yazmazlar. Mən onlarla yaxın dostam və xarakterlərinə bələdəm".

**Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah hakimiyyətin davranışlarının bu istiqamətdə olmadığını bildirdi:** "Mən hesab etmirəm ki, hakimiyyət əfv məsələsinə hazırlaşır. Onun davranışları bunu deməyə əsas vermir. Elə dünən parlamentin payız sessiyasının ilk iclasında əsas məsələ Avropa Parlamentinin siyasi məhbuslarla bağlı hökuməti qınayan sənədi oldu və buna etirazlar səsləndi. Avropa Birliyinin bu haqda danışmasını belə parlament qəzəblə qarşılayır. Orada qeyd olunub ki, Avropa Birliyinin Azərbaycan hökumətini siyasi məhbusların azadlığa buraxılması ilə bağlı göstərişini mənfi qiymətləndirirlər, qeyd edirlər ki, AB-nin bu məsələni məhkəmədən kənar üsullarla həll edilməsini tələb etməsi yaxşı hal deyil. Yadigar Sadıqova həbsdə olduğu müddətdə əfv ərizəsi yazmaqla bağlı hər hansı təklif olunmayıb.

Ona görə mən hər hansı əfv gözləmirəm. Biz müdafiə işimizi davam etdirəcəyik"

NİDA-çıların vəkilləri Xalid Bağırov və Elton Quliyev müvəkkillərinin əfvi ilə bağlı hər hansı gözləntilərinin olmadığını bildirdilər.

**Onlardan fərqli olaraq hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a açıqlamasında deyib ki, Qurban bayramı ərəfəsində əfv fərmanının verilməsi mümkündür. Müsahibimiz indiki ərəfədə əfv fərmanının verilməsi üçün prezidentə məktub yazdıqlarını dedi:** "Əfv fərmanının verilməsi ilə bağlı prezidentə məktub yazmışıq və bu məktuba 5 təşkilat qol çəkib. Amma bu elə məsələdir ki, biz dəqiq heç nə deyə bilmərik ki, əfv olacaq, ya yox. Ümid edirik ki, gənclərin hamısı ərizə yazıbsa, azadlığa da çıxacaqlar".

❑ Nərgiz LİFTİYEVA

# Milli Şura mitinqə hazırlaşır

## KXCP aksiyada iştirak etməyə bilər

**Milli Şura oktyabrın 12-nə mitinq təyin edib. Bu barədə qərar qurumun Koordinasiya Şurasının 30 sentyabr tarixli iclasında qəbul edilib. Mitinqə yer ayrılması ilə bağlı BŞİH-ə müraciət ediləcək. Aksiyanın əsas tələbləri repressiyaların dayandırılması və siyasi məhbusların azad edilməsi olacaq. Mitinqin başlama vaxtı üçün saat 15:00 nəzərdə tutulub.**



Artıq Milli Şurada mitinqlə bağlı hazırlıq işlərinə start verilib. Bu barədə musavat.com-a qurumun mətbuat xidmətinin rəhbəri **Oqtay Gülalıyev** məlumat verib: "Hazırda BŞİH-ə müraciət hazırlanır. Oktyabrın 12-si 15:00-da Yasamal rayonundakı "Məhsul" stadionunda mitinq keçirmək nəzərdə tutulur. "Siyasi məhbuslara azadlıq!", "Repressiyalara son!" aksiyanın əsas şüarları olacaq. Bununla əlaqədar işlər görülür. Hazırlıq işləri sürətlənib. Mitinqlə bağlı əlavə məlumatlar mətbuata veriləcək".

**Oqtay Gülalıyev BŞİH-in müraciətə verəcəyi cavabdan sonra atacaqları addımlardan da danışıb:** "İndidən hansısa bir məsələ ilə bağlı danışmaq tezdir. BŞİH-in cavabından sonra mitinqin icazəsiz olub-olmaması ilə bağlı qərarımızı verəcəyik".

Milli Şuraya daxil olan partiyalardan KXCP-nın bu aksiyaya qatılıb-qatılmayacağı hər kəsdə suallar doğurur. Çünki son günlərdə partiyanın Milli Şuradan çıxması ilə bağlı fikirlər dolaşır.

**KXCP sədrinin müavini Xəzər Teyyublu yaranan suallara aydınlıq gətirib. O, partiyanın Ali Məclisində Milli Şuradan istefa verdiyini bildirib:** "Mən Milli Şuradan istefa vermişəm. Bu qərarımı partiyamızın Ali Məclisində açıqlamışam. Milli Şuranın keçmişinə hörmətlə yanaşıram. Bildirmişəm ki, Milli Şura Azərbaycanda iz qoyan qurumdur. Sırf təşkilati işlərlə məşğul olacağımızı bildirmişəm".

**KXCP funksioneri aksiya ilə bağlı onlara müraciət edilmədiyini qeyd etdi:** "Bu məsələlər müraciət daxilində olur. Əgər bizə müraciət edilsə, təbii ki, qərar verilə bilər. İnsan haqları , demokratiya sahəsində hər hansı bir atılan addıma dəstək verməliyik. Amma bizdə müraciət olmadığına görə aksiya müzakirə olunmayıb. Onu da qeyd edim ki, KXCP Milli Şurada fərdi qaydada iştirak edir. Mənim qərarım özümə aiddir. Digərləri ilə bağlı bir fikir bildirə bilmərəm".

**Xəzər Teyyublu icazəsiz mitinqlərin birmənalı olaraq əleyhinə olduqlarını bildirdi:** "KXCP icazəsiz aksiyalara qoşulmur. Bunu düzgün hesab etmirik. Amma icazə olan təqdirdə biz hər zaman olduğu kimi dəstək verəcəyik. Təbii ki, müraciət edilərsə. Hazırda bu barədə partiyada qəti qərar yoxdur".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014


Tofiq Heydərov


Cahangir Əsgərov

# "AAAF-İnşaat" MMC-nin rəhbəri haqda yeni şok faktlar

## AZAL prezidenti Cahangir Əsgərovun himayəçisi olduğu şirkətin rəhbəri Tofiq Heydərovun ən müxtəlif dini qruplarla müdhiş əlaqələri üzə çıxır; MMC rəhbərinin hətta dindarların 2011-ci ildəki mitinqlərinə maliyyə dəstəyi verdiyi də iddia olunur

**Bir müddət əvvəl mətbuatda "AAAF Park" yaşayış kompleksində əməliyyat keçirildiyi və kompleksin daxil olduğu "AAAF İnşaat" MMC-nin rəhbəri Tofiq Heydərovun saxlanıldığı barədə məlumatlar yayılmışdı. Bu əməliyyatın həm vergidən yayınma, həm də korrupsiya faktları ilə bağlı keçirildiyi bildirilirdi. Eyni zamanda T.Heydərovun radikal dini qruplarla, vəhhabilərlə əlaqələrinin olduğu qeyd olunurdu.**

Sonra MMC rəhbərliyi tərəfindən bu məlumatlar təkzib olunsa da, "AAAF İnşaat" daxilindən gələn məlumatlarda ortada ciddi problemlərin olduğu bildirilirdi.

Həmin məlumatlarda bildirilirdi ki, Xırdalanda yerləşən "AAAf Park" yaşayış kompleksində əməliyyat keçirilməsinin əsas səbəbi heç də T.Heydərovun vergidən yayınması deyil. Deyilirdi ki, bu əməliyyat daha çox T.Heydərovun Xırdalanda və ümumilikdə Abşeron rayonunda radikal vəhhabilərə maliyyə dəstəyi verməsi və onlarla sıx əlaqələr qurmasıdır.

Həmin məlumatlara görə, uzun illər T.Heydərov radikal vəhhabilərlə əlaqələri əsasən "AAAF İnşaat" MMC-nin rəhbərliyində təmsil olunan Pərvin Əliyev vasitəsilə qurub. Onun şirkətində P.Əliyev vasitəsilə xeyli vəhhabi işə götürülüb. T.Heydərovun isə dini cərəyanlarla münasibətdə ikibaşlı oyun oynamasına dair məlumatlar dolaşırdı. Bildirilirdi ki, əgər o, P.Əliyev vasitəsilə bir tərəfdən vəhhabilərlə münasibətlər qurur və onlara maddi dəstək verirsə, digər kanallarla nüfuzlu şiə dindarlarla münasibətlər yaradır, onlara köməkliklər göstərir.

Vəhhabilərə qarşı bir sıra əməliyyatlar keçirilməsi, özünün radikal dini qruplarla əlaqələrinin üzə çıxması, eləcə də elə Xırdalanda yerləşən "Sevil Massivi Yaşayış Komleksi"ni inşa edirən "Sevil" MMC-nin rəhbəri Aynur Zeynalovun vəhhabilərlə əlaqələrinə görə həbsi T.Heydərovu qorxuya salıb.

Qeyd edək ki, "Sevil Yaşayış Massivi" Kompleksi ilə bağlı keçirilən əməliyyat və aparılan araşdırmalar zamanı bu massivdə vəhhabilərin çoxluq təşkil etdiyi, vaxtaşırı orada toplantılar keçirdikləri, hətta kompleksin ərazisində onlar üçün məscid tikintisinə başlandığı aşkarlanıb. Buna görə də "Sevil" MMC-nin fəaliyyəti dayandırılıb və rəhbəri həbs edilərək şirkətin qapısı möhürlənib.

Bütün bunlardan əndişələnən T.Heydərov isə vəhhabilərlə əlaqələri kəsmək qərarına gəlib. Bu isə həm "AAAF İnşaat"da gərginlik yaradıb, həm də bu şirkət və T.Heydərovun əməlləri ilə bağlı şok məlumatların yayılmasına səbəb olub. Belə ki, vəhhabilərlə əlaqələrinin üzə çıxmasından qorxuya düşən T.Heydərov "AAAF İnşaat" MMC-nin rəhbərliyində təmsil olunan Pərvin Əliyevi və onun vasitəsilə şirkətdə işə düzələn vəhhabiləri işdən çıxarıb. Bu isə işdən çıxarılanları qəzəbləndirib və mətbuata T.Heydərovun fəaliyyəti ilə bağlı müdhiş məlumatlar ötürülüb.

"Yeni Müsavat"a daxil olan məlumatda bildirilir ki, T.Heydərovun 2011-ci ildə Bakıda Azərbaycan İslam Partiyasının (AİP) xətti ilə mitinqlər təşkil edən ilahiyyatçı Zülfüqar Mikayılzadə ilə sıx əlaqələri olub və bu mitinqlərin təşkilinə dəstək verib.

Xatırladaq ki, Z.Mikayılzadəyə bu mitinqlərə görə şərti həbs cəzası verilib.

Aldığımız yeni məlumatda bildirilir ki, T.Heydərov "AAAF Park" yaşayış kompleksində toplanan xumsu Z.Mikayılzadəyə verirmiş. Xəbərdə kompleksdə toplanan xumsun illik məbləğinin 1 milyon dollar olduğu deyilir. O da qeyd edilir ki, İran müştehidləri bu xumsu dini fəaliyyət üçün Z.Mikayılzadənin götürməsinə icazə veriblərmiş.

Bundan başqa, T.Heydərov "AAAF Park" yaşayış kompleksindən Z.Mikayılzadəyə 87.565 manat dəyərində olan ev verib. Məlumatda o da qeyd edilir ki, T.Heydərovla Z.Mikayılzadənin 2015-ci ilin parlament seçkilərinə yönəlik bir sıra ciddi planları var. T.Heydərovun axşamlar AİP-in sədr əvəzi Elçin Manafovla görüşdüyü və tez-tez İrana səfər etdiyi də bildirilir.

Yayılan məlumatda T.Heydərovun İrana tez-tez səfərinin arxasındakı sirr pərdəsinin artıq açıldığı və bunun Azərbaycandakı dindarlarla sıx əlaqələri ilə bağlı olduğu bildirilir.

Qeyd edək ki, T.Heydərov əvvəllər AZAL prezidenti Cahangir Əsgərovun rəhbəri olduğu Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) vitse-prezidenti olub.

Elə onun təsis etdiyi "AAAF-İnşaat" MMC-nin də adı məhz bu federasiyanın abreviaturasından götürülüb, himayəçisinin C.Əsgərov olduğu bildirilir.

Amma T.Heydərovun vəhhabilərlə və başqa dindarlarla sıx əlaqələrinin ortaya çıxması indi onu bitirə bilər. İndiki şəraitdə C.Hacıyevin də onu xilas edə biləcəyi çox çətin görünür.

**Mövzu ilə bağlı əlavə məlumatlar əldə etməyə çalışacağıq.**

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **Teymur HƏSƏNLİ**

# Partiya sədrləri həbsdəki fəallarla görüşmək istəyir

## DİHM-in toplantısında bir sıra qərarlar və Həştərxan bəyannaməsinə dair bəyanat verilib

**Oktyabrın 1-də Demokratiya və İnsan Haqları Mərkəzinin toplantısı keçirilib. Qurumdan "Yeni Müsavat"a verilən məlumata görə, toplantıda bir sıra məsələlər müzakirə edilib, qərarlar və bəyanatlar verilib. Toplantıda KXCP, Musavat, ADP, Ümid, Azadlıq, VİP, Az.DP, Böyük Azərbaycan, Aydınlar, AXP, ALDP iştirak edib.**



Tədbir barədə verilən məlumatda deyilir ki, toplantıda aşağıdakı addımlar atılıb:

**1.** Ədliyyə nazirinə və baş prokurora həbs yerlərində saxlanılan şəxslərlə partiya sədrlərinin görüşməsinə şərait yaradılması üçün müraciət edilib.

**2.** Tofiq Yaqublu və İlqar Məmmədovla ailə üzvlərinin görüşünə imkan verilməməsi pislənilib.

**3.** Milli Məclisə seçkilərin qarışıq (majoritar və proporsional) seçki sistemi əsasında keçirilməsinin təsbiti üçün referendum keçirilməsi təşəbbüsü ilə əlaqədar Azərbaycan prezidentinə, Milli Məclisinə, Mərkəzi Seçki Komissiyasına müraciətlər hazırlanması qərara alınıb.

**4.** Xəzəryanı ölkələrin dövlət başçılarının Həştərxan sammitində Xəzərin hüquqi statusuna dair qəbul edilmiş bəyanatla bağlı açıqlama qəbul edilib.

**5.** Avropa Birliyi Parlamentlərinin Azərbaycan haqqında qəbul etdiyi qətnamənin müzakirəsinə həsr olunmuş geniş tərkibli dəyirmi masanın 15 oktyabr 2014- cü il tarixdə saat 12:00-da Müsavat Partiyasının qərargahında keçirilməsi qərara alınıb.

**6.** Bundan sonra DİHM-nin toplantılarının hər həftənin 3- cü günü saat 15:00-da keçirilməsi qərarlaşdırılıb.

**Toplantıda iştirak edən partiyalar həmçinin Xəzərin statusuna dair Həştərxan bəyannaməsi barədə açıqlama yayıblar. Partiyalar Xəzəryanı ölkələrin dövlət başçılarının Həştərxan sammitində Xəzərin hüquqi statusu ilə əlaqədar qəbul etdikləri bəyanatla əlaqədar ciddi narahatlıq ifadə edirlər.**

"...Həştərxan bəyannaməsindəki ümumi ərazi müddəası bəyan edildiyi kimi reallaşacaqsa, qonşu dövlətlərin hərbi eskadraları Bakının 15 milliyində sərbəst şəkildə lövbər salacaqdır? Əhalisinin və iqtisadi potensialının 80 faizi Xəzər dənizinin bilavasitə akvatoriyasında və sahilində yerləşən Azərbaycan üçün bu vəziyyətin ölümcül təhlükəli şərait yaratması aydın deyilmi?" deyə qeyd edilir: "Tələb edirik ki, hakimiyyət bu barədə cəmiyyətə təfsilatlı və düzgün izahat təqdim etsin. Milli Məclisə təklif edilir ki, Azərbaycanın milli maraqları və təhlükəsizliyi baxımından meydana çıxan narahatlıqlar aradan qalxmayana qədər həmin sənədin müvafiq qaydada təsdiq edilib qüvvəyə minməsinə yol verilməsin".

❑ **M.MAHRIZLI**

# Dostlar, siz də gəncləri azad edin!



**Xalid KAZIMLI**

**Görkəmli jurnalist, istedadlı yazıçı İlqar Əlfioğlunun təxminən 30 il öncə yazdığı və "Ulduz" jurnalında dərc etdirdiyi "Qorxu" adlı povestində belə məqamlar var: şah rejiminin həbs edib zindana saldığı inqilabçını bir gün azadlığa buraxırlar. Ona məhbəsdə iynə vurub bildiklərinin hamısını danışdırıblar və o özü də bilmədən inqilabçı dostlarının adını çəkib. Azadlığa çıxandan sonra isə hamı onu dışlayır, satqın kimi damğalayır.**

Neçə vaxtdır Azərbaycanda baş verən hadisələr həmin ssenari üzrə gedir. Fəalları tuturlar, şərləyib mühakimə edirlər, məhbəsə atırlar, bir müddət yatırdırlar, amma beynəlxalq təşkilatların tələbi ilə onları azad etməyə məcbur olurlar, bu zaman siyasi dustaqları elə-belə buraxmaq istəmirlər, bir çoxuna əfv ərizəsi yazdırırlar, höcətlik edənlərin əvəzinə ailə üzvlərindən əfv ərizəsi alırlar, bir az sıyılanları Fəxri Xiyabana aparıb heykələ baş əydirirlər, bir sözlə, guya ki, adamları "sındırırlar".

İllərdir ki, "içəridən əfv ərizəsi yazıb çıxanlar"ı töhmətli kateqoriyaya aid edirlər, dışlamaq, yaxın qoymamaq xətti götürürlər.

"Əfv ərizəsi yazanlar"ı qınayanlar çox olur, barələrində "belə etməməliydilər", "dözməliydilər", "tez sındılar" kimi sözlər danışılır, hökmlər verilir.

Çox adam "əfv ərizəsi yazıb çıxanlar"ın ailə vəziyyətini, maddi durumunu, psixoloji ovqatını nəzərə almır. Fəvvarələr meydanındakı kafelərdə oturaraq arın-arxayın, asudə şəkildə dünyanın hər cür zövq-səfasından danışa-danışa, sosial şəbəkələrdə dost-aşnayla yazışa-yazışa, Çempionlar Liqasının oyunlarına baxa-baxa "dözməliydilər" demək asandır, çətin olan internetsiz, televizorsuz, dünyaya çıxış imkanlarından təcrid olunmuş vəziyyətdə, ailədən uzaq, dostlardan kənar, dörd divar arasında qalmaq və gələcəyi düşünməkdir.

Buna hər adam tablaşa bilməz. Bunu yalnız o həyatı yaşayanlar bilər, bir də fantaziyası, ağlı çatanlar, ədalət hissinə malik olanlar.

İndi bəzi şəxslər "əfv ərizəsi yazan" "Nida" üzvlərinə qarşı bolşevik düşüncəsiylə sözlər yazırlar.

Olduqca yanlış və zərərlidir. Tək bircə faktdan danışaq. İctimai-siyasi sektorda Rəşadətin oğlu Arazla şəkil çəkdirməyən qalmayıb, amma atası onu bir dəfə körpə oğlunu doyunca bağrına basmayıb.

Bu gənclərin məhbəsdə oturan vaxtıdırmı? Həm də nəyə görə? Tam günahsız olduqları halda, boş yerə...

Onların da arzuları var, onlar da azad olmaq, gəzmək, əylənmək, dincəlmək, işləmək, pul qazanmaq, ailə saxlamaq, cəmiyyətin içində olmaq istəyirlər. Amma iş elə gətirib ki, həbsə alınıblar və onları məhbəsdə saxlayanlar inadkarlıq edir, gəncləri müxtəlif bəhanələrlə azad etmək istəmir, ən azı bir parça kağız alaraq, onların sonrakı ictimai-siyasi fəaliyyətinə əngəl törətməyə çalışır. Və bunu bacarır. Çünki xasiyyətimizi bilir, anlayır ki, o bir parça kağız bu insanların nüfuz dairəsini ən azı 50 faiz daraldacaq, hörmətlərini yarıbayarı azaldacaq. Hətta indilikdə onlara bir söz deməyənlər belə, gün gələcək ki, rəqib olduqlarında, yolları kəsişəndə onlara belə bir töhmət-təhniz edəcəklər: "Siz danışmayın, bu rejimə əfv ərizəsi yazıb azadlığa çıxmısız". Hətta onları azadlığa çıxmaları qarşılığında üzərlərinə hansısa öhdəlik götürməkdə suçlayanlar da olacaq.

Görə-görə gəlirik, dəfələrlə sınamışıq, belə olacaq.

Bu stereotip darmadağın dağıdılmalıdır. Siyasi fəalların həbsdə uzun müddət saxlanılmasının bir səbəbi də bu mənasız höcətlik, inqilabçı şairlərə məxsus pafosdur. Heç kəsdən "sınmazlıq simvolu", "dəyanət mücəssəməsi" düzəltmək lazım deyil.

İsraildə əsir düşən əsgərlərin canlarını qurtarmaları üçün əl atdıqları hər bir üsul öz dövlətləri tərəfindən təqdir olunur və cəzaya layiq hesab edilmir. Çünki əsas məsələ əsgərin salamatlığıdır, hansısa pafos predmetləri yox.

Biz də, nəhayət, günahsız həbs edilən insanları psixoloji basqıdan azad etməliyik, onların hansı addım atacaqlarını öz öhdələrinə buraxmalıyıq.

Yoxsa hakimiyyət siyasi fəalları fiziki baxımdan dustaq edir, biz isə psixoloji baxımdan.

Uğurlar olsun, gənclər. Bu yazını sizi tezliklə aramızda görmək arzusuyla yazdım. Ümid edirəm ki, çıxdıqdan sonra bəzilərinə keçən il bu vaxt sizə göndərdiyim "İvan Denisioviçin bir günü" romanı qədər maraqlı şeylər danışacaqsınız.



# Bir gün bu dəniz qaçar...

**Hüseynbala SƏLİMOV**

**Maraqlı detaldır. Bir dəfə də bir yazıda oxumuşduq ki, repressiya illərində coğrafiyaçı alim Qasım Gülü də həbs ediblərmiş. Rusiyalı həmkarları bununla bağlı Kremlə məktub göndərirlər və orada qeyd edirlər ki, Qasım Gülü itirməklə biz Xəzərin dibi ilə bağlı bütün biliklərimizi itirə bilərik.**

Məktubun təsiri olur. Qasım Gülü tezliklə azad edirlər...

Amma sözümüz bunda deyil. Burada diqqətəlayiq detal odur ki, hamı üçün və həmişə Xəzərin dibi daha maraqlı olub. Elə Xəzərlə bağlı razılaşmaların 20 ildən artıqdır ki, düyünə düşməsi də böyük ehtimalla bununla bağlıdır...

İndi bir neçə gün idi ki, diqqət Həştərxana yönəlmişdi. "Yönəlmişdi" deyəndə bəlkə də bir qədər ifrata varırıq.

Məsələ bundadır ki, Xəzərin statusu sahil dövlətləri üçün önəm kəsb etsə də, bu, dünya siyasətində bir o qədər maraq və diqqət doğurmur, buna analitiklər hətta "dünya siyasətinin periferiya məsələsi" deyirlər.

Amma Xəzər sahil dövlətlərinə təkcə coğrafi baxımdan deyil, həm də problem baxımından yaxındır. Fəqət, Həştərxan sammitində sahil dövlətlərinin başçıları bəyanat verərək bildirdilər ki, Xəzərin statusu ilə bağlı hüquqi Konvensiya 2015-ci ildə Qazaxıstanda imzalanacaq...

Amma buna baxmayaraq analitiklər və siyasi müşahidəçilər bu nikbinliyi bölüşmürlər. Böyük əksəriyyət indi də bu fikirdədir ki, Xəzərin statusu daha çox siyasi alver predmetidir.

Bu fikrə biganə qalmaq olduqca çətindir. Onda müəyyən qədər obyektivlik var. Hətta bu günlərdə Həştərxanda imzalanan beş sənədə baxanda da görürsən ki, bu sənədləri imzalamaq üçün belə bir təmtərağa heç ehtiyac yox idi.

Ona görə də təhlilçilər zarafatla deyir ki, bütün Xəzəryanı dövlətlərin ərazisində sammit keçirilməyincə problem həll olunmayacaq. Nə demək olar?

Bəzən adama elə gəlir ki, Rusiya və İran belə tədbirlər keçirməklə sadəcə, dövlətlərini reklam edir, onların razılığı olmadan Xəzərdə heç bir qlobal layihənin baş tutmayacağını nümayiş etdirmək istəyirlər.

Amma əvvəldə dedik ki, Xəzərin probleminə digər güclərin elə də marağı yoxdur. Bunun da çox sadə izahı var. Xəzər onun karbohidrogen ehtiyatlarına çıxış əldə edilənə qədər maraqlı idi... Artıq bu çıxış var. Ona görə də Xəzəryanı dövlətlərin başçıları nəyi bölürlər, necə bölürlər, bu, bir o qədər də onlar üçün maraqlı deyil...

Bölgü isə elə bir problem deyil. Xəzəri necə bölmək olardı? Bunun üçün bu vaxta qədər üç yol göstərilib.

Birincisi, Xəzəri beş bərabər yerə bölmək idi. İkincisi, su səthinin ümumi istifadəyə verilməsi şərti ilə Xəzərin dibinin və ehtiyatlarının sahil xətti uzunluğu prinsipi əsasında bölmək idi. Üçüncüsü, sərhədi sahil xətlərinin uzunluğu prinsipi əsasında müəyyən etmək idi...

Bu prinsiplər müxtəlif vaxtlarda nəzərdən keçirilib. Hər dəfə hansısa dövlət onlardan birinin onun maraqlarına cavab vermədiyini bəyan edib. Həştərxan sammitində prezidentlər razılaşdı ki, Xəzər akvaoriyasında hər dövlət üçün iki zona müəyyən olunsun - suverenlik zonası və balıq ovuna müstəsna səlahiyyət verən ikinci zona. Hər iki zona birlikdə 25 dəniz mili təşkil edəcək...

Amma maralıdır, bu razılaşma növbəti sammitə qədər unudulmayacaq ki? Elə məsələ də bundadır. Unudula da bilər, unudulmaya da.

Hər şey ondan asılı olacaq ki, Rusiya və İran liderləri o vaxta qədər hansı "yuxu"ları görəcəklər?

Bu heç də reallığı təhrif etmək deyil. Bəzən adama elə gəlir ki, məsələn, Rusiya liderləri MDB dövlət başçılarını görüşə dəvət etmək, öz "tövsiyə"lərini onlara çatdırmaq üçün sadəcə, bəhanə axtarırlar. Görünür, daha əvvəlki vaxtlarda olduğu kimi hesabat üçün birbaşa Moskvaya çağıra bilmirlər...

İrana gəldikdə isə onun da istəyi aydındır. Çox az dövlət İranın qapısını açır və çox az dövlət də onu öz qapısına dəvət edir. İrana lazımdır ki, kiminsə çevrəsində görünsün və kimisə öz çevrəsində göstərsin. Xəzərlə bağlı sammitlərdən biri də Tehran sammiti idi. Hələ də bilmirik və başa düşmürük həmin sammitin məqsədi və məramı nə idi?

Xəzərlə bağlı İranın mövqeyi hamıya yaxşı bəllidir. Bu mövqeyi bir daha çatdırmaq üçün dövlət başçılarını Tehrana çağırmağa ehtiyac vardımı? İndi də İranın yeni prezidenti ilə bağlı müəyyən ümidlər yaranıb. Amma biz illüziya yaratmamağın tərəfdarıyıq...

Qərəz, Xəzər onun ətrafında yaşayanların ona hansı adı verəcəyini gözləyir.

Amma hamı ona çalışır ki, Xəzərə elə ad versin ki, onun dibini öz ciblərinə boşaltmaq daha asan olsun...

# İqtidaryönlü deputatdan sensasion açıqlama

## Fəzail Ağamalı: "Hakimiyyət dəyişikliyi terror yolu ilə həyata keçirilə bilər"

**İŞİD-in Azərbaycana ciddi təhlükə törədəcəyi, hətta hakimiyyəti dəyişə biləcəyi barədə sensasion xəbərdarlıq yayılıb. Rusiya Diplomatları Assosiasiyasının sədr müavini, Rusiya Federasiya Şurasının sədr müavininin müşaviri Andrey Baklanov "Nezavisimaya qazeta"da dərc olunmuş məqaləsində İŞİD-in hədəfləri sırasında Azərbaycanın olduğunu da yazıb.**

Müəllif yazır ki, islamçıların can atdığı xilafət artıq yaranıb və müsəlman radikallara görə bu hadisə "əsl vaxtında" baş verib. (virtualaz.org). Baklanov yazır ki, İŞİD ələ keçirdiyi ərazilərdə neft yataqlarını istismar edir və hər gün milyonlarla dollar qazanır.

Andrey Baklanov yazır ki, İŞİD ərəb ölkələrində hakimiyyəti ələ almağa can atır. Onların planlarına görə, İraq və Suriyada möhkəmləndikdən sonra "xilafəti" Səudiyyə Ərəbistanına doğru genişləndirəcəklər. Daha sonra onlar Küveyt və onun nefti ilə məşğul olacaqlar. A.Baklanovun sözlərinə görə, İŞİD-in daha sonrakı hədəfi Türkiyə və Azərbaycandır.

**Başqa bir rusiyalı politoloq Qriqori Trofimçuk da Xəzəryanı ölkələrin sammiti ərəfəsi bu dövlətlərin rəhbərliyinə müraciət edərək, onları İŞİD-lə bağlı təhlükənin real qiymətləndirməyə çağırmışdı:** "Xəzəryanı ölkələr artıq tamam başqa dünyada yaşayırlar. Yaxın Şərqdə yaradılmış terror təşkilatları olan İŞİD və ya "Xorasan" tezliklə Mərkəzi Asiya və Xəzərdə olacaq. Onlar məhz bunun üçün yaradılıblar".

Qeyd edək ki, Azərbaycana İŞİD təhlükəsi ilə bağlı ABŞ kəşfiyyatına yaxınlığı ilə tanın "Stratfor" beyin mərkəzi də xəbərdarlıq etmişdi.

Məlumat üçün onu da deyək ki, İŞİD-in ələ keçirdiyi və şəriət qanunlarını tətbiq edəcəyi ölkələrin "xəyali xəritəsində" Azərbaycan ərazisi də var.



**"Əgər İŞİD-in real təhlükəsi ortaya çıxarsa, Azərbaycanın onu məhv etməyə imkanı var"**

Azərbaycan hakimiyyəti bu təhlükəni ciddi hesab edir və ölkədə dini radikalizm əhval-ruhiyyəli adamların yığışdığı məscidləri nəzarətdə saxlayır. Bugünlərdə isə MTN-in keçirdiyi şok əməliyyat nəticəsində İŞİD və digər terror qruplaşmaların tərkibində döyüşmüş ümumilikdə 26 nəfər Azərbaycan vətəndaşı həbs edilib ki, onlara təkcə silahlı birləşmələr yaratmaqda deyil, eləcə də onların fəaliyyətində iştirak etmə, silahla, partlayıcı maddələrlə, hətta hərbi texnika ilə təmin etmə kimi ağır ittihamlar verilib.

**Rusiyalı ekspertlərin xəbərdarlıq xarakterli açıqlamaları ilə bağlı "Yeni Müsavat"a danışan hakimiyyətyönlü Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı hesab edir ki, Azərbaycan da İŞİD təhlükəsindən sığortalanmayıb. İŞİD nəinki Azərbaycan, bütün dünya üçün təhlükədir:** "Bunu təkcə ayrı-ayrı politoloqlar deyil, ABŞ prezidenti, Böyük Britaniyanın baş naziri, Fransanın prezidenti, Almaniyanın baş kanslerinə qədər bu fikirlər ifadə olunub. Hər kəsə bəllidir ki, İŞİD çox böyük təhlükədir. Bu təhlükədən əlbəttə, Azərbaycan da sığortalanmayıb. Ancaq İŞİD söylənildiyi kimi Azərbaycanı, Xəzəri, Azərbaycanda hakimiyyəti ələ keçirməsi üçün əvvəlcə Türkiyəni, İranı işğal etməlidir. Məhz bundan sonra növbə Azərbaycana çatır. İŞİD Türkiyə və İranı işğal etməsi isə mümkün deyil. Bu ölkələr tutulmayınca İŞİD-in Azərbaycana daxil olması mümkün deyil. Çünki bu qruplaşmanın təyyarələri yoxdur ki, onlar vasitəsilə Azərbaycana desantlar daşısın. Onların əsaslandığı canlı qüvvədir və yerüstü hərəkət edən hərbi texnikadır. Bu baxımdan İŞİD-in Azərbaycana gəlişini o qədər də real hesab etmirəm. Ancaq İŞİD təhlükəsi başqa formalarda olsa da var. Təsadüfi deyil ki, dünya bu təhlükə üçün qüvvələrini səfərbər edib".

F.Ağamalı bildirdi ki, Azərbaycan özünü İŞİD-dən müdafiə etmək qabiliyyətindədir. Əgər İŞİD-in real təhlükəsi ortaya çıxarsa, Azərbaycan dövlətinin İŞİD-in gücünü burada sındırmağa, onu məhv etməyə imkanı var. Bu gün Azərbaycanda hakimiyyəti dəyişikliyi etməyin ancaq bir yolu var, o da terrordur. Hakimiyyət dəyişikliyi terror yolu ilə həyata keçirilə bilər. Düşünürəm ki, mənfur qüvvələrin burada terror həyata keçirilməsinin qarşısını almaq üçün də Azərbaycanın hüquq-mühafizə orqanları kifayət qədər gücə malikdir. Terror aktlarının da Azərbaycanda həyata keçirilməsinə düşünürəm ki, imkan verilməyəcək".

**Etibar SEYİDAĞA**

# Zahid Oruc Ziyafət Əsgərovla aralarındakı söz savaşından danışdı

## Deputat baş verən münaqişənin səbəblərini açıqlayıb: "Bunları hüquqlarımın pozulması kimi dəyərləndirmirəm"

**Milli Məclisin 30 sentyabr tarixli sessiyasında deputat Zahid Orucla birinci vitse-spiker Ziyafət Əsgərov arasında narazılıq yaranıb. Buna səbəb deputatın 4 saat ərzində 37 qanunu müzakirə etməyin rekord olacağı ilə bağlı kinayəli fikirləridir.**




Bu atmaca vitse-spiker Ziyafət Əsgərovun etirazına səbəb olub. O, deputata belə cavab verib: "Zahid müəllim, cənab sədr də dedi ki, müzakirə edilən sənədlər deputatlara paylanıb. Sizin tikanlı sözlərinizə ehtiyac yoxdur. Siz vaxt eləyin iclasdan öncə bu sənədləri gözdən keçirin".

**Z.Oruc isə cavabında deyib:** "Ziyafət müəllim, mən tikanlı sözlər demirəm. Bilmirəm, siz üzünüzü kimə tutaraq bu sözləri deyirsiniz. Özünüz də bilirsiniz ki, qanunları oxuyan şəxslərdən biri mənəm".

Bu yerdə vitse-spiker Zahid Orucun sözünü kəsib və deyib ki, aidiyyəti üzrə çıxışını davam etdirməsə, ona söz verməyəcək. Bundan sonra deputat çıxışını davam etdirib.

**Baş verənlərlə bağlı Zahid Orucun fikirlərini öyrəndik. O, yayılan xəbərlərin doğru olduğunu bildirdi:** "Mən sadəcə bir məsələyə diqqət çəkmək istədim ki, parlamentdə istənilən məsələnin müzakirəsi üçün geniş imkanlar lazımdır. Doğrudur ki, qaldırılan məsələlərə istər spiker, istərsə də başqa əvəzedici şəxslər olsun, geniş imkanlar yaradır. İclasda belə bir vəziyyət yaranmışdı; bəzi məsələlərin üzərindən tez keçmək mümkün idi. Bu zaman məlum olan ifadələr ortaya çıxdı. Lakin bunu ciddi münaqişə kimi qəbul etmək yersiz olardı. Bir komitənin üzvü olaraq müxtəlif vaxtlarda fikir ayrılıqlarımız olub. Bu vaxt həm hörmətli Ziyafət müəllim, həm də mən dövlət maraqları naminə hüququ müstəvidə həll yoluna çalışmışıq. Baş verən hal istehlakçıların hüquqları ilə bağlı idi. Qeyd edirdim ki, bu hallar toy və yas mərasimlərində özünü daha çox göstərir. Əsas fikir ayrılığı bu məsələ üzərində idi. Mən də öz fikirlərimi səsləndirmək istədim. Təbii ki, başqa məsələlərin müzakirəsi ilə bağlı da fikirlərim oldu. Mənə də doğru cavablar verildi. Ona görə belə yaşanan halları parlamentdaxili münaqişə kimi qəbul etmək yanlış olardı".

**Zahid Oruc baş verən "söz davası"nın şəxsi münasibətlərə aidiyyəti olmadığını da qeyd etdi:** "Ziyafət müəllimlə aramızda heç zaman şəxsi narazılıq olmayıb. Müxtəlif zamanlarda ayrı-ayrı mövzularda kəskin toqquşmalarımız olub. Əslində parlamentarizm budur. Dünyada fikir döyüşləri, polemikalar zamanı gərginliklər normal sayılır. Bu, kabinet fəaliyyətindən tamam fərqlidir. Çünki həddindən artıq insanların psixoloji fərqləri var. Bu belə də olmalıdır. Mən bunları hüquqlarımın pozulması kimi dəyərləndirmirəm. İllərdir ki, parlament fəaliyyətindəyik. Heç kimin şəxsiyyətinə toxunacaq mövqeyimiz olmayıb. Bəzən yaşanan bu cür halları tənzimləməyə çalışırıq və buna nail oluruq".

**Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014

# Müsavatın qurultayının ittihamlarla müşayiət olunan davamı...

## Uduzan namizədlərdən biri yeni başqanı istefaya çağırır, digəri isə partiyadan qopmaların olacağına işarə edir...



**Müsavat Partiyasının ilk baxışda qalmaqalsız keçirilən qurultayının artıq səs-küyü yüksəlməkdədir. Başqanlıq seçkisində namizədliyini geri götürən Səxavət Əlisoy yeni seçilmiş başqanı istefaya çağırıb, həmçinin yeni və sərt ittihamlar səsləndirib.**

**S.Əlisoyun sosial şəbəkə vasitəsilə yaydığı bəyanatda bildirilir:** "Arif Hacılıya və onun Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sadiq üzvlərindən olan Gülağa Aslanlıya, Söhrab Məhərrəmliyə, Mustafa Hacıbəyliyə, Razim Əmiraslanova, Elman Fəttaha, Yusif Tağıya, Cahangir Əmirxanlıya, İkram İsrafilə və digərlərinə! Xatırlatma: Müsavat Partiyasının təməl prinsiplərindən biri də ləyaqətdir. Qurultaydan narazı olan müsavatçılar iddia edir ki, əksər rayonlarda qurultay nümayəndələri sizin tərəfinizdən ciddi nizamnamə pozğunluğu olmasına baxmayaraq, Arif Hacılıya dəstək üçün seçilib. Arif Hacılıya sərf etməyən rayonlarda nəticələr ya ləğv edilib, ya da rayon təşkilatı buraxılıb. MNTK-dan Ə.Talışxanlı və digərləri bu rayonların adını açıqlayacaq. Tovuz rayonunda konfransda başqan müşaviri iştirak etməsinə baxmayaraq, konfrans MNTK üzvü və QHTK nümayəndəsi iştirak etmədiyi üçün etibarsız hesab olunub. Naxçıvan Muxtar Respublikasının 6 rayonunda konfrans keçirilibmi və harada keçirilib? Keçirilibsə, hansı MNTK üzvü və ya QHTK üzvü bu konfranslarda iştirak edib? Azərbaycanın 16 rayonunda partiyanın konfransı nədən baş tutmayıb? Arif Hacılı namizədliklə ilgili istefa verdikdən sonra onun kabineti kimlərin sərəncamında olub? Qurultaya təşkilatı olmayan rayonlardan Arif Hacılıya dəstək üçün nümayəndələr seçimi təşkil olunub, ya yox? Bu rayonların adları da açıqlanacaq. Qurultay günü QHTK üzvlərinin əksəriyyəti və partiyanın Arif Hacılının tabeçiliyində olan funksionerləri "İsa Qəmbərin mövqeyi Arif Hacılıdır", deyə qurultay nümayəndələrinə xəbərdarlıq etdikləri nə dərəcədə nizamnaməyə uyğun idi? Nədən Müsavatın yolunda mübarizə aparan fədakar gənclərdən kimsə Məclis üzvü seçilmədi?",- deyə o, çoxsaylı suallar ünvanlayıb.

"İndi sizə sözüm var. Əgər bizi, şəxsən məni bu iddialara görə ittiham edirsinizsə, şərəfiniz və namusunuz üzərə and için ki, deyilənlərin heç biri ilə razı deyilik. Əgər içinizdə biri çıxıb desə ki, qərəzlisən, və onu sübut etsə, üzr istəməyə hazıram. Ən azı 7 iddiadan 3-nü qəbul edirsinizsə, Müsavat Partiyasının ləyaqət prinsipini əsas götürüb ya üzr istəyin, ya da seçkiyə haram qatdığınız üçün istefa verin. Bu partiyada ya ləyaqət, ya da ləyaqətsizlik qalmalıdır. Hər ikisinin birlikdə fəaliyyəti əsla mümkün olan iş deyil. Ləyaqətli müsavatçılara salamlar olsun!

Ləyaqətsizlərin rəy bildirməsinə gərək yox!!!",- deyə bəyanatda vurğulanır.

**Partiyadan sonra yaranan duruma yeni başqan Arif Hacılının tərəfdarları da səssiz qalmayıb. Başqanın qardaşı, Əhrar Partiyasının sədri Vaqif Hacıbəyli uduzan namizəd Qubad İbadoğlunu hədəfə götürüb.** "Qubad İbadoğlu APA- ya müsahibəsində deyib ki, Əhrar Partiyasında cəmi bir nəfər var. Tutaq ki, bir nəfər var. Nə olsun? Harada tapsan ki, mən iki nəfərin olduğunu demişəm, onda deyərsən ki, yalan demişəm. Əhrar Partiyası, ümumiyyətlə yoxdu, heç kağız üzərində də yoxdu. Başqa partiyaların möhürü var, bunun heç möhürü də yoxdur. Oldumu? Bitdimi? Rahatlanın. Bu mövzunu zəhmət olmasa elə buradaca birdəfəlik bitirək. Yəni mən bitirirəm, kim istəsə davam edə bilər, onsuz da deyiləsi başqa şəbədəniz qalmayıb. Etnik məsələsini saldınız ortaya, lax çıxdı. Təzə mövzu tapana kimi bir az bu mövzunu çeynədin, ağzınız şirin olsun. Həm də bəy deyir ki, qardaşı Müsavatdadır deyə Vaqif Hacıbəylinin Musavatdan danışmağa nə mənəvi, nə də siyasi haqqı yoxdu. Pardon, burda saxla bir az. Ay yoldaş, kim alıb bu haqqı mənim əlimdən? Bəlkə belə qanun çıxıb, mənim xəbərim yoxdu? Bəlkə hesab edirsiniz ki, bu, etik cəhətdən düzgün deyil? Əgər belədirsə, hörmətli İsa Qəmbərin qardaşı səni açıq müdafiə edəndə, səni açıq təbliğ edəndə niyə bu etik norma yadına düşmədi, niyə demədin ki, bu, ailə partiyası deyil, sənin məni təbliğ etməyin yerlərdə İsa bəyin mövqeyi kimi qiymətləndirilə bilər, bu cür təbliğatı da aparırdınız. Hərçənd mən özüm şəxsən burada bir qəbahət görmürəm. Yəni bu halda yanaşmada bir ayrı-seçkilik var. Bunlar öz yerində. Mən 2003- cü ilin oktyabrında, hamının pərən-pərən düşdüyü o sitəmli günlərdə Müsavatı məhkəmədə təmsil edəndə, İsa Qəmbərin seçki qərargahına rəhbərlik edəndə, Müsavata qarşı yönələn hücumlara qarşı sipər olanda nə sən, nə də sənə ələkçinin qılverənliyini edən Vurğun Əyyub üzə çıxmırdınız, qılınıza girmişdiniz. İndi sən mənə mənəviyyat dərsi keçəcəksən? Hansı haqla? Təmkinlidi deyib təbliğ etdiyiniz adam budu? Deyirsən mən kimlərisə tanımamışam. Əslində isə cəmiyyət indi tanıyır səni, təəssüf ki, heç də yaxşı tərəfdən tanımır. Mən 1991- ci ildən bu günə kimi ölkədə gedən bütün proseslərə istisnasız olaraq münasibət bildirmişəm. İradəmin üstündə də heç bir iradə yoxdur. Həmişə də düzə düz, əyriyə əyri demişəm. Heç kəs də məmim səsimi batıra bilməz. Sən demisən ki, mən bütün Müsavat rəhbərliyinə qarşı apardığım mübarizədə uduzmuşam. Bu mülahizə yalandı, mən də bunu faktlarla təkzib etmişəm. Əgər özünü ziyalı hesab edirsənsə, əks arqumentini söylə, dediyini sübut et. Arqumentin yoxdusa sus, "sən özün pis adamsan" tipli polemikaya keçmə, çünki bu sayaq polemika ziyalıya yaraşmır. O ki qaldı Fəxrəddin Bağırovun reaksiyasına, mən ondan bundan artığını da gözləmirdim. Vaxtilə aylarla onun da məhkəməsində sürünmüşəm, halal xoşu olsun.....".



Səxavət Əlisoy



Tural Abbaslı



Adil Qeybulla



Vaqif Hacıbəyli

Digər namizəd Tural Abbaslı da baş verənlərə münasibətini bildirib. O, musavat.com-a açıqlamasında qeyd edib ki, S.Əlisoyun istefa çağırışını normal hesab edir: "İstefaya çağırmaq onun hüququdur, istənilən adamı istefaya dəvət edə bilər. Bəlkə qalib gələn tərəf onun çağırışına qulaq asıb istefa verəcək. Amma mən düşünürəm ki, seçki zamanı saxtakarlıq olmayıb, seçki bizim üçün qərəzli şəkildə uğurlu olmayıb. Burada mənəvi dəyərlər pozulub. Mən qalibi təbrik etmişəm, indi durub onu istefaya çağırmağım qeyri-səmimi görünər və düzgün deyil. Bizim mövqeyimiz odur ki, qurultayın iradəsi öz əksini tapıb, başqan seçilib, Məclis seçilib. Qurultay daha çox yarış kontekstində olmuşdu. Qruplar, komandalar bir-birinə qarşı vuruşurdu. Tural Abbaslını başqan görmək istəməyənlər hətta ona və tərəfdarlarına Məclisdə də səs vermədi. Bu, yarışın eyforiyası idi. İstərdim ki, müsavatçılar soyuqqanlı olub, hərəyə layiq olduğu səsi verməyi bacarardılar. Biz seçkini ədalətsiz saysaq da, saxta hesab etmirik. Gənclərin Məslisə düşməməyi, MNTK-dan kənarda saxlanılma cəhdi mənəvi bir işdir".

Qeyd edək ki, bütövlükdə seçki prosesinin ədalətli keçmədiyini bəyan edən Qubad İbadoğlu ona dəstək olan müsavatçıları oktyabrın 6-da Müsavat Partiyasının mərkəzi qərargahında görüşə dəvət edib. O, 6 oktyabr görüşünü Müsavatın bu gününü və gələcəyini müzakirə etmək, mövqeləri bölüşmək, eləcə də növbəti addımları müəyyənləşdirmək baxımından zəruri saydığını diqqətə çatdırıb.

**Başqan seçkisində Qubad İbadoğluna dəstək vermiş müsavatçılardan professor Adil Qeybulla və politoloq Elxan Mehdiyev mediaforum.az-a açıqlamasında bildiriblər ki, Qubad İbadoğlunun qəbul edəcəyi qərarlar optimal olmalıdır. Oktyabrın 6-na təyin edilən görüşdə iştirakına problem görməyən Adil Qeybulla əlavə edib ki, vəziyyətin gərginləşdirilməsi ümumi işin ziyanına olduğundan narazılıqlara son qoyulmalı və konsensus tapılmalıdır.**

**Adil Qeybulla Müsavat Partiyası daxilində hər hansı fraksiyanın yaradılmasını arzulamadığını vurğulayıb. O hesab edir ki, partiya daxilində fraksiyanın fəaliyyət göstərməsinin prinsipcə müəyyən müsbət cəhətləri olsa da, bunu hələlik Azərbaycan reallığına aid etmək mümkün deyil:** "Azərbaycan reallığında bu, partiyaların zəifləməsinə gətirib çıxara bilər. Bu baxımdan Müsavat daxilində fraksiyanın yaradılması partiyamıza ziyan vura bilər. Hesab edirəm ki, Müsavat Partiyasında heç bir tərəf qarşıdurmaya getməməli, hər kəs konsensus yolunu axtarmalı, öz partiya mənsubiyyətini, siyasi mənsubiyyətini unutmamalıdır.

Qubad İbadoğlu ziyalı bir insandır, beynəlxalq təcrübəyə malikdir və onun qəbul edəcəyi qərarlar optimal olmalıdır".

### "Arif Hacılının legitimliyini şübhə altına almaq yersizdir"

**Elxan Mehdiyev də hesab edir ki, Müsavat Partiyası daxilində müxalif fraksiyanın yaranması qəbuledilməzdir. Partiya qurultayında seçkilərin şəffaf keçirildiyini vurğulayan Elxan Mehdiyevin sözlərinə görə, Arif Hacılının başqan kimi legitimliyini şübhə altına almaq yersizdir:** "Arif Hacılı Müsavat Partiyasının başqanıdır. Qurultayda kiminsə arzusunun həyata keçməməsi isə artıq onun öz problemidir". **Elxan Mehdiyev də Qubad İbadoğlunun oktyabrın 6-na təyin etdiyi görüşdə iştirak etmək fikrindədir:** "İnanıram ki, həmin görüşdə verilən qərarlar partiyanın güclənməsinə xidmət edəcək".

**Müsavat Məclisinin sabiq üzvü Elşad Paşasoy da gözlənilən görüşlə bağlı fikrini bildirib:** "Qubad İbadoğlunun tərəfdarları ilə görüşü gərək təşviş doğurmasın. Əslində seçki yarışında iştirak edən və böyük nəticə göstərən namizədin belə bir görüş keçirib tərəfdarlarına birbaşa xitab etməsi normaldır. Məncə, tanıdığımız Qubad İbadoğlu onu müdafiə edən dəyərli insanlara Müsavat dəyərlərini hər şeydən uca tutub yola davam etməklə bağlı çağırış edəcək, onları unutduğunu bəyan edəcək, bir qos-qoca təşkilatın bütövlüyünə xələl gətirəcək hansısa addıma getməyəcək. Çünki Qubad bəy də Müsavatda haqqı olanlardandır, nədən ayrılsın ki. Ümumi prinsiplər naminə olanlara "keçmiş olsun" deməyi bacarmaq gərək. İnanıram ki, o bacaracaq. Bu gün müsavatçılar bir-biri ilə danışa, problemləri sakitcə çözə bilməsələr, onların iqtidarla danışa biləcəyinə, yaxud nə vaxtsa iqtidar da olub böyük siyasət arenasında dost-düşmənlə masa arxasında dil tapa biləcəyinə inanan olmayacaq...6 oktyabr toplantısından xoş xəbər gözləntisi ilə...". Qeyd edək ki, həmin görüş zamanı partiyanın parçalanma ehtimallarının olacağı istisna deyil və Q.İbadoğlu özü də musavat.com-a açıqlamasında dolayısı ilə buna işarə edib.

❑ Röya RƏFİYEVA



# İcra hakimi vergisi

Zamin HACI
zaminhaci@gmail.com

**Rüşvət alan hakimin (bunu yazanda yadıma Beyrəyin "Mən qopuz çalım, ərə gedən qız qalxıb oynasın" sözləri düşdü) intervüsü çıxıbdır, deyir, əslində məni aldadıblar, rüşvət almamışam. Guya pul aldığı kağızı da yalandan-palandan imzalayıbdır.**

Təsəvvür elə, sən gedirsən hakimə deyirsən ki, hakim qardaş, eşitmişəm 200 min manat borcun var, onu verərəm, dilxor olma. Hakim də deyir sağ ol, var ol. Sonra da pulu almamış (əsas budur!) bir kağıza qol çəkib verir adama ki, bəs mən bundan iki yüz min manat aldım. Bir neçə günə pul gəlmir. Ondan sonra hakim zəng vurur adama, deyir pulu vermədin, heç olmazsa kağızı qaytar. Adam da deyir sən öl narahat olma, kağızı cırıb atmışam, pulum yoxdur, üzrlü say. Amma sonra kağızı verir prokurorluğa və MTN-ə.

Vay-vay... Həyatımda bu cür sadəlövh kələk qurmaq cəhdini ilk dəfə görürdüm. Görəsən bu hakim müəllim prokurorluq zəhmətkeşlərini o dərəcədə xam və avam hesab edir ki, indi belə nağıllar uydurur? Sənin boş başın haqqı... İndi elə prokurorlar var ki, Grimm qardaşlarından yaxşı nağıl düzəldir, sən onu aldada bilərsənmi?

Hakimin icra hakimi qayırmaq istədiyi və rüşvət aldığı tip də yetərincə maraqlı şəxsiyyətdir. Qabaqca söz yaydılar ki, guya bu adam icra başçısı olmaq üçün verdiyi pulu Rusiyada biznes-miznes yoluyla topalayıbmış. Lakin indi məlum olur adam heç Rusiya sərhədini də keçməyib, yığdıqları da hamısı milli manatlarımızdır. Bəs hardan yığıb?

Məsələ də elə bundadır! Ona görə "Rusiya biznesi" gopunu ortaya atıbmışlar ki, bu tip uzun illər Bakı Vergilər İdarəsində işləyibmiş! Vergilərdən yığdığı pulla icra hakimi olmaq üçün məhkəmə hakimindən vasitəçilik istəmək - necə gözəl dövlətçilik mexanizmidir! Bəh-bəh... Təbrik edirəm yapist yoldaşları... Hərçənd, niyə mexanizmi pozub adamı tutublar - məlum deyil. Yoxsa 200 min manat az imiş? Məncə də azdır.

Həm də belə işlərdə türkün sözü, "zamanlama" çox önəmlidir. Vaxt var idi camaat hətta 50 min manata icra başçısı olurdu. İndi özümüzün pulumuz çoxdur. O cümlədən, bütün sferaları bir ofşor şirkətinə cəmləşdirib ASAN-yemək konsepsiyasını işə salandan sonra hansısa icra başçısı vəzifəsinə hər yoldan ötəni götürmək də maraqlı deyil. İndi əhalinin şikayət və təkliflərinə qulaq asan, əli "Feysbukla oynayan", cibində bayraq dirəyi gəzdirən, gözəl-göyçək kadrlar lazımdır. Belə desək, qatar onsuz da getmir, relsləri dağıdıb aparmışıq, heç olmazsa pərdələri yelləyin, qıraqdan baxan getdiyimizi zənn eləsin.

"Əlbəttə, Azərbaycanda hər şey tam qaydasında deyil, insan haqlarının pozulması faktları var. Ancaq bunlar sistemli şəkildə deyil". Bu qorxunc fikirləri isə deputatxanamızın srağagün Avropa Parlamenti əleyhinə verdiyi bəyanatdan çırpışdırmışam. Ağ eləyiblər. Bu demokratiya oyunları ilə gül kimi dövlətçiliyimizi yıxacaqlar. Necə yəni hər şey tam qaydasında deyil? Siz nə boş-boş danışırsınız? Gələn il təzədən siyahıya düşüb deputat olmaq fikriniz yoxdurmu?

Bizdə insan haqları nə sistemli, nə sistemsiz pozulmur. Sadəcə, arada o vergi işçisi kimi safqanlı hakimlərə torba tikən yaramazlar olur. Hesab edirəm Milli Məclis bu bəyanatına təzədən baxmalıdır. İnsan haqlarının pozulması faktları deyərkən Oqtay Əsədov nəyi nəzərdə tutur? Açıqlama versin, biz də bilək.

Yeri gəlmişkən, bir psixoloq-falçı-jurnalist-zırrama da var idi, bir sürü idiotun hesabına özünə yaxşı ev-eşik qurmuşdu, nədənsə o da tutuldu. Sirli məsələdir. İndi onun istintaqı gedir, məlum olub adam hətta villasına metlax döşəyən fəhləyə qarşı da dələduzluq edibmiş, onun zəhmət haqqını kəsibmiş.

Ola bilsin deputatxana "sistemsiz insan haqları pozuntuları" deyəndə məhz o fəhlənin verilməyən maaşını nəzərdə tutubdur. Elədirsə afərin deyirik!

# Rusiyanın Qarabağ tələsindəki "pendir tikəsi"

## Kreml Azərbaycanı Avrasiya layihələrinə şirnikləndirmək üçün bu "tikəni" də, tələni də aydan-aya daha iri edir...

**Qərb sanksiyaları Rusiyanı sıxdıqca, Kreml də postsovet ölkələrinə, Çinə, Orta Asiyaya, qismən də ərəb dövlətlərinə daha çox sığınır. Təki sanksiyaların qaçılmaz edəcəyi ağır sonuclardan qaçmaq mümkün olsun. Ancaq mümkünmü?**

Bir çox siyasi və iqtisadi şərhçilərə görə, əgər Putin yaxın 6 ay ərzində Avrasiya layihələrinin reallaşması yönündə ciddi uğurlar əldə edib keçmiş sovet respublikalarının əksəriyyətini ilkin mərhələdə vahid iqtisadi məkanda (vahid bazarda) birləşdirə bilməsə, Rusiyanın öz mövcudluğu tədricən sual altına düşməyə başlayacaq.

Avrasiya və Gömrük ittifaqlarının "ürəyi"ni isə Ukrayna əldən çıxdıqdan sonra Azərbaycan təşkil edə bilər. Bunu Rusiya iqtisadçı və maliyyəçiləri gizlətmirlər də. Son vaxtlar Bakıya rusiyalı emissarların səfərlərinin xeyli artması da sözsüz ki, bu reallıqla, məsələ ətrafında Azərbaycan rəhbərliyinin zondaj aparmaq istəyi ilə bağlıdır.

Rəsmi Bakı isə Kremlə nə qədər reveranslar eləsə də, hələ ki bu layihələrə maraq göstərmir. Bir neçə ciddi səbəbə görə. Onlardan biri Dağlıq Qarabağ problemi ilə bağlıdır. Məsələ ondadır ki, Azərbaycan Avrasiya layihələrinə qoşulacağı təqdirdə Qarabağın taleyinin necə olacağı barədə Moskva düz-əməlli vəd verməyib, vermir də. Yalnız belə bir yayğın ifadə işlədilir ki, - onu Bakıda LDPR sədri Vladimir Jirinovski də təkrarladı - "siz Avrasiya layihələrinə qoşulun, sonrası yaxşı olacaq".

Təbii ki, Azərbaycan belə quru vədlərin qarşılığında öz suverenliyi və təhlükəsizliyini daha böyük təhlükə altına ata bilməz. Bu, təxminən ötən əsrin 20-ci illərində bolşeviklərin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Rəsulzadə komandasına verdikləri yalançı vədlərə bənzəyir: o zaman Sovet Rusiyası Cümhuriyyət qurucularına, məsələn, milli ordunun qalacağına, yəni Sovet Azərbaycanının öz silahlı qüvvələrinin olacağına söz vermişdi.



Təbii ki, heç bir milli ordu-filan olmadı. Bu, yenə də həmin Moskvadır. XXI əsrdə suveren Ukraynanın Krım bölgəsini zorla özünə birləşdirən Rusiyanın oxşar şirin vədlərinə inanmaq mümkünmü?

Kreml rəsmiləri ara-sıra SSRİ-nin bir daha bərpa olunmayacağını, ümumiyyətlə, bunun mümkünsüzlüyünü dilə gətirirlər. Ancaq Krımın işğalı, Ukrayna ərazisinə Rusiya nizami ordu qüvvələrinin yeridilməsi necə olsun bəs? İmperiyanı zorla bərpa eləməyin buynuzu olur ki?

Elə həmsərhəd gənc dövlətlər də Moskvanın sözünə yox, əməlinə nəzərən qiymət verərək mövqe sərgiləyirlər. Aydındır ki, Ukrayna məsələsində Moskva beynəlxalq hüquqa söykənən mövqeyə qayıtmayınca hətta Avrasiya İttifaqının digər iki təsisçisi - Qazaxıstan və Belarus da öz böyük qonşusunun davranışlarını, bəyanat və təkliflərini narahatlıqla qarşılayacaq.

Azərbaycanın əndişəsi üçün də əsaslar ciddidir. Rəsmi Bakı Kremlin Qarabağla bağlı hansısa şirnikləndirici təkliflərə olduqca ehtiyatlı və tənqidi yanaşmaq zorundadır. Əks təqdirdə, bu dəfə Azərbaycan rusun tələsindən 70 il yox, 170 ilə də qurtula bilməz. Tələdəki pendir qismində isə Qarabağdı.

Bu xüsusda tanınmış rusiyalı politoloq Sergey Markovun fikirləri vəziyyətə bir az da işıq salır (vesti.az). Sitat: **"Məncə, ilkin mərhələdə Dağlıq Qarabağa bitişik 7 rayonun boşaldılması qarşılığında Ermənistanın blokadasının götürülməsi mümkündür. Azərbaycan və Ermənistanın Avrasiya inteqrasiya layihələrinə qoşulmasından sonra isə Qarabağ ixtilafının birdəfəlik həlli də mümkün ola bilər".** Politoloq onu da əlavə edib ki, öncədən yekun həll formulunun necə olacağını söyləmək çətindir.

İş də elə ondadır. Nədən ki, Azərbaycan üçün ən önəmlisi Qarabağ probleminin beynəlxalq hüquq normaları əsasında ədalətli həllidir. Moskva buna söz verirmi? Verə bilərmi - özü beynəlxalq hüququ tapdaya-tapdaya?! Yoxsa SSRİ dönəmindəki kimi problemi dondurmaq niyyətindədir?

Bu suallar açıq qalır. Açıq qaldıqca Avrasiya layihələri də Azərbaycan üçün maraq kəsb eləmir. Yəqin ki, heç vaxt etməyəcək də. Çünki işğalçı dövlətlə eyni ittifaqda birləşmək həm də bir siyasi əxlaq məsələsidir.

❑ Siyasət şöbəsi

# "Obamanın çıxışından sonra hakimiyyət vəziyyətin ciddiləşdiyinin fərqindədir"

## Natiq Miri: "İqtidarın davranışlarında yumşalma olacağı ehtimalı bu baxımdan yüksəkdir"

**ABŞ prezidenti Barak Obamanın bir həftə öncə etdiyi çıxışında Azərbaycanda vətəndaş cəmiyyətinin sıxışdırılmasını tənqid etməsi və çağırışlarda bulunmasının Azərbaycan hakimiyyətinin bundan sonrakı siyasətində yumşalmalara səbəb olub-olmayacağı müzakirə mövzusu olaraq qalmaqdadır.**

**Politoloq Natiq Miri** hesab edir ki, cəmiyyətdə yumşalmanın, cəmiyyəti açmanın alternativi yoxdur. Təəssüf ki, beynəlxalq birlikdən gələn demokratiya çağırışları Milli Məclisin 30 sentyabr iclasında da deputatların sərt təpkiləri ilə qarşılandı. Ancaq bu, yumşalmaların olmayacağını söyləmək üçün əsas sayılmamalıdır: "Hesab edirəm ki, bunlar sifariş əsasında olan çıxışlardır. Özü də arxasında real addımların nəzərdə tutulduğu çıxışlar deyil. İnanmıram ki, onlar Avropa Parlamenti ilə münasibətlərə yenidən baxacaqlar. Milli Məclisdəki anti-Avropa çıxışları daha çox Rusiyaya xoş gəlmək üçün təşkil olunan çıxışlar sayılmalıdır. Diqqət edirsinizsə, bəzi Rusiya siyasətçiləri Azərbaycanı bəzi Avropa ölkələrindən daha çox siyasi müstəqil ölkə olaraq xarakterizə edirlər. Bunlar müvəqqəti dövr üçün deyilmiş fikirlərdir. Arxasında heç bir ciddi əməl dayanmır. Ancaq Avropa Parlamentinin qəbul etdiyi qətnamə çox ciddi bir sənəddir. Nəzərə almaq lazımdır ki, bu mövqenin əslində həm də ABŞ-ın mövqeyi olduğu Barak Obamanın məlum çıxışı ilə ortaya qoyulub. Obama məhz Avropa Parlamentinin məlum qətnaməsindən az sonra Azərbaycanda vətəndaş cəmiyyətinin sıxışdırılması ilə bağlı tənqidi fikirlər dilə gətirdi. Bu, onu göstərir ki, Azərbaycanla bağlı gedən proses bir-biri ilə əlaqəli prosesdir. ABŞ prezidentinin çıxışı məhz Avropa Parlamentinin qətnaməsinin sıradan bir hadisə olmadığını, Azərbaycan hökumətinin bunu nəzərə almasının vacibliyini hökumətə xatırlatmaq üçün edilmiş çıxış sayılmalıdır. Əslində Obamanın çıxışı daha kəskin idi. Ona görə də bu çıxışdan sonra Azərbaycan hakimiyyətinin daxilində narahatlıq yarandığı sezilməyə başladı".



Natiq Miri

**Ekspertin sözlərinə görə, hakimiyyət təmsilçiləri fərqindədir ki, Obama Azərbaycanda baş verən hadisələri artıq Qərb dünyasının gələcəkdə təhlükəsizliyinə təhdid kimi dəyərləndirir. Təhlükəsizlik məsələsi isə Qərb üçün prioritetdir:** "Obamanın çıxışından dərhal sonra ABŞ dövlət katibinin müavini Tomas Melianın Azərbaycana səfərinin təyin edilməsi də göstərdi ki, ABŞ regionun strateji ölkəsi olan Azərbaycanı buraxmaq niyyətində deyil. Tomas Melia birbaşa demokratiya və insan haqları məsələləri üzrə məsul şəxsdir və bütün zamanlarda Azərbaycan hakimiyyəti ilə açıq, sərt tonda danışan adamdır. Bu dəfə Tomas Melianın Azərbaycana səfərinin qarşısı alına bilməyəcək. İnanmıram ki, hakimiyyət buna getsin. Çünki gedərsə, ABŞ-la Azərbaycan arasında münasibətlərin pozulmasına gətirə bilər. Artıq hiss olunur ki, hakimiyyət vəziyyətin ciddiləşdiyinin fərqindədir. Ona görə də davranışlarda artıq müəyyən yumşalmalar hiss olunmaqdadır. Düşünürəm ki, yumşalma davam edəcək. Belə olmasa, Azərbaycanla Qərbin münasibətlərini normal qaydada davam etdirmək mümkün olmayacaq. Bu gerçəyi artıq Azərbaycan hakimiyyəti bilir. Yumşalma olacağı ehtimalı bu baxımdan yüksəkdir".

**N.Mirinin fikrincə, ilk ciddi addım kimi yaxın günlərdə bir qrup tanınmış siyasi mövqeli məhbusların azad edilməsi gözlənilləndir. Bunun ardınca isə qanunvericilik yönündə də bir sıra yumşalmaları gedilməsi istisna deyil:** "Yumşalmanın, islahatların uğurlu alternativi yoxdur. Əks təqdirdə, Azərbaycan və həm də onun hakimiyyəti üçün ciddi problemlər ortaya çıxa bilər. Demokratiya və insan haqları sahəsində vəziyyətin müsbətə dəyişməsi problemlərdən yan keçməyin açarıdır. Qərbin əlindəki "kozr"ı almaq üçün Azərbaycan hakimiyyəti islahatlara başlasa, istədiyinə nail ola bilər".

❑ E.SEYİDAĞA

# Vaşinqtondan Həştərxan bəyanatına sərt təpki

## Rəsmi Bakı məsələyə reaksiya vermək istəmir; **Vəfa Quluzadə:** "Əgər Azərbaycan Amerikanın köməyi ilə Xəzərdə güclü donanma yaratmaq istəsə, buna kim qadağa qoya bilər?"

**"Biz "Xəzər beşliyi"nin birgə bəyanatında qeyd olunmuş başqa müddəalarla yanaşı, Xəzər dənizində sahil ölkəsi olmayan dövlətlərin silahlı qüvvələrinin mövcudluğunun yolverilməzliyi barədə müddəanı da görmüşük".**

**Bu fikri ABŞ Dövlət Departamentinin sözçüsü Cen Psaki Vaşinqtonda keçirilən brifinqdə bildirib. O, Rusiya, İran, Qazaxıstan, Türkmənistan və Azərbaycan liderləri tərəfindən sentyabrın 29-da qəbul edilmiş birgə bəyanat barədə suala cavab verərkən belə deyib:** "Bizim Azərbaycanla sərhəd təhlükəsizliyi, antiterror fəaliyyəti, NATO-nun qarşılıqlı əməliyyatlara və beynəlxalq missiyalara sülhyaradıcılarla töhfə verməsi imkanları üzərində cəmləşmiş güclü təhlükəsizlik əməkdaşlığımız var. Biz düşünmürük ki, "Xəzər beşliyi"nin birgə bəyanatı bunu dəyişəcək və ABŞ-Azərbaycan əməkdaşlığını təsirləndirməyəcək".

ABŞ-dan Həştərxan sammitinə bu qədər sərt mövqe bildirilməsi bəzi müşahidəçilər üçün gözlənilməz olmayıb. Hesab olunur ki, Rusiyanın Ukrayna böhranını dərinləşdirdiyi bir dönəmdə Xəzəri də öz monopoliyasına almaq cəhdi imperiyanı diriltmək cəhdlərinin tərkib hissəsi kimi qəbul edilməlidir və ona görə də Vaşinqtonun məsələyə təpkisi anlaşılandır. Xatırladaq ki, beş Xəzəryanı ölkənin Həştərxanda keçirilmiş sammitində qəbul olunmuş birgə bəyanatda deyilir: "Xəzər beşliyi" Xəzər dənizində sahil ölkəsi olmayan dövlətlərin silahlı qüvvələrinin mövcudiyyətini yolverilməz hesab edir".

Rəsmi Bakı isə ABŞ-ın mövqeyinə reaksiya vermək istəmir. XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"a dedi ki, bu barədə Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov sammitin yekunları barədə Bakının mövqeyini açıqlayıb və bununla kifayətlənirlər...

Nazir müavininin sözlərinə görə, nəhayət, 18 illik danışıqlardan sonra Xəzərin əsas məsələləri üzrə razılıq əldə olunub: "Bu isə o deməkdir ki, Xəzəryanı məkanda etimad və əməkdaşlıq mühiti yaxşılaşıb. Həmçinin Xəzərdə gəmiçilik sahəsində əməkdaşlıq məsələləri vacibdir ki, bu da dövlət başçılarının bəyanatında öz əksini tapıb".


Vəfa Quluzadə

İşçi qrupunun növbəti görüşü noyabr-dekabr aylarında Bakıda keçiriləcək. Məlumata görə, müxtəlif təşəbbüslərlə çıxış edən Azərbaycan razılaşmaların əldə olunmasında mühüm rol oynayıb.

**Politoloq Vəfa Quluzadə isə Həştərxan görüşünün ciddi irəliləyişə gətirdiyini düşünmür:** "Həştərxan görüşündə Xəzərin sektorlara bölünməsi həll olunmadı. Ancaq Rusiyanın təmənnaları özünü göstərdi. Sözsüz ki, Rusiya istədiyinə nail olmadı. Hər ölkənin özünün dənizin səthində payı, sərhədləri, zonası var. Rusiya da öz maraqlarına uyğun olaraq Xəzəri bölə bilmədi". **Politoloq Rusiyanın diktəsi ilə "Xəzər beşliyi"nin Xəzər dənizində sahil ölkəsi olmayan dövlətlərin silahlı qüvvələrinin mövcudiyyətini yolverilməz hesab etməsi barədə sənədin qəbuluna təəccübləndiyini vurğuladı:** "Bu, nə deməkdir? Biz müstəqil dövlətik və dənizin Azərbaycana aid suları barədə müstəqil qərar vermək hüququmuz var. Rusiya isə xarici dövlətdir. Elə isə nə səbəbə Rusiyanın Xəzərdə güclü hərbi donanması var? Gərək onda Rusiya Xəzərdəki əsgəri donanmasından imtina etsin. Rusiyanın arzusu odur ki, orda yalnız özünün donanması olsun, başqası gəlməsin".

**V.Quluzadə Moskvanın etirazının prinsipial qərarlara təsir edəcəyinə inanmır:** "Hər dövlət öz sektorunda neft-qaz istehsal edəcək, balıqçılıqla məşğul olacaq. Əgər Azərbaycan Amerikanın köməyi ilə Xəzərdə güclü donanma yaratmaq istəsə, buna kim qadağa qoya bilər? Amerika ilə birgə hərbi donanma yaratmaq istəyi olsa, Rusiyanın etirazına baxmayaraq bu, yaranacaq. Necə ki, Rusiya Azərbaycan, Türkmənistan və Qazaxıstanın Xəzərdə neft çıxarmasının əleyhinə idi, ancaq heç kim Moskvaya baxmadı, öz işi ilə məşğul oldu. Xəzərdə yalnız Rusiya nüvə superdövlətidir. Ancaq Həştərxanda Rusiyanın təsirini sırımaq mümkün olmadı". Politoloq Amerikanın mövqeyini normal sayır: "Nə səbəbə görə Rusiya narahatdır? Biz müstəqil dövlətik, istənilən ölkə ilə əməkdaşlıq edə bilərik. Sanki Amerikanın 6-cı donanması Xəzərə gəlir ki, Rusiya etiraz edir. Unutmaq olmaz ki, Xəzər bağlı bir dənizdir və burada bağlı dəniz qanunvericiliyi işləyir".

**V.Quluzadə Azərbaycan və Rusiya prezidentlərinin görüşünü, iki qonşu dövlətin artan əlaqələrindən danışmasını isə müsbət dəyərləndirdi:** "Rusiya sanksiyalardan çətin vəziyyətə düşüb deyə, Azərbaycan Moskva ilə əlaqələri genişləndirmir. Azərbaycan həmişə Rusiya ilə normal ticarət əlaqələrində olub. Sadəcə, son vaxtlar Rusiyada miqrantlara, azərbaycanlıların bazarlarına qarşı təzyiqlər olduğu üçün əlaqələr zəifləmişdi. İndi Rusiya çətinə düşüb və mövqeyindən geri çəkilib. Biz də pul qazanırıq. Ona görə deyirik "pulumuzu verin, malınızı aparın"".

❑ **Cavid TURAN**

# Amerika neft istehsalında Səudiyyə Ərəbistanını geridə qoyur

## Vaşinqton Avropanı Moskvanın enerji şantajından qurtarmağa çalışır

**İtaliyanın "Corriere della Sera" qəzeti yazır ki, bir ay sonra Amerika Birləşmiş Ştatları Səudiyyə Ərəbistanında daha çox neft istehsal edəcək. Məqalə müəllifi Massimo Hacı bununla bağlı dünyanın iqtisadi və siyasi müstəvisində baş verə biləcək dəyişikliklərə toxunur.**



"Amerika əhəmiyyətli dərəcədə xam neft və təbii qaz istehsalını artırmaq imkanındadır. Oktyabr ayının sonundan başlayaraq, Amerikanın uzun müddət gözlədiyi tarixi mərhələ başlayacaq. ABŞ Səudiyyə Ərəbistanından daha çox neft istehsal edəcək, Rusiyaya çatmaq üçün isə Amerikaya 10 il gözləmək lazım gələcək. Söhbət yüngül neftdən gedir.

"Bununla da ABŞ artıq dünya qiymətlərinin azalmasına geniş imkan yaratdı, bunun təmin olunması üçün böyük sıçrayış etdi. Bu sirr deyil ki, dünya bazarında neftin qiyməti OPEK ölkələrinin qərarından asılı idi. İndi isə neftin qiymətini Amerika diqtə edəcək. Gələcəkdə ABŞ həm neft, həm də qaz istehsalını artıra da bilər. Əslində biz neft sektorunda yeni eraya və ya inqilabi dəyişikliklərə start verilməsindən danışa bilərik. İndi ABŞ enerji müstəqilliyinə doğru hərəkət edir. Bu isə o deməkdir ki, ABŞ neft amilindən xarici siyasətdə təzyiq vasitəsi kimi istifadə etmək imkanı əldə edir və bununla da Yaxın Şərq ölkələrindən asılılığını heçə endirir. Üstəlik, gələcəkdə ABŞ xam neft və qazı Avropa və Asiyada olan müttəfiqlərinə sata da bilər. Bununla da rəsmi Moskvanın Avropanı enerji amili ilə şantaj imkanları sıradan çıxarmaq olar", - məqalədə deyilir.

"Amma qazı idxal etmək daha mürəkkəb görünür. Hələ təbii qazın sıxılmış formaya salınması üçün yeni-yeni müəssisələr inşa etmək lazımdır. Xüsusi zavodlardan çıxan məhsul dənizlə nəql edilməlidir. Bundan başqa, ABŞ-da neft istehsalının artımı da narahatlıq yaradacaq. Dediyimiz kimi, çıxarılan əsasən yüngül neftdir. Ancaq Amerikanın neft emalı zavodları neftin ağır növlərinin emalı üçün hesablanaraq inşa edilib. Ona görə də bir çox müəssisələrin təyinat istiqaməti dəyişməlidir. Şübhəsiz ki, bütün bunlar ABŞ-da istehsal olunacaq neftin və təbii qazın qiymətlərinin qalxmasına təkan verəcək", "Corriere della Sera" qəzetinin məqaləsində deyilir.

Bu yazıda Azərbaycan üçün də əhəmiyyətli məqamlar var. Əsasən neft və təbii qazın idxalı hesabına ayaqda duran ölkəmiz dünya bazarında yeni eranın başlanmasına hazırdırmı? Hər halda, görünən odur ki, neft və qazla bağlı qiymətləri bundan sonra ABŞ tənzimləyəcək. Bu amili indidən nəzərə almaq gərəkir.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

# 100 gün gözləyək!



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Hiss olunur ki, hansısa gizli əl, gözəgörünməz qüvvə Müsavatın son qurultayı ətrafında süni ajiotaj yaratmağa, xırda-para narazılıqları körükləməyə çalışır. Məqsəd seçkilərin legitimliyini şübhə altına alıb partiyanın imicinə xələl gətirmək, onun guya demokratik təşkilat olmadığı barədə, "əşi, Müsavat da seçkiləri saxtalaşdırır" kimi rəylər formalaşdırmaq, nəhayət, İsa Qəmbərin hakimiyyətə və cəmiyyətə təqdim elədiyi örnəyin əhəmiyyətini azaltmaqdır təbii ki.**

Əfsus ki, müəyyən dairələrin saqqız kimi uzatdığı dedi-qodulara bəzi müsavatçılar da qoşulur. Halbuki başqanlıq seçkiləri xırda-para qüsurlara rəğmən azad və ədalətli keçib. Bunu dərhal Arif Hacılının rəqibləri də etiraf ediblər, başqaları da. Görünür, bu etiraflar kifayət deyilmiş. Və belə görünür, kimlərsə Müsavatın irəli yox, geri baxmasında, təşkilat daxili intriqalardan başının ayılmamasında və zəifləməsində maraqlıdır.

Bu yerdə şəxsən mən həmişə obyektivliyi ilə tanınan Hikmət Hacızadənin seçkiyə verdiyi qiymət ən mötəbər sayıram. Sitat: "Bu, Azərbaycanın ictimai həyatı üçün böyük hadisədir. Seçki şəffaf, düzgün, alternativli, plüralistik və rəqabətli keçdi. Buna görə qürur duyuram. Seçki qurtarıb. İndi hamı bir olub partiyanın işində iştirak eləməlidir. Etirazlara gəlincə, ola bilsin pozuntular baş verib, onları obyektiv araşdırmaq lazımdır".

Xatırladaq ki, Hikmət bəy Qubad İbadoğluna dəstək verib. Di gəl, "legitimlik" mübahisələri yenə də davam edir...

***

Müsavatı rəqib qismində görən qüvvələr əlbəttə ki, təkcə hakimiyyət düşərgəsində deyil. Müxalifətdəki müxalifət də zaman-zaman Rəsulzadə partiyasının ayağının altını eşib. Bu proses başqan dəyişikliyindən, İsa Qəmbərin partiya rəhbəri vəzifəsindən getməsindən sonra yəqin ki, bir az da güclənəcək. Deməli, yeni başqanın işi sələfindən qat-qat çox və gərgin olacaq. Təzə başqan eyni zamanda partiya üzvlərinin yarıdan çoxunun ona boşuna etimad göstərmədiyini, İsa Qəmbərin layiqli davamçısı olduğunu əməldə sübut eləməlidir.

Başqan olmaq sözsüz ki, üstünlük demək deyil, əksinə, yaşadığımız ziddiyyətli bir dövrdə əlavə məsuliyyətdir. Belədirsə, təzə rəhbər indiyədək istifadə eləmədiyi potensialı da işə salmaq zorundadır. Üstəgəl, çevik və işlək bir komandanın zəruriliyi, partiyanın monolitliyi naminə ali seçkili orqanlarda strateji məsələlərlə bağlı konsensusun təmin edilməsi də onun missiyasına daxildir.

Bu işdə yeni başqana onun legitimliyini tanıyan bütün müsavatçılar kömək göstərməyə borcludur. "Su qaba düşdü, oldu içməli" - deyiblər. İndi hamı 27 sentyabrdan sonrakı reallığı ciddiyə alıb da ona köməkçi olmalıdır. Ən azı o səbəbə ki, Müsavatın əsas hədəfi hakimiyyəti dəyişməkdir, başqanı yox...

Bir daha vurğulayaq: hər bir siyasi partiyanın əsas məqsədi seçki yolu ilə iqtidara gəlməkdir. Azərbaycan reallığında indi bu, az qala fantastik görünür. Çünki ölkədəki sərt avtoritar idarəçilik hakimiyyəti dinc yolla təhvil vermək bir yana, adicə yad fikirliliyi də həzm edə bilmir, bələdiyyələrin belə müxalifətə keçməsindən ehtiyatlanır.

Azərbaycanda bu cür şərtlər altında müxalifətçilik əslində dissidentlikdir. Arif Hacılıya bu mənada qibtə eləməyə, həsəd aparmağa dəymir. Yəni bu, doğrudan da qələbə deyil, olsa-olsa olduqca qəliz və riskli bir zəmanədə Müsavat adlı gəminin "sükançı"sının dəyişdirilməsidir.

Odur ki, 100 gün gözləyək: təhvil-təslimin düzgün olub-olmadığı onda bilinəcək. Ancaq əlahəzrət zamanın şərtləri diktə edir ki, Arif Hacılının yanında bir ehtiyat "sükançı" da olsun. Həmin şəxs Qubad bəy olarsa, çox pakizə. Niyə də olmasın?

Müsavata da, "sükançı"lara da uğurlar!

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014

# Ölkəni şoka salan cinayətin sensasion detalları








# Goranboydakı qətliamın tükürpədən təfərrüatları - özəl araşdırma

Qayınatasının evinə gecəyarı qumbara atıb 7 qohumunu öldürən Rafiq Hüseynovu bu cinayətə sövq edən səbəblər üzə çıxır; "Yeni Müsavat"ın əməkdaşları qan gölünə dönən evdən yazır...

**Oktyabrın 1-i, sübh saat 4:00 radələrində Goranboyda dəhşətli qətliam baş verib. Rayonun Səfikürd kəndində yerli sakin Rafiq Hüseynov əl qumbarası və odlu silahla qayınatasının evinə hücum edərək, 5-i qadın olmaqla, 7 nəfəri öldürüb, 2 nəfəri isə yaralayıb. Bu tükürpədici cinayət ailədaxili münaqişə zəminində baş verib, öldürülənlər arasında həyat yoldaşı Südabə Hüseynova da var.**

***

Evə olunan silahlı hücum nəticəsində qətlə yetirilən şəxslərin adları bunlardır: 1958-ci il təvəllüdlü Diləzbər Alı qızı Məmmədova, 1983-cü il təvəllüdlü Fərqanə Allahyar qızı Məmmədova, 1951-ci il təvəllüdlü Ofelya İsa qızı Məmmədova, 1963-cü il təvəllüdlü Həvayət Xanlar qızı Məmmədova, 1984-cü il təvəllüdlü Südabə Allahyar qızı Hüseynova, 1989-cu il təvəllüdlü Namiq Allahyar oğlu Məmmədov və 2011-ci il təvəllüdlü İsa Elvin oğlu Məmmədov.

Onlar qatilin həyat yoldaşının qohumlarıdır. Yaralılar 28 yaşlı Natiq Məmmədov və 30 yaşlı Günel Məmmədova isə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib. Natiq və Namiq öldürülən gəlinin qardaşları olub. "Yeni Müsavat"ın reportyor qrupu dərhal kəndə yollanıb və hadisənin təfərrüatlarını araşdırıb.

***

...Səfikürd kəndində hər kəs bu terrorun şokunu yaşayır. Hadisənin baş verdiyi mənzildə otaqların altı üstünə çevrilib. Qatilin evə əl qumbarası atması nəticəsində 5 nəfər bir otaqda tələf olub, digər otaqda olan iki nəfəri isə əlindəki tüfənglə öldürüb. Natiq isə ona müqavimət göstərərək yaralı vəziyyətdə evdən çıxarıb.

Bununla qane olmayan R.Hüseynov üç yaşlı körpənin də başından güllə ilə vurub öldürüb. Otaqların döşəməsi qan gölməçəsinə dönüb, güllələr pəncərələrin şüşələrini çilik-çilik edib, otaqlarda yorğan-döşək dağılıb tökülüb.

Hadisə baş verən evin həyətində isə qohum-qonşu toplaşıb, qətliamın səbəblərini danışırlar. Hadisə baş verən yerə çatan qonşulardan biri elə zənn edib ki, qaz partlayıb. Evə girəndə hər yerdə cəsəd, qan gölü görüb.

Kənd sakinlərinin sözlərinə görə, qatil hadisədən qabaq qayınatası evinə zəng edərək "hamınızı yer üzündən siləcəyəm" deyərək təhdid edib.

Səfikürd sakinləri deyirlər ki, Rafiq qaraqabaq bir adam olub, ayaqqabı tikməklə məşğul imiş. Bu, onun həyatında ikinci evliliyidir. İlk ailəsi ilə cəmi 8 ay yaşayıb. Öldürdüyü həyat yoldaşı ilə 1 ay 4 gün əvvəl nikaha girib.

Camaatın dediyinə görə, arvadı ilə arasında mübahisə olub.






Qonşu Aydın Yusifov: "Mənə atdığı güllə darvazaya dəydi"


Qətlə yetirilən Südabə Hüseynovanın qohumu Allahverdi Allahquliyev





## "Hamınızı yer üzündən siləcəyəm" - qatilin son sözü

Səbəb isə arvadının onun istədiyi ayaqqabını səhv gətirməsi olub. İkinci mülahizə isə onların evinə arvadının əmisi oğlunun gəlməsidir.

R.Hüseynovun arvadı evə qonaq gələn əmisi oğlu ilə öpüşüb-görüşüb.

Bu da onun xoşuna gəlməyib və arvadının qohumunu döyüb. Sonra isə arvadını vəhşicəsinə döyməyə başlayıb. Südabə Hüseynova ölümünə döyüldükdən sonra atası evinə qaçıb. Burada isə onun qohumları da olublar. Rafiq "hamınızı yer üzündən siləcəyəm" dedikdən sonra gecəyarısı qayınatası evinə gələrək kütləvi qətl törədib.

***

Yas məclisi qurulan həyətə də baş çəkib, hadisənin detallarını öyrənirik. S.Hüseynovanın qohumu olan Allahverdi Allahquliyev deyir ki, Rafiqin etdiyi cinayət ağlasığmazdır: **"Südabəni başından vurub, sonra qaynı Namiqi öldürüb.**

**Uşağın gözünə qəlpə girib, özüm gördüm. Yaralıların da vəziyyəti çox pisdir. Bu manyak üç ailəni məhv etdi. Üç ailəni gülləbaran etmək nə deməkdir? Adam, deməli, hazırlıqlı gəlib".**

A.Allahquliyev bildirdi ki, ailədə kimsə qalmayıb, yas məclisini rayon icra hakimiyyəti təşkil edib: **"Gör necə qəddar adamdır ki, körpəni də vurub. Bütün nəsli məhv etdi. Heç kim ailədə qalmadı. Bir ailədən dördü ölüb, biri yaralıdır".**

Onu da deyək ki, yas yerində kənd icra nümayəndəsi Eldəniz Həsənəliyev də var idi, məclisin təşkilinə rəhbərlik edirdi. Yas mərasimində rayonun icra başçısı, polis rəisi iştirak ediblər, köməklik göstəriləcəyini bildiriblər. Bakıdan istintaq qrupu da kəndə gəlib, qatilin yaşadığı evin önündə polis postu qoyulub.

***

R.Hüseynov 7 nəfəri öldürdükdən sonra qonşusuna da hücum çəkib, ona güllə atıb. Xoşbəxtlikdən güllə qonşusu Aydın Yusifovdan yan keçib: **"5-6 ay qabaq onun atası ilə aramızda məhkəmə çəkişməsi vardı. Guya onların yoluna çəpər çəkmişəm, yolu bağlamışam. Özü ilə heç bir əlaqəm yox idi. Deməli, 7 nəfəri öldürüb, ikisini ağır yaralayıb, hirsi soyumayıb. Əvvəlcə gəlib qardaşımı çağırıb, deyib xəstə uşaq var, təcili həkimə çatdırmaq üçün maşın istəyib. Qardaşım deyib ki, maşın texniki baxışdan keçməyib. O da gəlib məni çağırdı. Sübh saat 5-in yarısı idi, qapını döydü. Yuxulu vəziyyətdə oyandım, bayıra çıxdım, dedi ki, uşaq xəstədi, maşın lazımdı, elə bunu deməklə güllə atmağı bir oldu. Güllə yanımdan keçib, darvazaya dəydi. Tez içəri qaçdım, qapını arxadan bağladım.**

**Başladı qapını təpikləməyə. Sonra gedib qardaşımın həyətinə güllə atdı. Yəqin fikirləşib ki, həbs olunacaq, birdəfəlik bizimlə də haqq-hesab çəkmək istəyib. Allah üzümə baxdı ki, güllə yan keçdi. Əgər qardaşımı və məni də vursaydı, o yaralı iki nəfər də ölsəydi, bir gecəyə 11 adam öldürmüş olacaqdı".**

***

Qatilin birinci qayınatası, Aydının qardaşı Raqif Muxtarov keçmiş kürəkəni haqda bunları danışdı: **"Mənim qızımla 2007-ci ildə ailə qurmuşdu. Haradasa 8 ay evli olublar. Bu müddətdə mən rayonda olmamışam. Sonra öyrəndik ki, qızıma işgəncə verib, döyürmüş, əlini isti suya salırmış, başına vururmuş. Mən bunları bilmirdim. Ondan sonra qızımı ayırdım.**

**Adam deyil, psixdir, xəstədir. Mən bu işgəncələrdən xəbər tutanda Rafiq Moskvaya qaçdı. Biz onlarla qohumuq, əmi oğlu sayılırıq. Ağlı başına adam bunları etməz. Mənim qızıma olmazın işgəncələr verib. İndi bir aydır ki, evlənmişdi, üç ailənin həyatına qəsd etdi. Cinayəti elədəndən sonra təslim olmaq istəməyib. Evə gələndə qardaşı əlindən silahı alıb, polisə aparıb".**

Faktla bağlı cinayət işi başlanıb, istintaq gedir.

**❑ "Yeni Müsavat"ın Reportyor Qrupu**
**Goranboy, Səfikürd**

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014

**Bu ilin iyul-avqust aylarında bir neçə QHT sədri, hüquq müdafiəçisi həbs edildi. Nəticədə 20-yə yaxın QHT haqqında cinayət işi açıldı. Leyla və Arif Yunuslar, İntiqam Əliyev, Rəsul Cəfərov kimi tanınmış hüquq müdafiəçiləri ən ağır maddələrlə ittiham olunaraq, həbs edildilər.**

# "Hakimiyyət etirazsız cəmiyyət formalaşdırmaq istəyir"


Ənnağı Hacıbəyli

## Ənnağı Hacıbəyli: "Həbsimlə bağlı təhlükə hələ qalır"

Sentyabr ayı isə repressiyaların səngiməsi kimi müşahidə olundu. Həbslərin davamlı olacağı deyilsə də, bu proqnoz özünü doğrultmadı. Amma bir sıra QHT rəhbərinin də həbs olunacağı ehtimalları haqda iddialar var. Bunlardan biri Azərbaycan Hüquqşünaslar Assosiasiyasının rəhbəri Ənnağı Hacıbəylidir. Xatırladaq ki, Ə.Hacıbəyli iki gün öncə prokurorluqda dindirilib. Hüquq müdafiəçisi ilə əlaqə saxlayıb həm dindirilməsi haqda, həm də digər məsələlər ətrafında söhbət etdik.

***- Ənnağı bəy, sizcə, repressiyalar dayandımı?***

- Deyə bilmərəm. Bunu yalnız hakimiyyət bilər. Amma sadəcə Avropa Parlamentinin qətnaməsindən sonra bir sakitlik hiss olunur. Sonu nə ilə bitəcək, hələ məlum deyil. Üstəlik, QHT-lərə qarşı qaldırılan cinayət işlərinin istintaqı davam edir. Ya hücumlar dayandırılır, ya da bir müddətdən sonra yenidən başlayacaq.

***- Hədəfdə olan hüquq müdafiəçilərindən biri, bəlkə də birincisi sizsiniz. Bu təhlükəni yenə hiss edirsiniz?***

- Təbii ki, təhlükə var. Çünki İntiqam Əliyev, Rəsul Cəfərov, Rəşid Hacılı və mənim haqqımda birgə qərar verilib - təşkilatımızın və şəxsi hesabımıza həbs qoyulması ilə bağlı. Üstəlik, hamımızda vergi yoxlaması davam edir. Artıq iki nəfər həbsdədir. Dünən (srağagün-red. ) istintaqa çağırıldım. Yəni həbs olunmağım mümkündür .

***- Müstəntiqlər sizə nəylə bağlı suallar verdilər?***

- İlkin ifadə idi. Daha çox anket məlumatları və ümumi suallar oldu. Ona görə təhlükənin dərəcəsini müəyyən etmək mümkün deyil. Növbəti dindirmələrdən sonra məlum olacaq.

***- Yenidən istintaqa çağırılma ehtimalınız varmı?***

- Bəli, amma ehtimal deyil. Bildirdilər ki, ifadə davam edəcək.

***- Sizcə, Avropa Parlamentinin qəbul etdiyi qətnamə həbsdə olan hüquq müdafiəçilərinin istintaqında müsbət rol oynaya bilərmi?***

- Hər şey Azərbaycan hakimiyyətinin atacağı addımlardan asılıdır. Bir daha qeyd edirəm ki, Azərbaycan seçim etməlidir. Ya üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli, ya da Azərbaycanın konstitusiyasına və qanunlarına, götürdüyü beynəlxalq öhdəliklərə zidd siyasətini davam etdirməlidir.

***- Nə düşünürsünüz, həbs edilən hüquq müdafiəçilərinin istintaq müddəti uzadılacaq?***

- Təbii ki, bu qərarı istintaq qəbul edəcək. Sadəcə, öz subyektiv fikrimə görə, bu müddət artırılacaq.

***- Həbsdəki hüquq müdafiəçilərinə qarşı irəli sürülən ittihamlardan hər hansı biri cinayət işindən çıxarıla bilər?***

- İntiqam Əliyevə qarşı irəli sürülmüş 308-ci maddə absurddur. Söhbət Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbərliyinin mənimsənilməsindən gedir. Guya İntiqam müəllim bu vəzifəni mənimsəyib. Seçki ilə bağlı protokolları İntiqam müəllim Ədliyyə Nazirliyinə göndərib. Lakin onlar imtina ediblər. Bunun heç bir hüquqi əsası yoxdur. Qanunvericilikdə buna görə inzibati cəza, cərimə nəzərdə tutulur. Güman edirəm ki, bu ittiham çıxarılacaq.

***- Sizcə, QHT-lərə hücumlar hansı nəticəni verdi?***

- İndiki halda hücuma məruz qalan QHT-lərin fəaliyyəti iflic vəziyyətindədir. Yaxın bir neçə ildə də belə olacağı görünür. Çünki hesabları tamam bağlanıb. Nağd qaydada pul almaq imkanı yoxdur. Çoxlarının buna həvəsi də yoxdur. Söhbət bu dəqiqə bu təşkilatların iflic vəziyyətinə düşməyindən gedir. Nə qədər davam edəcəyini bilmək çətindir. Hər şey hakimiyyətin mövqeyi və siyasətindən asılı olacaq.

***- Hakimiyyət QHT-lərə qarşı hücumla nə əldə etdi?***

- Başlıca məqsəd ölkədə sakit, etirazsız cəmiyyət formalaşdırmaqdır. Güman edirəm ki, əsas məqsəd növbəti ildə olacaq parlament seçkilərini hakimiyyətin istədiyi şəkildə keçirməkdir.

❑ **Cavanşir ABBASLI**



# İŞİD 20 Türkiyə əsgərini girov götürdü

## Türkiyədə terrorçu qruplaşmaya qarşı müharibə ilə bağlı qanun və ölkənin anti-İŞİD koalisiyasına qoşulması məsələsi müzakirəyə çıxarılır...

**Ərəb mediası İŞİD döyüşçülərinin Türkiyənin Hələb şəhəri yaxınlığında Mənbic bölgəsində yerləşən "Süleyman Şah" türbəsini qoruyan 20 Türkiyə hərbçisini girov götürdüyü barədə xəbər yayıb. İlk olaraq xəbəri Livanın "əl-Məyadin", daha sonra isə Suriya müxalifətinə məxsus yerli radio xəbəri təsdiqləyib. Ancaq Türkiyə hökuməti məlumatı təsdiq və ya təkzib etməyib.**

Qeyd edək ki, türbə Türkiyə Cümhuriyyətinin ölkə sərhədlərindən kənarda olan yeganə anklav ərazisidir. 1921-ci ildə imzalanmış müqaviləyə əsasən, bu ərazi Türkiyəyə məxsusdur, türbəni Türkiyə ordusu mühafizə edir. Hazırda türbəni 36 Türkiyə hərbçisi mühafizə edir. Əsgərlər növbəli sistem əsasında türbədə xidmət edir və müəyyən vaxtdan sonra dəyişdirilir.

Ötən gün məlum olub ki, türbənin boşaldılması ilə bağlı Türkiyə hökuməti ilə ordu arasında uzun müddət müzakirələr gedib. Məsələ burasındadır ki, Suriyada üsyan və daxili müharibə başladıqdan sonra türbəyə, daha doğrusu, bu türbəni mühafizə edən Türkiyə əsgərlərinin həyatına təhlükə yaranıb. Çünki Hələb və ətrafı daimi döyüş səhnəsinə çevrilib, ərazi tez-tez müxtəlif silahlı qruplaşmaların nəzarətinə keçir.

Bir neçə dəfə isə türbə İŞİD-in hədəfində olub, qruplaşma türbəni ələ keçirməklə hədələyib. Türkiyə mətbuatının yazdığına görə, son 4 ayda Türkiyə ordusu Baş Qərargahı bir neçə dəfə hökumətə yazılı məktub göndərərək türbəni qoruyan əsgərləri Türkiyəyə qaytarmağı təklif edib. Ancaq hökumətin rəhbərliyindən buna qarşı çıxıldığı və bunun bir qürur məsələsi olduğuna dair cavab gəldiyi bildirilir.

"Süleyman Şah" türbəsinin və Türkiyə əsgərlərinin ələ keçirilməsi Ankara üçün yeni durum yaradır. Hökumətin bundan sonra yenidən İŞİD-lə gizli danışıqlara başlayacağı, yoxsa terror qruplaşmasına qarşı müharibəyə qoşulacağı dəqiq deyil. Yalnız o məlumdur ki, oktyabrın 2-də Türkiyə parlamenti xarici ölkələrə hərbçi göndərilməsi məsələsini müzakirə edəcək, eyni zamanda bir neçə il əvvəl silahlı qüvvələrə ölkə xaricində hərbi əməliyyat səlahiyyəti verən qanunun müddətinin daha da uzadılmasını müzakirə edəcək.

Xatırladaq ki, sözügedən qanun bir neçə il əvvəl ordunun Şimali İraqda PKK-ya qarşı əməliyyat keçirməsinə səlahiyyət vermək üçün qəbul edilmişdi. Hökumət sözçüsü Bülənd Arınc bildirib layihələrin birləşdirilərək bir qanun şəklində müzakirəyə çıxarılması nəzərdə tutulur. Onun sözlərinə görə, bu, "Bütün tədbirləri özündə birləşdirən əhatəli bir qanun" olacaq. Arınc bunu yeni qanunlara gərək duyulmaması ilə izah edib.

Belə bir addım Türkiyə hökumətinin İŞİD-ə qarşı koalisiyaya qoşulması üçün hüquqi baza yaradılmasına hesablanıb. Ancaq görünür ki, hökumət daha çox ümumi ifadələrə üstünlük verməyə çalışır. BBC-nin məlumatına görə, B.Arınc bu mövzuda suala cavab olaraq "ümumi ifadələr işlətməyə üstünlük verdik. Adları tək-tək sadalamaq əvəzinə, onların ümumi obrazını təqdim etmək daha ağıllı addım olardı" - deyib.

Ancaq müxalifət hökumətin yeni qanun layihəsini tənqid edib. CHP sədrinin müavini Sezgin Tanrıkulu yeni qanunu "torba layihə" adlandırıb. MHP sədrinin müavini Emin Haluk Ayhan isə qanun layihəsi ilə tanış olduqdan sonra partiyanın öz qərarını verəcəyini bildirib. Daha əvvəl MHP hökumətin bu layihəsini dəstəkləyib.

❑ **KƏNAN**

# "Hafka"nın başına bəla olan 300 min manat

## Məhkəmə icraçıları Hafiz Məmmədovun villasını boşaltmaq istədilər; çarəsiz durumda olan iş adamı sonuncu dəfə söz verdi...

**Oktyabrın 1-də "Baghlan Group" şirkətinin və "Bakı" futbol klubunun prezidenti, "Hafka" ləqəbi ilə tanınan iş adamı Hafiz Məmmədovun Məmməd Araz (keçmiş Teymur Əliyev) küçəsi 63 ünvanında yerləşən və dəyəri 3 milyon dollar qiymətləndirilən villasının qarşısına yenidən məhkəmə icraçıları və polis gəlib.**







Modern.az saytının məlumatına görə, bu günə evi boşaltmağı vəd etmiş "Hafka" fikrini dəyişib. Buna görə də Nərimanov Rayon Məhkəməsinin icraçıları polis əməkdaşlarının köməyi ilə villaya keçməyə cəhd ediblər. Villanın içində kifayət qədər böyük sayda mühafizəçilər cəmləşib və qapını açmaqdan imtina ediblər. Məhkəmə icraçıları isə malikanənin boşaldılmasını tələb ediblər.

Xatırladaq ki, bir neçə gündür başlanan bu qalmaqalla bağlı Hafiz Məmmədov məlumatlandırılıb və o, oktyabrın 1-dək vaxt istəyib, bu gün borcu ödəyəcəyini vəd edib. Məhkəmə icraçıları bununla bağlı müzakirə apardıqdan sonra qərara alınmışdı ki, evin boşaldılması oktyabrın 1-i saat 12-yə qədər təxirə salınsın.

Məlumata görə, H.Məmmədov müsadirə olunan villanı oğluna toy hədiyyəsi kimi bağışlayıbmış. Məhkəmə 300 min manat borcu qaytara bilmədiyinə görə onun əmlakının boşaldılması barədə qərar verib. H.Məmmədov bu villanı bir müddətdir ki, satışa çıxarıb. Həmin ərazidə "Hafka"nın daha bir neçə villası olduğu deyilir.

Bütün bu məlumatları dəqiqləşdirmək üçün adıçəkilən ünvana yollandıq. Biz ora yetişənə qədər artıq məhkəmə icraçıları və polis əməkdaşları ərazini tərk etmişdilər. Yalnız qapının önündə sağa-sola hərəkət edən idmançı vücuduna sahib bir şəxs diqqətimizi çəkdi.

Aldığımız məlumata görə, Hafiz Məmmədov oğlu üçün aldığı evin kredit borclarının bir hissəsini "Nikoil bank"a qaytaracağına söz verib. Buna görə də məhkəmə icraçıları və polis əməkdaşları villanı tərk ediblər.

Görünən budur ki, Hafiz Məmmədovun çox böyük maddi sıxıntıları var. Əgər ödəməli olduğu 300 min manatı ödəyə bilməsə, Məmmədovun Məmməd Araz küçəsi 63 ünvanında yerləşən və dəyəri 3 milyon dollar qiymətləndirilən villası müsadirə ediləcək.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014


Elman Türkoğlu

# "Baş bayraqdar" Xədicə İsmayılın həbsini istəyir

## Elman Türkoğlu: "O, məni və ailəmi təhqir edir, ölümlə hədələyir"
## Xədicə İsmayıl: "Hökumət bəhanə axtarır"

**"Baş bayraqdar" ləqəbli Elman Həsənov (Elman Türkoğlu) jurnalist Xədicə İsmayılı məhkəməyə verib.**

Hüquq-mühafizə orqanlarından verilən məlumata görə, AzadlıqRadiosunun əməkdaşı, jurnalist İsmayılova Xədicə Rövşən qızının yalan olduğunu bilə-bilə Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) keçmiş üzvü, "Elman Türkoğlu" və "Baş bayraqdar" ləqəbləri ilə tanınan Həsənov Elman Həsən oğlunun guya Milli Təhlükəsizlik Nazirliyinin (MTN) zabiti ilə gizlin əməkdaşlığa cəlb olunması, narkotik maddələrdən istifadə etməsi və onun şərəf və ləyaqətini ləkələyən və nüfuzdan salan məlumatları, habelə onu Şəki rayon sakini Niftalıyeva Leyla Adil qızını zorlamasına dair ağır cinayətdə ittiham etməklə böhtan xarakterli məlumatları kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yayması ilə əlaqədar E.Həsənov onun Cinayət Məcəlləsinin 147-ci (Böhtan) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsi üçün xüsusi ittiham qaydasında Binəqədi Rayon Məhkəməsinə müraciət edib.

Sözügedən məsələyə aydınlıq gətirmək üçün Elman Türkoğlu ilə əlaqə saxladıq. O bildirdi ki, Xədicə İsmayıl 2011-ci ildə saxta sənədi sosial şəbəkələrdə paylaşmışdı. Sənəddə qeyd olunub ki, 2003-cü ildə guya MTN məni narkotik maddə qəbulu ittihamı ilə saxlayıb, döyüb və casusluğa məcbur edib. Həmçinin yazılıb ki, guya mən ayda 600 manat almaqla müxalifətin daxilinə casus kimi salınmışam. Orada daha ağır ittihamlar və böhtanlar var. Orada mənim adım qeyd olunub və həmin şəxsin mən olduğuna dair bilgilər var, adım silinsə də olduğum rayonun, kəndin adı verilib. Mən həmin sənədi Xədicə İsmayıl ilk dəfə paylaşanda surətini çıxarıb saxlamışdım, indi də o sənəd məndə var, sabah sizə çatdıraram.

Həmçinin sənəd MTN-in möhürü ilə təsdiq olunub. Mən əvvəlcə sənədin saxta olduğunu müəyyənləşdirmək üçün MTN-ə müraciət etdim, MTN müəyyənləşdirdi ki, sənədə saxta möhür vurulub. Mən məhkəməyə müraciət etmişəm və Xədicə İsmayılın həbsinə nail olacağam, o, məni və ailəmi təhqir edir, ölümlə hədələyir".

**Xədicə İsmayılın bu məsələ ilə bağlı mövqeyi AzadlıqRadiosuna verdiyi açıqlamada əks olunub. O, insanların şəxsi həyatlarına hörmət etdiyini və kiminsə şəxsi həyatı ilə bağlı heç vaxt məlumat yaymadığını vurğulayıb. Məhkəməyə müraciətə gəlincə, Xədicə İsmayıl iddiaçının adının bu kontekstdə hallanmasının onun nəyinə lazım olduğunu anlamadığını deyib:** "MTN-in adamları pusması və əməkdaşlığa cəlb etməsi barədə mənə göndərilən və sənəd kimi təqdim olunan əslində bir fayl olub. Mən həmin məlumatı yaymadan öncə adları və şəxsin kimliyini müəyyənləşdirə biləcək digər informasiyaları pozmuşam. Bilmirəm adının bu kontekstdə hallanması iddiaçının nəyinə lazımdır? Hər halda, heç kim bunu öz xoşuna etməz. Bu işdə qarşı tərəf MTN olacaq».

**Xədicə İsmayıl əlavə edib ki, facebookda paylaşdığı məlumatın sənəd olduğunu heç vaxt iddia etməyib. Prokurorluq bu faylı dövlət sirri təşkil edən sənəd hesab edib, cinayət işi açmışdı:** "Mən bunun sənəd olduğunu belə iddia etməmişəm. Prokurorluq təsdiqlədi ki, bu sənəddir. Hökumət həbs, yaxud ölkədən çıxışıma qadağa qoymaq üçün bəhanə axtarır. Elə bilirlər qorxub gəlməyəcəyəm. Yanılırlar. İşlərimi bitirib, geri qayıdacağam».

Xədicə İsmayıl bildirib ki, ötən gün *(sentyabrın 30-da)* onun qeydiyyatda olduğu ünvana özünü Azər Rzayev kimi təqdim edən bir nəfər gəlib. Qardaşına bildirib ki, hakimin köməkçisidir və Xədicə İsmayıldan şikayət edilib məhkəməyə.

**Məhkəməyə çağırışla bağlı məktubu Xədicə İsmayılın ailə üzvlərinə verməkdən imtina edib, ancaq əlaqə telefonunu qoyub:** "Mən onunla əlaqə saxladım. Telefonda mənə Elman Həsənov adlı bir nəfərin xüsusi ittiham qaydasında məndən şikayət etdiyini bildirdi".


Xədicə İsmayıl

Sonda Xədicə İsmayıl bir daha sözügedən məhkəmə işində iddiaçı tərəfin adını çəkib, onun şəxsi həyatının müzakirəyə çıxarılmasının əleyhinə olunduğunu vurğulayıb. Əlavə edib ki, bu məlumatın ilk olaraq mediaya hüquq-mühafizə orqanlarının adından çıxarılmasını qətiyyətlə pisləyib.

Qeyd edək ki, cinayət işi Binəqədi Rayon Məhkəməsinin hakimi Sədrəddin Hacıyevin icraatına verilib.

❑ **Nərgiz LİFTİYEVA**

# "Avropa ilə gərginlik Rusiyanın maraqlarına xidmət edir"

## Ərəstun Oruclu: "Hər şey Azərbaycanın təklənməsinə doğru gedir"

**Avropa Parlamentinin (AP) Azərbaycan hökumətini tənqid edən bəyanatına Bakıdan sərt reaksiya gəlib. Azərbaycan XİN-in ardınca Milli Məclis AP-ın Azərbaycan hakimiyyətinin insan haqları ilə bağlı vəziyyəti tənqid edən hesabatını kəskin pisləyib.**



Milli Məclisin sessiyasında spiker Oqtay Əsədov Avropa Parlamentinin qətnaməsini "qeyri-obyektiv" adlandırıb. Spiker bildirib ki, bu, Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi 4-cü qətnamədir. O.Əsədov qətnaməni Avropa Parlamentinin böyük çoxluğunun mövqeyini əks etdirmədiyini deyib.

Spikerin təklifi ilə Avropa Parlamentinə etiraz bəyanatı hazırlamaq üçün parlamentdə vitse-spiker Valeh Ələsgərovun sədrliyi və bir neçə deputatın iştirakı ilə komissiya yaradılıb. Milli Məclis Avropa Parlamenti Əməkdaşlıq Komitəsinin həmsədri Valeh Ələsgərov deyib ki, bir çox dairələr, o cümlədən AP Azərbaycanın müstəqil siyasətini həzm edə bilmir.

**V.Ələsgərov bildirib ki, AP Azərbaycana qarşı həmişə nəinki ikili standartlarla, hətta üçlü-dördlü standartlarla mövqe göstərib:** "Bir dəfə onlar bizə təklif etdilər ki, "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş əraziləri" sözlərinin qeyd olunduğu sənədə səs verək. Yəni Dağlıq Qarabağın bizim ərazimiz olması fikrindən imtina edirdilər. Şərt qoydular ki, ya bu sənədə imza ataq, ya da Azərbaycanda hansısa iki bloggerlə bağlı AP qətnamə qəbul edəcək. Bu, şantaj deyil, nədir?!"

Qeyd edək ki, son zamanlar Avropa institutları arasında münasibətlər gərginləşməkdə davam edir. Qərbdən insan hüquqlarının vəziyyəti ilə bağlı artan tənqidlərin fonunda Bakıdan sərt reaksiyalar verilir. Bir çox ekspertlərə görə, vəziyyətin bu şəkildə davam etməsi əslində Azərbaycanda siyasi situasiyaya təsir edə bilər.

**Politoloq Ərəstun Oruclu deyir ki, artıq hakimiyyətlə Qərb arasında müharibə gərginləşib və Qərbdən Bakıya cavablar gəlməkdədir:** "Hakimiyyət-Qərb münasibətlərində həqiqətən diplomatik-siyasi müharibə başlayıb. Bu təzə müharibə deyil. Təzə başlayanda bu haradasa ayrı-ayrı atışmalar idi, xüsusən də Azərbaycan tərəfindən. Amma bu gün Qərbin də cavabları özünü çox gözlətmir. Çox sistemli şəkildə cavablar gəlir. İstər Avropa Birliyinin qəbul elədiyi qətnamə olsun, istərsə də Anar Məmmədliyə verilən mükafat olsun, yaxud prezident Barak Obamanın çıxışındakı Azərbaycanla bağlı tənqidi qeyd olsun, ya da ABŞ, Avropa mətbuatında gedən yazılar olsun".

**Ə.Oruclu deyir ki, Qərblə yaradılmış gərginlik Azərbaycanı Rusiya ilə daha da yaxınlaşdırır. Bu isə Bakı üçün daha təhlükəli nəticələr doğura bilər:** "Mənə elə gəlir ki, bu, artıq gətirib çıxara biləcəyi mərhələyə gətirib çıxarıb. Azərbaycanla Qərb arasında münasibətlər əsaslı şəkildə korlanıb. Azərbaycan hakimiyyəti bunu məqsədli şəkildə, özünü rusiyapərəst göstərmək üçün etdi. Qərb heç bir şey etmədiyi halda Azərbaycanda Qərbə savaş açdılar. Ola bilər ki, bunu kənardan sifariş etdilər. Ola bilsin ki, bu, özlərinin qərarı oldu, Qərblə üzülüşüb Rusiyaya doğru getsinlər. Hər halda, bu baş verdi. Mənə elə gəldi ki, bu, Azərbaycanı çətin vəziyyətə salacaq. Bu çətin vəziyyətin ən başlıca detalı o olacaq ki, Azərbaycan Rusiyanın qarşısında artıq müdafiəsiz qalacaq. Bu artıq baş verməkdədir. Bunun fəsadları haqqında isə fikirləşmək çətindir. Rusiya elə bir dövlətdir ki, onun davranışına proqnoz vermək mümkün deyil. Əgər Azərbaycanda hakimiyyətdə oturub Rusiyaya güvənənlər sadalövhcəsinə düşünürlərsə ki, Qərblə davrandıqları kimi Rusiya ilə davrana biləcəklər, yəni rahat şəkildə Rusiyanı kənara ata biləcəklər, Rusiya bu xidmətlərinə görə onları yuxarı başa keçirəcək, mənə elə gəlir ki, bu, həddindən artıq yanlışdır. Rusiyanın siyasəti fərdlər üzərində qurulmayıb, maraqlar üzərində qurulub. Bunun üçün Azərbaycan tarixinə müraciət etmək kifayət edir. Mənə elə gəlir ki, hər şey Azərbaycanın təklənməsinə doğru gedir. O cümlədən də hakimiyyətin".

❑ **KƏNAN**




# AMİP bələdiyyə seçkilərində iştirak qərarı verdi

**Oktyabrın 1-də AMİP Siyasi Şurasının iclası keçirilib. Partiyanın mətbuat xidmətindən "Yeni Müsavat"a verilən xəbərə görə, iclasda ölkədəki ictimai-siyasi vəziyyət, həmçinin dekabr ayında keçiriləcək bələdiyyə seçkilərində partiya üzvlərinin iştirakı ilə bağlı müzakirələr aparılıb. Müzakirələr zamanı yerli qanunvericilik orqanları ilə əlaqədar mövcud qanunların icra edilməməsi səbəbindən bələdiyyələrin icra strukturlarının əlavəsinə və real gücü olmayan əhəmiyyətsiz qurumlara çevrilməsi xüsusi olaraq vurğulanıb.**

İclas iştirakçıları bələdiyyələrin statusunun artırılması və onların yerlərdə real yerli hakimiyyətə çevrilməsi üçün siyasi partiyalar, vətəndaş cəmiyyəti və cəmiyyətin digər təbəqələri ilə müzakirələrin keçirilməsi, seçkiqabağı demokratik mühitin formalaşması istiqamətində birlikdə mübarizə aparmağın zəruriliyini diqqətə çatdırıblar. Qeyd edilənlərlə yanaşı Siyasi Şura üzvləri tərəfindən yekdilliklə bələdiyyə seçkilərində iştirakın vacibliyi vurğulanıb.

İclasda bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar AMİP Siyasi Şurası, Mərkəzi Şura üzvlərinin və partiya katiblərinin regionlara nəzərdə tutulan səfərləri və növbəti il üçün yerli təşkilatların qarşısında duran vəzifələrlə bağlı müvafiq qərarlar qəbul edilib.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Kəlbəcər girovlarının məsələsi BMT və AŞ PA müstəvisinə çıxdı

**Xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 69-cu sessiyasındakı çıxışında Kəlbəcər rayonu ərazisində erməni silahlı qüvvələri tərəfindən girov götürülən Azərbaycan vətəndaşlarına işgəncələrin verilməsi barəsində məlumat verib. Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında deyib.**

Onun sözlərinə görə, E.Məmmədyarov çıxışı zamanı Qarabağ münaqişəsinə müxtəlif aspektlərdən toxunub. O, sərhədyanı ərazilərdə, qoşunların təmas xəttində Azərbaycanın mülki əhalisinin atəşə tutulması barədə faktları da BMT ictimaiyyətinin diqqətinə çatdırıb. "Ermənistan tərəfindən mütəmadi şəkildə atəşkəs rejiminin pozulması və Azərbaycanın dinc sakinlərinin məqsədyönlü şəkildə hücumlara məruz qoyulması nəticəsində cəbhə xətti yaxınlığında yaşayan sakinlərin ölümü və yaralanması halları baş verir. Bu yaxınlarda işğal edilmiş ərazilərdə öz qohumlarının məzarını ziyarət edən bir neçə mülki azərbaycanlı əsir götürülərək işgəncələrə məruz qoyulub, onların bəziləri hətta öldürülüb", - deyə nazir əlavə edib.

**H.Hacıyev nazirin BMT tribunasındakı çıxışından və dünya ictimaiyyətinə səslənişdən sonra ermənilərin beynəlxalq qınaqla üzbəüz qalması şəraitində girovlarla bağlı addım atıb-atmayacağı barədə proqnoz verməyə çətinlik çəkdi:** "Diplomatiyada ən çətin məsələ proqnoz söyləməkdir. Hər halda, cənab nazir ən ali kürsüdən bu məsələni qaldırıb və dünya birliyinə müraciət edib". Bəs görəsən, prezidentlərin Paris görüşü ərəfəsində girovlar azad oluna bilərmi? Yeri gəlmişkən, bir neçə gün öncə Azərbaycan tərəfi təmas xəttində Azərbaycan tərəfə girov düşən ermənini ölkəsinə qaytarmaqla xoş məram nümayiş etdirdi. XİN rəsmisi bu barədə də konkret nəsə deməyin çətin olduğunu vurğuladı.

Qeyd edək ki, ötən həftə qondarma "DQR"in separatçı rejimi Azərbaycan vətəndaşı Həsən Həsənovun meyitini qaytarmağa hazır olduqlarını bəyan edib. Ermənistan kütləvi informasiya vasitələrində iyulun 11-də erməni xüsusi təyinatlıları tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunun Şaplar kəndində keçirilən əməliyyat zamanı Həsən Həsənov adlı bir azərbaycanlının öldürülməsi, Şahbaz Quliyev və Dilqəm Əsgərov adlı iki azərbaycanlının isə girov götürüldüyü və onlara cinayət işi açıldığı barədə məlumatlar yayılmışdı. BQXK-dan verilən məlumata görə, öldürüldüyü iddia edilən azərbaycanlı Dağlıq Qarabağda dəfn edilib.

**Bu arada Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) İcraiyyə Komitəsinin 65-ci sessiyasında da Ermənistanın təcavüzkarlığı və azərbaycanlı girovların məsələsindən danışılıb. Tədbirdə çıxış edən Azərbaycanın baş nazirinin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov deyib ki, Azərbaycanın Dağlıq Qarabağ regionuna bitişik rayonlar tamamilə dağıdılıb:** "ATƏT-in iki faktaraşdırıcı missiyasının işğal edilmiş ərazilərə səfəri və mövcud vəziyyəti qiymətləndirməsi zamanı bu təşkilat dağıntıların yüksək dərəcədə olmasını qeyd edib və Azərbaycanın işğal edilmiş ərazilərində başqa ölkələrdən olan etnik ermənilərin məskunlaşdırılmasını təsdiqləyib. İşğal edilmiş ərazilərin demoqrafik balansının pozulması və məcburi məskunlaşdırma prosesi bu günə qədər davam edir".

**Azərbaycanlı girovlardan bəhs edən Ə.Həsənov bildirib ki, bu ilin iyulunda Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov Azərbaycanın ermənilər tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda öz əcdadlarının məzarlarını ziyarət edərkən erməni tərəfi onları tutub:** "Onlardan biri - məcburi köçkün Həsən Həsənov əsir götürülərkən öldürülüb. Erməni tərəfi bu dinc vətəndaşları yalandan təxribat törətməkdə ittiham edir, hazırda onlar ermənilərin əlində əsirdir və orada qeyri-insani rəftara məruz qalırlar. Bütün bunlar beynəlxalq hüququn, o cümlədən Dördüncü Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır. Biz əsirlikdə olan həmvətənlərimizin dərhal qaytarılmasını, habelə Həsən Həsənovun meyitinin bizə verilməsini tələb edirik. Biz, həmçinin BMT-ni və onun müvafiq strukturlarını, habelə başqa beynəlxalq təşkilatları Ermənistana təsir göstərməyə və yuxarıda adları çəkilən vətəndaşların qaytarılmasına kömək etməyə çağırırıq. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində və BMT Baş Məclisinin qətnaməsində, habelə beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bir sıra sənədlərdə qeyd edildiyi kimi, azərbaycanlı qaçqınların və daxili köçkünlərin qaytarılmasına imkan yaradılması bu kateqoriyaya aid insanların hərtərəfli müdafiəsi üçün son dərəcə vacibdir".

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) plenar iclasında irqçilik və dözümsüzlüyün artması ilə bağlı məsələnin müzakirəsində çıxış edən Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Qənirə Paşayeva da Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən Şahbaz Quliyev, Dilqəm Əhmədov və öldürülən Həsən Həsənovdan danışıb. Q.Paşayeva çıxışında xatırladıb ki, Ermənistanda nifrətin, dözümsüzlüyün və irqçiliyin təhsil sistemində, siyasətçilərin çıxışlarında və KİV-də geniş yayılması nəticəsində bu ölkədə etnik təmizləmə siyasəti aparılıb:** "1988-ci ildə bu ölkədə yaşayan azərbaycanlılar zorla öz evlərindən çıxarılaraq qovulublar. Bundan sonra Ermənistan Azərbaycan torpaqlarını işğal edərək 20 mindən çox azərbaycanlını qətlə yetirib, Xocalıda soyqırım həyata keçirib. Bir milyon azərbaycanlı öz evindən zorla qovularaq Ermənistan tərəfindən qaçqın və məcburi köçkün salınıb və onlar 20 ildən artıqdır öz evlərinə dönə bilmirlər".

**Q.Paşayeva bildirib ki, Ermənistan AŞ PA-nın 1416 saylı qətnaməsini yerinə yetirməyərək işğal altındakı Azərbaycan torpaqlarını azad etmir:** "Bu qətnamənin yerinə yetirilməsi istiqamətində addımlar atmaqdansa, Ermənistan nümayəndə heyətinin bəzi üzvləri burada Azərbaycanla bağlı dezinformasiyalar səsləndirirlər. Əgər siz Azərbaycana gəlsəniz, ölkəmizdə yaşayan və Azərbaycan vətəndaşı olan ermənilərlə görüşə bilərsiniz. Amma Ermənistanda bir nəfər də azərbaycanlı qalmayıb, onların hamısı zorla öz evindən qovulub. Azərbaycanda erməni kilsəsinə toxunulmayıb, amma Ermənistanda azərbaycanlılara məxsus bütün məscidlər, dini, tarixi, mədəni abidələr, hətta qəbiristanlıqlar belə dağıdılıb. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında da azərbaycanlılara məxsus bütün dini, tarixi, mədəni abidələri, məzarlıqları dağıdır, bizim ölkəmizdə sizə göstərə bilmək üçün kifayət qədər foto və videomateriallar var. Ermənistan tərəfindən girov götürülən azərbaycanlılar - Şahbaz Quliyev və Dilqəm Əhmədova qarşı bütün beynəlxalq normaları pozaraq insanlıqdan kənar əməllər həyata keçirilər. Həsən Həsənov vəhşicəsinə qətlə yetirilib, Şahbaz Quliyev və Dilqəm Əhmədova qarşı əziyyət və işgəncələr verməkdə davam edilirlər. AŞ PA bu məsələyə özünün sərt münasibətini göstərməli və onların azadlığı üçün addımlar atmalıdır. Düşünə bilirsinizmi, 20 ildən artıqdır ki, öz evinə dönə bilməyən, onu görə bilməyən bir insan öz evini görməyə gedir və ona qarşı bu cür insanlıqdan kənar əməllər edilir, əziyyət verilir. Mən məruzəni dəstəkləməklə yanaşı, məruzədə son zamanlar narahatlıq doğuran bir məsələnin də öz əksini tapmasını istəyərdim".

**"Avropa Şurası Parlament Assambleyasında Qarabağ probleminin həlli ilə bağlı üzv olduğum Avropa Liberal Demokratik Alyansda da gərgin müzakirələr olub". "KarabakhİNFO.com" beynəlxalq e-jurnalının verdiyi xəbərə görə, bu barədə millət vəkili Fazil Mustafa məlumat verib. Deputatın sözlərinə görə, əvvəlcə erməni millət vəkili Zöhrabyan, Qarabağ ermənilərinin üçün Azərbaycanda yaşamağın mümkünsüzlüyünü dilə gətirdi və bildirdi ki, millətlərin öz müqəddəratını təyin etmə hüququ əsas götürülməlidir. Millət vəkili Rafael Hüseynov onun cavabını verib ki, işğalla öz müqəddəratını təyinetmə arasında fərqi doğru anlamaq lazımdır. Bir qədər sonra təkrar söz alan erməni millət vəkili Krımla Qarabağın müqayisəsinin yanlış olduğunu, bu məsələnin Şotlandiya ilə müqayisə olunmasının daha yerində olacağını dilə gətirib. Daha sonra Fazil Mustafa yenidən söz alıb:** "Bu dəfə mən söz alaraq, bunun erməni həyasızlığı olduğunu bildirdim. Və təklif etdim ki, Avropa Şurası Ermənistanın Qarabağı işğalı sözünü işlətməkdən qorxursa, o zaman Krımın da, Gürcüstan ərazilərinin də işğalından danışmaqdan imtina edin. Ermənilər öz müqəddəratını təyin etmək istəyirlərsə, işğal etdikləri əraziləri boşaltsınlar, bütün qaçqınlar öz torpaqlarına qayıtsınlar, o zaman bölgənin bütün əhalisi ilə birlikdə Azərbaycan hakimiyyəti müqəddərat məsələsini müzakirə edə bilər. Yenidən söz almaq istəyəndə, mən də cavab verəcəyimi bildirdiyimə görə spiker müzakirələri kəsdi".

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, AŞ PA-da Azərbaycanın nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva sessiyada Azərbaycanda yaşayan ermənilərdən bəhs edib:** "Bəzən Azərbaycanda ermənifobiyanın mövcud olması səslənir. Bu mifin dağılmasına misal çəkərək qeyd etməliyəm ki, Azərbaycanda 30 mindən çox etnik erməni yaşayır. Əksinə, Ermənistanda Azərbaycanfobiyanın mövcud olmasının təsdiqi isə Ermənistanda etnik təmizləmə nəticəsində bütün azərbaycanlıların deportasiya olunması və ən ağrılısı Azərbaycan torpaqlarında azərbaycanlıların qətlə yetirilməsidir".

***

Azərbaycan və Ermənistan prezidentlərinin Paris görüşü ərəfəsində Fransa paytaxtında ölkəmizə qarşı təxribata yol verilib. Belə ki, Parisdə keçirilən "IFTM Top-Resa-2014" turizm sərgisinə separatçı Dağlıq Qarabağ rejiminin nümayəndə heyəti də qatılıb. Mediaforum saytı armtoday.info-ya istinadla xəbər verir ki, separatçı rejimin nümayəndə heyətinə yerli turizm idarəsinin rəhbəri Sergey Şahverdiyan rəhbərlik edib. Separatçı rejimin nümayəndə heyəti üçün ayrılmış paviliyonda Dağlıq Qarabağ bölgəsi, yerli turizm xidmətləri haqda məlumatların yer aldığı ədəbiyyat təqdim olunub.

Armtoday.info Azərbaycan təmsilçilərinin Dağlıq Qarabağı sərgidən uzaqlaşdırmaq cəhdlərinin boşa çıxdığını bildirir. "AzərTAc"ın məlumatına görə, Parisin məşhur "Porte de Versailles" salonunda keçirilən "Top Resa" dünya turizm sərgisinə dünyanın 164 ölkəsindən 1200-ə yaxın şirkət qatılıb. Azərbaycanı bu il sərgidə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Geo travel", "Gilanturizm", "Regea travel", "Proxy travel" və "SW travel" turizm şirkətləri təmsil edib.

**Rəsmi Bakı isə məsələni araşdırır. XİN-dən bildirildi ki, Fransadakı səfirlik bu məsələ ilə bağlı müvafiq araşdırma aparır:** "Fransanın rəsmi qurumlarına bununla əlaqədar müraciətlər olub, məsələ araşdırılır. Ermənistan tərəfi həmişə təxribatçı əməllərə əl atıb və bu ənənələrə sadiq qalıb".



**Elmar Məmmədyarov:** "Bu yaxınlarda işğal edilmiş ərazilərdə öz qohumlarının məzarını ziyarət edən bir neçə mülki azərbaycanlı əsir götürülərək işgəncələrə məruz qoyulub, onların bəziləri hətta öldürülüb"



**Əli Həsənov:** "Erməni tərəfi bu dinc vətəndaşları yalandan təxribat törətməkdə ittiham edir, hazırda onlar ermənilərin əlində əsirdir və orada qeyri-insani rəftara məruz qalırlar"



**Qənirə Paşayeva:** "Həsən Həsənov vəhşicəsinə qətlə yetirilib, Şahbaz Quliyev və Dilqəm Əhmədova qarşı əziyyət və işgəncələr verməkdə davam edirlər"

# Şadlıq evlərində vəziyyət necədir?

## Bəziləri təmtəraqlı toy qadağalarına riayət etsə də, əksəriyyəti buna məhəl qoymur

**Hökumətin yas məclislərində ehsan süfrəsinə müdaxiləsi toy mərasimlərinə də şamil edilməyə başlayıb. Yas mərasimlərində artıq demək olar ki, bu məhdudiyyətlərə əməl edilir. Belə ki, əvvəlkindən fərqli olaraq yas süfrələrində yalnız halva, xurma, çay və limon verilir. Ancaq əhali ehsan süfrələrindən daha çox, şadlıq evlərindəki israfçılığın qarşısının alınmasını istəyir. Çünki yas mərasimlərində ehsan könüllü şəkildə verildiyi halda, toylarda restoranlarda məcburi menyu təqdim edilir.**



Toy sahibi də məcbur qalıb borc-xərc tapıb bu menyu ilə razılaşaraq toy edir. Toylarda israfçılığa son qoyulması ilə bağlı qeyri-rəsmi məhdudiyyətlərə əməl edən şadlıq evləri də var, buna etiraz edənlər də. Bir sıra şadlıq evləri ilə əlaqə saxlayıb standart menyunun ləğv olunub-olunmaması ilə maraqlandıq. Bir sıra şadlıq evlərində standart menyu ləğv edilmək üzrə olsa da, əksəriyyəti bu göstərişə əməl etmədiyini bildirdi. Səbəb kimi isə bunun rəsmi bir qərar olmadığını gətirdilər. Qadağaya əməl edən şadlıq evlərindən isə bildirdilər ki, artıq onların şadlıq evlərində müştərilərə konkret menyu yox, onların arzuladığı menyu təklif edilir. Belə ki, artıq vətəndaşın sifarişi əsasında süfrə hazırlanır. Bundan sonra müştəri arzuladığı menyunu sifariş verərək toy mərasimini təşkil edir. Amma qeyd etdiyimiz kimi, əksəriyyət şadlıq evlərində israfçılıq hələ də davam etməkdədir. Güman olunur ki, toylarda israfçılığa qarşı mübarizə bütün şadlıq saraylarını əhatə edəcək. Ancaq toy mərasimlərinə şamil olunacaq bu qadağaların şadlıq evlərini olduqca pis vəziyyətə qoyacağını düşünənlər də var. Bu qadağalar şadlıq evləri və restoranların fəaliyyətini və gəlirlərini əhəmiyyətli şəkildə məhdudlaşdıracaq. Onu da qeyd edək ki, Bakıdakı şadlıq evi və restoranlara qeyri-rəsmi olaraq təmtəraqlı ad günləri və sünnət toylarının keçirilməsi də qadağan edilib. Şadlıq evlərinin nümayəndələrinin bəziləri toy, nişan sahibləri ilə müqavilə bağladığını, bəziləri isə ümumiyyətlə, belə bir sənədə ehtiyacın olmadığını vurğuladılar. Onlar bu qadağalar haqda nə vaxt rəsmi qərar çıxarsa, o zaman buna əməl edəcəklərini bildirdilər. Qeyd edək ki, Milli Məclisin payız sessiyasının ilk iclasında toylarda israfçılıq problemi qaldırılacaq. Həmçinin ad günü, nişan mərasimi və sairə tədbirlərin də məhdud çərçivədə keçirilməsi üçün müdaxilələr olacaq.

❑ **Günel MANAFLI**



## Bakıda kişi arvadını bıçaqladı

**Bakının Sabunçu rayonunda ailədaxili münaqişə bıçaqlanma ilə nəticələnib. Məlumata görə, rayonun Bilgəh qəsəbəsinin Azərbaycan Qadını küçəsində yaşayan 50 yaşlı Xanım Kərimova həyat yoldaşı tərəfindən bıçaqlanıb. Yaralı qadın təcili tibbi yardım avtomobili ilə 3 saylı şəhər xəstəxanasına çatdırılıb. Həkimlər Xanım Kərimovanın vəziyyətinin ağır olduğunu bildiriblər. Həyat yoldaşını bıçaqlamaqda şübhəli bilinən Rafiq Kərimov hadisə yerindən qaçıb.**

Hazırda onun tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 126.1 qəsdən sağlamlığa ağır zərərvurma maddəsi ilə cinayət işi başlanıb, istintaq davam edir.

## Azərbaycanda qurbanlıq heyvanların satış qiyməti açıqlanıb

**Qurban bayramı öncəsi qurbanlıq heyvanların kəsimi ilə əlaqədar Türkiyədən Azərbaycana səyyar kəsim avadanlıqları gətirilib. "APA-Economics"in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında kənd təsərrüfatı naziri Heydər Əsədov deyib.**

Nazir qeyd edib ki, kəsim işlər təmiz şəraitdə həyata keçirilməsi məqsədilə müvafiq çadırlarda həyata keçiriləcək.

"Növbəti ildən isə bu işlər geniş şəkildə tətbiq olunacaq. Kəsim sistemini təkmilləşdirmək üçün ölkə daxilində iri miqyaslı kəsim məntəqələrinin tikintisinə başlanıb", - deyə H. Əsədov bildirib.

Nazir həmçinin bildirib ki, Qurban bayramında heyvanların ucuz qiymətə alınması üçün bütün zəruri tədbirlər görülüb.

Onun sözlərinə görə, heyvanların satış qiymətləri 90-95 manat və daha ucuz qiymətlərlə vətəndaşlara təqdim olunacaq.

"Keçən ilin qiymətləri ilə bu ilin qiymətlərini müqayisə etsək görərik ki, ilbəil istehsal vasitələrinin, o cümlədən gübrənin qiyməti ilbəil artır. Təbii olaraq, qiymət dispariteti baş verməsin deyə, müəyyən artımlar baş verməlidir. Bir az qiymətin qalxmasını mən kənd təsərrüfatı naziri kimi məqbul hesab edirəm", - deyə H. Əsədov əlavə edib.

## Xırdalanda sürücü qadını öldürüb qaçdı

**Abşeron rayonunda bir nəfərin ölümü ilə nəticələnən ağır yol qəza hadisəsi baş verib. Axar.az xəbər verir ki, Xırdalan şəhəri Heydər Əliyev prospektində, Əlillər binasının qarşısında naməlum avtomobil bina sakinini vurub və hadisə yerindən qaçıb.**

Nəticədə 1962-ci il təvəllüdlü Əliyeva Ellada Məmmədqasım qızı hadisə yerində ölüb.

Mərhumun həyat yoldaşının əlil olduğu bildirilir.

Hüquq-mühafizə orqanları hazırda qəzaya səbəb olan avtomobilin axtarışı ilə məşğuldur.

## Bərdədə qadın abort zamanı öldü

**Azərbaycanda daha bir ana ölümü baş verib. Qafqazinfo.az xəbər verir ki, hadisə Bərdə rayon xəstəxanasının doğum şöbəsində qeydə alınıb. Belə ki, 36 yaşlı Şahbazova Sitarə abort zamanı dünyasını dəyişib.**



## Bir milyonluq "Bugatti Veyron" Bakıda

**Bakıya bir milyonluq maşın gətirilib. Oxu.az xəbər verir ki, şahidlər bu lüks avtomobilin fotolarını İçərişəhərdə çəkiblər. Fotodakı maşının qiyməti bir milyondan (dollar) çox olan son model "Bugatti Veyron" avtomobilidir.**

Fotodakı avtomobilin maksimal sürəti 431 km/s təşkil edir.

7993 sm? (8 litr) mühərriklə təchiz olunmuş bu modellər 1020-1040 at gücünə malikdir.

Avtomobil 100 km/s sürəti 2.5 saniyəyə yığır.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impotensiyadək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Mühasiblərin və bütün iş adamlarının nəzərinə!

**Yeni Hesablar planı və mühasibat uçotunun veynəlxalq standartları nəzərə alınmaqla qanunvericilikdə olan ən son dəyişikliklərlə iri həcmli 506 səhifəlik "Mühasibat uçotu, vergilər" nəzəri-praktiki kitabı çap olunub.**

**Kitabda balans, mənfəət, zərər və digər hesabatların tərtibi, vergi bəyannamələrinin (rəngli formada) və Vergi Məcəlləsinin nümunələrlə izahı və s. Məsələlər nəzəri həmçinin praktiki şəkildə nümunələrlə şərh edilib.**

**Tel: (050) 215-38-49**

**Kitabı şəhərin kitab mağazalarından almaq olar.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS english EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



**Elan**

**Hacıqabulda İpək Yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2 ədəd 2 otaqlı, 1 ədəd 4 otaqlı qonaq evi, 3 hektar meyvə bağı, 200 ədəd mal-qara saxlamaq üçün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2 ədəd balıq gölü, daimi işığı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**



## ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



unvan "SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

YENİ MÜSAVAT
N 245 (5954) 2 oktyabr 2014

# Milyonçu iş adamı fəhlələri aldatmaqda davam edir


Rüfət Bayramov


Əlizamin Bayramov

**“Azərsənayeinşaat”MMC sahibi Əlizamin Bayramovun yüzlərlə fəhləni işlədib əmək haqlarını verməməsi haqda yazmışdıq. Redaksiyamıza Ə.Bayramovun və oğlu Rüfət Bayramovun dövlət qurumlarını da aldatmaları haqda daha bir məktub daxil olub. Həmin məktubu imzalayan fəhlələr yazır: “Biz MMC-nin obyektlərində işləyib, amma pullarını ala bilməyən yüzlərlə işçiyik.**

## “Tikinti maqnatı Əlizamin Bayramov əmək müfəttişini də saymır”

Pulumuzu verməyən MMC-nin direktoru Rüfət və atası Əlizamin Bayramovlardır. Mətbuata əvvəlki məktubumuzda bildirmişdik ki, bir çox ünvanlara şikayət etsək də, nəticə olmayıb. Bizimlə əmək müqaviləsi bağlanmadan qul kimi işlədiblər. Pulumuzu da vermirlər. Ona görə də Dövlət Əmək Müfəttişliyinə müraciət etmişdik. Şikayətimizi yerində araşdırmaq üçün MMC-yə müfəttiş yolladılar. Müfəttiş gəldi, amma onu da aldatdılar. O, məsələni dövlətin qanunlarının yerinə yetirilməsinə nəzarət edən məmur kimi deyil, aradüzəldən kimi həll etməyə səy göstərdi. Rüfət Bayramov Əmək Müfəttişliyinə 1 sentyabr 2014-cü ildə məktub yazaraq işçilərin pulunu sentyabrın sonuna qədər verəcəyi barədə söz verdi. Müfəttiş də bizimlə hər görüşündə bir ay boyunca bu məktubu əsas tutaraq deyirdi ki, kişi söz verib, yazılı yazıb, gözləyin, ayın axırı gəlsin, pullarınızı alacaqsınız. Sentyabrın 29-da müfəttişə zəng elədik. “Sabah ayın sonudur, pullarımızı verəcəklərmi” soruşduq. Müfəttiş bizə dedi ki, arxayın olun, bu boyda yalan olmaz, Bayramovlarla danışmışam, sabah pullarınızı alacaqsınız".

**Məktub müəllifləri yazır ki, müfəttişə Bayramovların yalan danışdıqlarını, pul verməmək üçün hər kəsə yalan danışa biləcəkləri xəbərdarlığını əvvəldən ediblər:** “Müfəttiş bizə inanmadı, amma biz bilirdik ki, Əlizamin Bayramov və oğlu Rüfət Bayramov yalan deyir. Bir bəhanə edib pulları ödəməyəcəklər. Çünki MMC-nin tikdiyi obyektlərin heç birində, heç bir işçinin pulu heç bir zaman vaxtında ödənməyib. Ata-oğulun verdikləri sözlərə əməl etdiklərini heç kəs görməyib. Müffəttiş bizə israrla pullarınız veriləcək deyirdi. Amma bu dəfə də ata-oğul xislətlərinə sadiq qaldılar. Sözlərini tutmadılar. Pullarımızı ala bilmədik, vermədilər”.

**Məktub müəllifləri yazır ki, 30 sentyabrda müfəttişlə görüşüblər:** “Müfəttişə deyib ki, işçilərə de, bir az da dözsünlər, evimi satıb borclarımı ödəyəcəyəm. Bizim kimsənin mal-mülkündə gözümüz yoxdur. Amma Bayramovların yalanları ilə yaşamaqdan bezdik. Hesabına milyonlar qazandığı işçilərini bu qədər də ələ salmaq olmaz axı. Həm də dövlət müffətişinin əli ilə! Pulu yoxdur, ona görə də guya evini satacaq. Yalandır! 5-6 aydır pullarımızı ala bilmirik. Pulu olmayan adam bu aylar içində yüz minlərlə manat xərcləyə, 1 milyondan çox dəyəri olan Bilgədəki villanın tikintisini davam etdirə bilməz. İçimizdə 5 yaşındakı qızına ad günündə kukla ala bilməyən var. Amma Əlizamin Bayramov qızının ad gününə 150 min manat dəyərində maşın hədiyyə edir. Aldığı 200 minlik ”Porşe" markalı maşını bəyənməyən oğlu Rüfət Bayramova “Audi X” alıb, bahalı maşın kolleksiyası düzəltməz. Bakının ən bahalı yerində - Xaqani ilə S.Vurğun küçəsinin tinində açılmış lyüks restorana qızının yoldaşını, bir türk iş adamı ilə ortaq etməz. Söhbət gəzir ki, Qazaxıstanda obyekt açır. Allah daha da var eləsin, amma bizim pulları versin, sonra getsin lap göyə raket uçursun. Lakin bizim pulları vermədikcə istər-istəməz bizə dəxli olur. Qabaqdan Qurban bayramı gəlir. Evdə, ailədə nə deyək? Qonşudakı borclu olduğumuz marketə nə deyək? Fəhlələrdən Nəcəfin atası ağır xəstədir, böyrəyi əməliyyat edilməlidirir, böyrəyə nə desin? Deyək ki, Əlizamin guya evini satacaq pulumuzu verəcək?

Hörmətli redaksiya, eşitmişik ki, Əlizamin Bayramov bu yalanlarını davam etmək üçün adına olan mal-mülkü yaxın qohum-əqrəbasının adına keçirir. Sizdən bu yalançı oğul atanın yalanlarının qarşısını almaqda bizə kömək etmənizi xahiş edirik".

**Yazıda adları keçən şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**

# Binə problemlər məngənəsində...



## Sakinlər yol, avtobus və qaz problemindən cana doyublar; qəsəbə camaatı Xəzər rayon rəhbərliyinə və nəqliyyat nazirinə müraciət etdilər



**Bakının Binə qəsəbəsi problemlər məngənəsindədir. Qəsəbənin yolları, ictimai nəqliyyatı, qaz təchizatı acınacaqlı vəziyyətdədir. Sakinlərin sözlərinə görə, yollar çala-çuxur, palçıq içindədir, piyadalar az qala qaloş geyinib yol keçsinlər.**

Marşrut avtobuslarında isə basabas, interval çox, səliqəsizlik hökm sürür. Sərnişinlər bu problemlərdən cana doyublar. Üstəlik, qış yaxınlaşdıqca qəsəbədə qazın verilişində fasilələr yaranır, təzyiq aşağı salınır. Qazın zəif verilməsinə görə vətəndaşlar evlərində donurlar. Bu üç problemin girdabında boğulan Binə qəsəbəsinin sakinləri şikayət etməkdən də yorulublar.

**Ancaq nə yollar, nə ictimai nəqliyyat, nə də qaz təchizatı yaxşılaşdırılır. Qəsəbə camaatı Binəni İraq, Suriya küçələrinə oxşadır:** “Hər gün televizorda gördüyümüz o dəhşətli vəziyyət Binədən fərqlənmir. Bezmişik aidiyyəti orqanlara yazmaqdan. İndi qış gəlir, yenə evlərdə donacağıq. Heç bir səbəb göstərilmir ki, nə üçün qaz zəif verilir?!

Özünüz də görürsünüz ki, yollarımız nə gündədir. Burdan hər gün gedib-gəlmək işgəncəyə çevrilib. Avtobuslar bərbad vəziyyətdə, içərisi çirkli, basabas, sərnişinlər bir-birinin üstünə çıxır, marşrutun qapısından sallanırlar.

Hər gün bu dözülməz şəraitdir. Dərdimizi kimə deyək, artıq bilmirik. Binə qəsəbəsi şəhərdən o qədər uzaq deyil. Ancaq qəsəbəyə baxın, elə bil ucqar dağ kəndidir. Palçıq içindədir. Gərək gəmi olsun, bu yollardan keçəsən ," - deyə qəsəbə sakini Samirə Nəsirova şikayətlənir.

**Onun dediyinə görə, Binə qəsəbəsindən taksilər metronun “Koroğlu” stansiyasına qədər müştəri daşıyırlar:** “Adambaşı 2 manatdan müştəri aparırlar. Hər gün taksi ilə getmək də ikiqat xərcdir. Avtobus tapmaq zülmdür, tapanda da basabas olur, minə bilmirsən. Yollar kələ-kötür, dağılmış gündədir. Səkinin qırağında dayanıb avtobus gözləmək olmur. Maşınlar gölməçəyə çevrilmiş yerdən keçirlər, piyadaların üstünə su çilənir. Elə ki, payız-qış gəldi, bizim bu problemlərimiz də başlayır”.



**Qəsəbənin digər sakini Aslan Nuriyev də deyir ki, qaz, yol, marşrut problemlərindən yorulublar:** “Xəzər Rayonu İcra Hakimiyyətinə, Nəqliyyat Nazirliyinə, ”Azəriqaz"ın yerli idarəsinə dəfələrlə şikayət yazmışıq. Xeyir yoxdur. Yenə də bu vəziyyətdir. Danışanda abadlıqdan, gözəllikdən dəm vururlar. Gəlib görsünlər, paytaxtın qəsəbəsi hansı kökdədir. Uşaqlar məktəbə gedə bilmir, yaşlı, xəstə adamlar marşruta minə bilmir".

**Sakinlər deyirlər ki, 2014-2016-cı il Dövlət Proqramına əsasən Bakı və onun ətrafındakı qəsəbə və kəndlər mərhələli şəkildə qazlaşdırılacaq və bütün problemlər tezliklə öz həllini tapacaq:** “İndi 2015-ci il yaxınlaşır, heç nə dəyişməyib. Binə qəsəbəsində yolları görəndə, adam evdən çıxmaq, işdən qayıtmaq istəmir. Biz hər il eyni əziyyəti çəkirik.

Bir az yağış və ya qar yağan kimi yollarımız olur bataqlıq. Sanki hansısa ucqar kənddə yaşayırıq. Tamamilə biabırçılıqdır. Səhər durub işə gedirik, iş yoldaşlarımızın arasında utanırıq. Ayaqlarımız palçıq içində olur. Evə gələndə bilmirik marşrutdan necə düşək ki, ayağımız palçığa batmasın»,



**Qəsəbə sakinlərinin dediklərinə görə, illərdir bu vəziyyət var və prezident sərəncamı başdansovdu icra olunub:** “Prezident sərəncam verdi ki, Bakıətrafı kəndlərin və qəsəbələrin yolları təmir edilsin. Biz də ümidləndik ki, bizim də yollarımız düzələcək. Amma heç bir təsiri olmadı. Yalandan gəlib bir-iki yamaq vurdular, vəssalam. Həmin yamaqlar da keyfiyyətsiz çıxdı. Yollarımız barəsində dəfələrlə şikayətlər edilib, mətbuatda yazılıb, amma yenə də baxan yoxdur. Televiziyalar gəlib çəkdi, qəzetlər yazdı, faydası olmadı”.

**Qəsəbə sakinləri qəzetimiz vasitəsilə Xəzər rayon rəhbərliyinə və nəqliyyat nazirinin müraciət edərək problemlərinin həllini istəyirlər:** “Bu qəsəbədə minlərlə insan yaşayır. Görəsən, icra hakimiyyətinin və yaxud nazirliyin işçisi gəlib bu şəraitdə bir gün yaşaya bilər? Heç vaxt gəlməzlər. Qaz problemi də onlardan fərqlənmir. Qaz idarəsi təzyiqi artırmaq əvəzinə azaldır. Məcbur oluruq odun sobası yandıraq. Qışda daha vəhşət olur. Evlərimizdə donuruq”.

❑ **Emil SALAMOĞLU**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 245 (5954) 2 oktyabr 2014



## Yeni iPhone üçün yeni ciblər hazırlanır

Dünyanın ən məşhur cins markası firmalarının rəhbərləri yeni və daha iri ciblərin hazırlanması üçün "qollarını çirmələyib". Buna səbəb 2014-cü ilin sentyabrında bazara çıxarılan yeni Apple smartfonlarıdır. iPhone 6, iPhone 6 Plus və digər iri həcmli telefonlar üçün yeni cib düşünən firmalar arasında Levi's, Uniqlo, American Eagle, LL Bean, J Crew və Lee var. Firmaların bu addımı atmasına bir çox alıcıların bu istiqamətdəki müraciətləri səbəb olub. Alıcılar bu telefonları şalvarlarının cibində daşıya bilməməkdən şikayətlənmişdilər. Bu səbəbdən də son yarım əsrdə cins şalvar satışında bu qədər düşmə olmuşdu. Yeni model cinslərin bazara çıxacağı tarix hələ dəqiqləşməyib. iPhone 6-nın ölçülərinə gəlincə, uzunluğu 138, eni 67 millimetr. iPhone 6 Plus-da isə vəziyyət daha "faciəvidir" - uzunluğu 158, eni 78 millimetr.



## Bu buğanın çəkisi 1870 kilo, qiyməti 25 min manatdır

Türkiyənin Çorum şəhərində "Tufan" adı verilən, 1870 kiloluq qurbanlıq buğa həm qiyməti, həm də görüntüsü ilə hamını şoka salır. Buğanın ilkin satış qiyməti 25 min manatdır. Fermer Müfit Gürses "Holstein" cinsli buğanı iki il boyunca, özəl üsullarla yetişdirib: "Türkiyənin ən böyük buğası Çorumdan çıxacaq. Bu buğa keçən il 1640 kilo idi. Amma indi 1870 kilodur. Həmkarlarımız inciməsin, amma mən bu məsələdə iddialıyam. Ankara və İstanbulda çox igid buğalar olduğunu eşitsək də, bizim buğamız hamısından böyükdür. Bu məsələdə istənilən şəxslə mübahi-

# "Tom və Cerri"də irqçilik detalları tapıldı

**BBC xəbər verir ki, "Tom və Cerri" cizgi filmində irqçiliklə bağlı detalların olduğu üzə çıxıb. Belə ki, "Amazon Prime Instant Video" saytı bəziləri 70 il öncə çəkilmiş bu cizgi filmlərini "içərisində irqçi ünsürlər var" xəbərdarlığı ilə yayımlayır. Multfilmi izləmək istəyən biri sayta girəndə aşağıdakı xəbərdarlıqla da tanış ola bilir: “”Tom və Cerri" filmi bir zamanlar amerikan cəmiyyətində tez-tez qarşılaşdığımız etnik və irqçi detallarla zəngindir. Bunlar həmin vaxt da yanlış idi, indi də yanlışdır".**

Multfilmin keçmiş bölümlərində qaradərili bir xadimənin yer alması bu xəbərdarlığın yayımlanmasına səbəb olub.



# 50 ildir üzündə şişlə gəzir

**"Simam dəhşətlidir, üzüm qorxuludur. Bunu bilirəm və nə isə etmək iqtidarında deyiləm. Xəstəliyim ağırdır. Bu bəla ilə yaşamaq məcburiyyətindəyəm".**

64 yaşlı Şarlotta Houkin nadir və çox ağır, faktiki olaraq müalicəsiz mərəz sayılan 1-ci tipli neyrofibromatoz xəstəsidir.

15 yaşında Şarlotta bu mərəzə düçar olduğunu anlayıb. Onun belinin aşağı hissəsində dərisində su qovuqcuqlarına bənzər şişlər peyda olub.

Sonrakı 10 il ərzində bu "qovuqcuq"lar Şarlottanın bədənini bürüməyə başlayıb. Milli.Az Daily Mail-ə istinadən bildirir ki, cərrahiyyə əməliyyatları vasitəsilə bu şişlər kəsilib götürülsələr də, az sonra onlar yenidən "qayıtdılar".

İllər boyu evdən-bayıra çıxmayan, utanan və əzab çəkən Şarlotta indi ictimai həyatdadır. O, yerli kilsənin nəzdindəki uşaq xəstəxanasına yollanır, oradakı balacalara həyan olur.

"Uşaqlarla oynamaq, onlara nağıllar danışmaq, layla demək həyatımı uzadır. Balacalar mənə özümü cavan hiss etməyə imkan verir", - Şarlotta söyləyib.

1 övlad anası və nənə olan Şarlotta Corciya ştatında yaşayır.

Loqanuill şəhərində ömür sürən Şarlotta Houkinsin sözlərinə görə, həyatının 59 ilini bu mərəzlə keçirib.





## 16 min dollarlıq maşına 810 min dollarlıq nömrə aldı

Taylandda keçirilən hərracların birində 19 yaşındakı universitet tələbəsi ölkənin ən bahalı və ən şanslı sayılan Banqkok çıxışlı 1 .. 1111 seriyalı avtomobil nömrəsinə 25 milyon baht (təxminən 810 min dollar) pul ödəyib. Türkiyənin "Milliyet" qəzetinin xəbərinə görə, ölkənin ən nüfuzlu universitetlərindən biri olan Assumption Universitetində oxuyan Thanapat Tantisevekul "əgər lazım olsaydı 1,6 milyon dollara qədər artırmaya gedəcəkdim" deyib. 11 il əvvəlki hərracda bu nömrə üçün 11 milyon baht (təxminən 355 min dollar) verilmişdi. Nömrə üçün sərvət ödəyən gənc hərracı qazandığı üçün çox xoşbəxt olduğu və nömrəyə çox pul ödəməsi ilə bağlı rəylərə isə "o qədər də bahalı deyil" cavabını verib. Xatırladaq ki, tələbə 810 min dollarlıq nömrəni dəyəri 16 min dollar olan "Nissan Almera" avtomobilinə taxıb.




**QOÇ** - Qarşınızda kifayət qədər mistik bir gün durur. Ola bilsin ki, anlaşılmaz hadisələrlə rastlaşasınız. Əgər bunun qarşısını almaq istəyirsinizsə, dua və ibadətlərinizin, müqəddəs yerlərə ziyarətlərinizin sayını artırmalısınız.

**BUĞA** - Kifayət qədər təzadlı ərəfədir. Hər addımı ölçüb-biçməyə çalışın. Mövqeyinizə zidd hərəkətlərə yol verməyin. Qəribə də olsa, astroloji göstəricilər saat 14-dən etibarən kiməsə güzəştə getməyi məsləhət görmür.

**ƏKİZLƏR** - Bütün işlərinizin qaydasında gedəcəyini bildirən Göy qübbəsi kiməsə yalan vəd verməyinizin əleyhinədir. Odur ki, bacarmadığınız işin qulpundan yapışmamalısınız. Dostlara güvənin.

**XƏRÇƏNG** - Günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Daxili süstlüyünüz və fəaliyyətlə bağlı gərginliyiniz arxada qalacaq. Ətrafınızdakı dost-tanışlar isə qarşıya qoyduğunuz məqsədlərə yetişməkdə sizə yardımçı olacaqlar.

**ŞİR** - Əgər bu təqvimdən zövq alıb rahatlanmaq istəyirsinizsə, mütləq səfərə çıxın. Bununla siz stress və mənəvi ağrılarınızı aradan qaldıra, enerjinizi daha da saflaşdıra bilərsiniz. Ailə-sevgi məsələlərində xırdaçılığa yer verməyin.

**QIZ** - Özünüzü gərginliyə salmayın. Uzun-uzadı kiməsə, nəyisə izah etmək enerji itkinizdən savayı bir iş deyil. Əgər bu kimi lüzumsuz işlərlə məşğul olsanız, ixtiyarınızda olan gündən zövq almayacaqsınız.

**TƏRƏZİ** - Bürcünüzün romantikaya olan hədsiz həvəsi çox güman ki, bu gün təmin olunacaq. Çünki saat 12-dən etibarən maraqlı gəzintilər, əsrarəngiz istirahət və münasibətlərdə müsbət dönüş yolunuzu gözləyir.

**ƏQRƏB** - Bəri başdan bilməlisiniz ki, gün ərzində enerji sərf etdiyiniz istənilən sahədə uğurlar sizi tərk etməyəcək. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq. Səfərləri isə təxirə salın.

**OXATAN** - Əsas diqqətinizi maliyyə məsələlərinə yönəldin. Yaxşı bilirsiniz ki, qlobal işləriniz pulsuz keçmir. Bu səbəbdən də kiməsə borc vermək fikrinə düşməyin. Ulduzlar başqalarının şəxsi işlərinə müdaxilə etməyinizin əleyhinədir.

**OĞLAQ** - Bütün vacib işlərinizi saat 11-14 arası tamamlamağa çalışın. Əmin olun ki, həmin qısa vaxtda qarşınızda duran vəzifələrin əksəriyyətini həyata keçirə biləcəksiniz. Qalan vaxtlar riskli və yeni işlərdən imtina edin.

**SUTÖKƏN** - Ehtiyatlı olun, səhhətinizlə bağlı xoşagəlməzliklər baş verə bilər. Ələlxüsus da saat 12-16 arası özünüzü maksimum qorumalı, əsəblərinizi cilovlamalısınız. Bu gün istənilən səfəri təxirə salsanız, yaxşıdır.

**BALIQLAR** - "Nə ətdir, nə balıq" misalını indiki durumunuza aid etsək, heç də yanılmarıq. Çünki çəkdiyiniz əziyyətlər hədər gedir. Amma bu gün inanmadığınız istiqamətdən yaranmış boşluğu dolduranlar tapılacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən yaşlı klounu öldü



Amerikada dünyanın ən yaşlı klounu olan Floyd Krikmor dünyasını dəyişib. Lenta.ru saytının xəbərinə görə, Creeki ləqəbli kloun 98 yaşında dünyasını dəyişib. Krikmor Montana ştatındakı Billinqs şəhərindəki evində dünyasını dəyişib. Ölümə səbəb ürək çatışmazlığı olub. Artistin ölümü ilə bağlı mətbuata onun oğlu məlumat verib. Floyd Krikmor 14 iyul 1916-cı ildə Montana ştatında dünyaya gəlib. Həyatının böyük hissəsini rançoda çalışıb, 1981-ci ildən sirk fəaliyyəti ilə məşğul olub. 1993-cü ildə Creeki Beynəlxalq Klounlar Assosasiyası tərəfindən ilin klounu elan edilub. 2012-ci ilin fevralında isə ən yaşlı kloun olaraq "Ginnesin rekordlar kitabı"na düşüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.600